**Azərbaycan Respublikasında 2020-ci ilin “Könüllülər ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI**

Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır.

Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir.

Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərimizin həyat tərzinə çevrilmişdir. ASAN, “Regional İnkişaf” İctimai Birliyi, “Bir” Tələbə könüllülüləri və digər könüllü hərəkatları yaranmış, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşmışdır.

Könüllülərimiz öz kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları fəaliyyətə yeni nəfəs vermiş, ölkəmizdə Avroviziya Mahnı Müsabiqəsi, I Avropa Oyunları, "Formula 1" yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynamışlar.

Bu il 5 dekabr Beynəlxalq Könüllü Günü ərəfəsində Azərbaycanda ilk dəfə keçirilmiş və bütün könüllüləri əhatə etmiş Könüllülük Həftəsi ölkəmizdə könüllülüyün yeni mərhələyə qədəm qoyduğunu və böyük potensiala malik olduğunu nümayiş etdirmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə qərara alıram:

1. 2020-ci il Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2020-ci ilin Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 30 dekabr 2019-cu il**

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 30 dekabr 2019-cu il tarixli Sərəncamı ilə 2020-ci il Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilmişdir.**

**"Könüllünün öz/əl kitabı" "Könüllülər ili"nə töhfə vermək məqsədilə nəşr edilib.**
**Kitab könüllülük fəaliyyətinin təşviqi məqsədilə ödənişsiz yayılır, satıla bilməz.**

**Nadir ADİLMAN**
**(Adilov)**
*Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin üzvü, sədr müavini, hüquq üzrə fəlsəfə doktoru, dosent, biznes inkişaf yazarı*

# KÖNÜLLÜNÜN ÖZ/ƏL KİTABI

*Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi tərəfindən 04/C-10830-19 nömrəsi ilə 29.11.2019-cu il tarixində qeydiyyata alınıb. Əsərin qeydiyyatı haqqında Şəhadətnamə № 11292.*
*Müəllif hüquqları qorunur.*

**BAKI-2020**

**RƏYÇİLƏR:**


**Dr. Sənan Tapdıqov**
*Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin üzvü, sədr müavini*

**Dr. Rövşən Cavadov**
*Bakı Dövlət Universitetinin Gender və tətbiqi psixologiya kafedrasının dosenti*

**Dr. Fərhad Qaraşov**
*XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzinin Müşahidə Şurasının sədri, iqtisad üzrə fəlsəfə doktoru*

**Dr. Rəşad Hüseynov**
*Birləşmiş Millətlər Təşkilatının Qlobal Kommunikasiyalar Departamentinin Azərbaycan təmsilçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru*


Kitab işgüzar inkişafında, karyerasında müvəffəqiyyət qazanmaq istəyən, istər cəmiyyətdə, istərsə də kollektivdə könüllü olaraq ilk addımlarını atan gənclərə, o cümlədən hazırda könüllü olan tələbələrə, həmçinin onların valideynlərinə, təşkilati fəaliyyətlərinə könüllü cəlb etmək istəyən qurumlara, bu qurumların könüllülərlə işləyən əməkdaşlarına ünvanlanıb.


**İSBN** 978-9952-3739-8-1



© Nadir Adilov, 2020

## MÜNDƏRİCAT


Ön söz ........................................................................9

Minnətdarlıq .............................................................12

Könüllülük: Tarixi miras, davamlı dəyər ...............14

Beynəlxalq təcrübədə könüllülük ...........................21

Fərdi və işgüzar inkişafın önəmli mərhələsi......32

Bacarıqlarına meydan ver, arzularından yorulma....47

Peşəkarlıq ..................................................................54

Sosial şəbəkələr və işgüzar inkişaf .........................59

Maliyyə savadlılığı ....................................................64

Rəqəmsal savadlılıq ..................................................70

Əziz könüllü valideynləri ........................................76

İşgüzar həyat ...........................................................84

Karyera pilləkəninin növbəti pilləsi .......................88

Könüllülərlə işin təşkili ............................................97

Müasir Könüllülük hərəkatında milli könüllü təsisatları ....................................................................104

“ASAN Könüllüləri” şəbəkəsi ....................................116

“Aqrar İnkişaf Könüllüləri” hərəkatı ....................128

“Bakı Şəhər Halqası” Əməliyyat Şirkəti – Könüllülük Proqramı ....................................................................135

“Bir” Tələbə-Könüllü Proqramı ...........................139

“KOB Könüllüləri” Fəaliyyət Proqramı ............144

“Könüllü DOST” ........................................................151

Gənclər Fondunun “Gənc Könüllülər” Proqramı ........................................................................157

“Regional İnkişaf” İctimai Birliyi (RİİB) Könüllüləri ..................................................................162

“Miqrasiya Könüllüsü” İctimai Birliyi ..........168

Azərbaycan Könüllülərinin Şəbəkələşməsi və inkişafı üzrə Milli Platforma ...............................................171

Digər dövlət orqanlarında könüllülük fəaliyyəti......174

# ÖN SÖZ

Əziz gənclər, könüllülər və könüllü fəaliyyətinə başlamaq istəyənlər!

Ölkəmizdə ictimai və sosial fəaliyyətə münasibət hər zaman pozitiv olub. Bu fəaliyyət növlərindən biri və hətta birincisi könüllülük fəaliyyətidir. Fərqli və milli humanist dəyərlərə əsaslanan könüllülük fəaliyyəti bütün dövrlərdə önəmli hesab edilib.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı il 2 fevral tarixində Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunun keçirilməsi ölkəmizdə könüllülük fəaliyyətinin sosial və ictimai sektor da daxil olmaqla, bütün istiqamətlərdə inkişafına böyük təkan verib.

Könüllülük fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə yeni bir mərhələyə qədəm qoyub. Təsadüfi deyildir ki, dövlət başçısının müvafiq Sərəncamı ilə 2020-ci il ölkəmizdə "Könüllülər ili" elan edilib.

Ümumiyyətlə, son dövrlər müşayiət etdiyimiz tendensiyalar onu deməyə əsas verir ki, Azərbaycan dövlətinin apardığı siyasət könüllülük fəaliyyətinin inkişafını tam dəstəkləyir və təşviq edir. Bu isə ölkə rəhbərliyinin gənclərin karyera və fərdi inkişafına hər zaman önəm verməsinin əyani göstəricisidir.

Müasir biznes sektorunda insan kapitalının formalaşması bir zamanlar könüllü kimi fəaliyyəti olmuş gənclərin hesabına daha da zənginləşir. Biz şahidi oluruq ki, öz biznesini quran keçmiş könüllülərin sayı gündən-günə artmaqdadır.

Respublikamızın hər bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq cəmiyyətimizin bütün təbəqələrini əhatə edən, ölkə gənclərinin həyat tərzinə çevrilmiş könüllülər hərəkatına öz töhfəsini verən qurumlardan biri də Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyidir (KOBİA). Bu gün ölkədə fəaliyyət göstərən müxtəlif könüllü hərəkatları arasında KOBİA-nın “Kiçik və Orta Biznes Könüllüləri” (“KOB könüllüləri”) xüsusilə seçilir. Agentlikdə "KOB Könüllüləri Proqramı" həyata keçirilir, “Könüllü Şurası” fəaliyyət göstərir. Proqramın məqsədi gənclərin dünyagörüşlərinin genişləndirilməsi, bilik və bacarıqlarının artırılması, gənclərə peşəkar əmək fəaliyyətinə başlayanadək əmək vər-

dişlərinin aşılanması, sahibkarlara dəstək məqsədilə gənc mütəxəssislərin və tələbələrin sahibkarlığa könüllü olaraq cəlb edilməsinin təşviqidir.

Əziz gənclər, dəyərli könüllülər, əminəm ki, oxuduğunuz bu kitab hər birinizin gələcək fərdi və biznes yönümlü inkişafınızda, o cümlədən karyeranızda böyük rol oynayacaq.

Hər birinizə uğurlar arzu edirəm !

**Orxan Məmmədov**
*Azərbaycan Respublikasının*
*Kiçik və Orta Biznesin*
*İnkişafı Agentliyinin*
*İdarə Heyətinin sədri*



# MİNNƏTDARLIQ

Könüllülük fəaliyyəti barədə çox söz demək, çoxlu nümunələr gətirmək olar. Amma bu birmənalı həqiqətdir ki, gənclərin və tələbələrin karyeralarında mühüm bir rol oynayan könüllülük hərəkatının bir hərəkat kimi formalaşmasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın mühüm rolu var. Məhz onların siyasi iradəsinin nəticəsidir ki, bu gün minlərlə gənc könüllü olaraq cəmiyyətdə sağlam karyera quruculuğunda ilk addımlarını atır.

Bu günədək ünsiyyətdə olduğum, öz karyera uğurlarını könüllülük kimi bir fəaliyyətə borclu olduğunu qeyd edən minlərlə könüllü adından, bu kitabın yazılmasında əməlləri ilə böyük mənbə rolunu oynayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlığımı bildirirəm.

Bu kitabdan öncə dostum Elvin Paşayevlə bərabər "Könüllülük: uğur formulu" adlı kitabı qələmə almışdıq. Həmin kitab nəşr edilib kütləvi şəkildə yayıldıqdan sonra ölkəmizdə könüllü hərəkatı da yerində saymadı. Əksinə, bu hərəkat o qədər sürətlə və çevik inkişaf etdi

ki, məhz bu səbəbdən könüllülük sahəsində daha növbəti bir kitabın, həm də "Könüllünün öz/əl kitabı"nın yazılması bir zərurət kimi meydana çıxdı. Bu kitabı keçmiş dəyərlərə sadiq qalmaqla, yeni tələblərə cavab verən bir formada könüllülərin fərdi və karyera inkişafına dəstək məqsədi ilə yazdım. Kitabın yazılması və nəşri zamanı dəstəyini heç zaman məndən əsirgəməyən Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədova təşəkkür edirəm.

Eyni zamanda rəyçilərim Dr.Sənan Tapdıqova, Dr.Rövşən Cavadova, Dr.Rəşad Hüseynova, Dr.Fərhad Qaraşova, kitabın nəşrinə dəstək olan şirkətlərə minnətdaram.

Kitabı oxuyaraq dəyərli təkliflərini vermiş ön oxucularıma; Elvin Paşayevə, Əli Fərzəliyevə, Cahangir Hacıyevə, Günay Quluzadəyə, Elməddin Hacıyevə, Vüsalə İsmayılovaya, Sahil Məmmədliyə, Təhminə Əlizadəyə, Tural Vəliyevə, Aytən Cəbiyevaya, Tural Hümbətova, Mehti Namazova, Cavid Babayevə, Yasin Laçınlıya, Mirvari Mehdiyevaya, Tural Həsənova, Səmra Hüseynliyə, Tural Quliyevə, Ələsgər Ələsgərova, Maya Əhmədzadəyə, Vüqar Kərimliyə minnətdarlığımı bildirirəm.

**Nadir Adilman (Adilov)**
*Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin üzvü, sədr müavini, hüquq üzrə fəlsəfə doktoru, dosent, biznes inkişaf yazarı*

# KÖNÜLLÜLÜK: TARİXİ MİRAS, DAVAMLI DƏYƏR

Yuxarıda qeyd etdiyim kimi, cənab Prezident İlham Əliyev tərəfindən 9 iyun 2009-cu ildə imzalanan "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanunu bu sahənin inkişafına fərqli və böyük bir dəyər qatdı. Məntiqə uyğun olaraq dövlət idarəetməsi sistemində könüllülük fəaliyyətinin yeri və rolu məhz elə ölkə başçısının təşəbbüsləri və birbaşa iştirakı ilə böyüməyə, onun da himayəsi ilə genişlənməyə və inkişaf etməyə başladı.

Qanun qəbul olunanadək və qanunun qəbul edilməsindən sonra da könüllülük fəaliyyətini təşviq edən və bu fəaliyyətə dəstək verən bir çox nümunəvi dövlət orqanları var.

İnkişaf mərhələsində sınaqdan uğurla keçən könüllülük fəaliyyəti, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Gənclər Fondunun

dəstəklədiyi layihələr çərçivəsində inkişaf mərhələlərinin müxtəlif dövrlərini yaşayaraq gəlib müasir formasına çatmışdır. Adları qeyd edilən qurumlar indi də könüllü fəaliyyətinə ciddi dəstək verməklə bu sahənin inkişafında mühüm rol oynayırlar. Onlar öz fəaliyyətlərində könüllülük sahəsində müxtəlif layihələrə dəstək olurlar.

Gənclər Fondunun yaranması, gənclər təşkilatları və fəal gənclər arasında könüllülük fəaliyyətinin inkişafına yönələn maliyyə yardımları ayırması ölkəmizdə bu sahənin inkişafını təmin etmək məqsədi daşıyır. Eyni zamanda Gənclər Fondu müxtəlif yay məktəbləri, qış məktəbləri təşkil etməklə, könüllüləri bu məktəblərdə iştirak etməyə cəlb edir. Onların fəaliyyətlərinə əlavə stimul verir.

Təcrübə göstərir ki, xaricdə təhsil, təhsil haqlarının ödənilməsi, xarici tədbirlərdə iştirak, fərdi qrantların ayrılması ilə bağlı müraciətlərin qiymətləndirilməsi zamanı könüllü fəaliyyəti olmuş gənclər daha uğurlu olurlar.

Bu gün müasir könüllülük hərəkatının uğurlu alınmasında Azərbaycan xalqının öz tarixi köklərinə bağlılığı dayanır. Azərbaycan xalqının tarixi köklərində könüllülük mərhəmət, əliaçıqlıq, ədalət hissi olaraq xalqımızın tarixindən süzülüb gələrək yaddaşlara hopub.

Xalqımızın mədəniyyətində könüllü olmaq bir ümid işığı yandırmaq, savab qazanmaq, xalqına, vətəninə xidmət etmək kimi qəbul olunub və indi də olunmaqdadır. Biz dünən də belə idik, bu gün də beləyik, heç şübhəsiz ki, sabah da bu keyfiyyətlərə sadiq qalacağıq.

Könüllülük həm də kollektiv əmək deməkdir. Bərabər bacarıqların birgə inkişafına dəstək olmaqla yanaşı, həmçinin kollektivdə işləmək kimi bir istedad formalaşdırır. Əgər kimsə düşünürsə kollektivdə işləmək asandır, bu, heç də belə deyil.

Tarixi keçmişimizə baxsaq, dəyərlərimizdə iməciliklə bir-birinin evini tikən, torpağını şumlayan ataların, toplaşıb birlikdə şəkərbura bükən, təmizlik işləri görən anaların övladları olaraq, biz bu gün bütün dünyada böyük vüsət almış könüllülük hərəkatının öncülləri sırasına qədər gəlmişik.

Könüllülük təkcə bizə xas dəyər deyil və bu, bir institut kimi dünya tarixində mühüm bir yerə malikdir. Belə ki, dünya tarixində müasir mənada könüllü fəaliyyət anlayışına ilk dəfə XVII əsrdə Fransa ordusunda rast gəlinir. Bu anlayış könüllü hərbçi olmaq istəyən fransızların qeydə alınmasından sonra meydana çıxıb. 1881-ci ildə isə ABŞ-da vətəndaş müharibəsi zamanı qadınların könüllü olaraq tibb bacısı kimi fəaliyyəti minlərlə könüllünü ətrafında

birləşdirən Amerika Qırmızı Xaç Təşkilatının yaranmasına səbəb olub.

XIX əsrin ikinci yarısında valideyn himayəsindən məhrum uşaqlara, kimsəsizlərə, qocalara, uşaqların təhsil müavinətinə yardım göstərmək və maarifçilik ideyalarını yaymaq mühüm yer tuturdu. H.Z.Tağıyev, Ş.Əsədullayev, M.Muxtarov kimi yerli sahibkarlar topladıqları kapitalın müəyyən hissəsini könüllü olaraq xeyriyyə işlərinə, əhalinin maariflənməsinə, məktəb, teatr, xəstəxana tikintisinə yönəldirdilər. Onların arasında H.Z.Tağıyevin fəaliyyəti daha çox diqqəti cəlb edir. Azərbaycanda ilk qızlar məktəbinin açılması, Şollar-Bakı su kəmərinin çəkilməsi, ilk teatr binasının, toxuculuq fabrikinin tikilməsi, bir sıra küçə və meydanların salınması məhz H.Z.Tağıyevin adı ilə bağlı olub. Bütün bunlar qeyd etdiyim insanların könüllü təşəbbüsləri əsasında baş verib.

H.Z.Tağıyev könüllü xeyriyyəçilik işində tək deyildi. Onunla bərabər Murtuza Muxtarov, Ağa Musa Nağıyev, Ağabala Quliyev, Hacı Hacıağa Dadaşov, Teymur bəy Qulubəyov, Nabat Qoca qızı Aşurbəyova və digər milyonçu-xeyriyyəçilər könüllü olaraq müxtəlif layihələrdə yaxından iştirak edib, mərhəmət hissini bəyan ediblər.

XXI əsrdə də ölkəmizdə və ölkəmizdən kənarda könüllülük fəaliyyəti mərhəmətlilik və xeyriyyəçilik

fəaliyyəti ilə həmahənglik təşkil etmişdir. Bu gün müasir dünyada da xeyriyyəçilik işlərində könüllü iştirak mühüm yer tutur. Bu fəaliyyət ölkələrin dünya miqyasında reytinqlərinə və tarixi dəyərlərinin formalaşmasına da mühüm təsir göstərir.

Xarici dövlətlərdəki bir çox fəaliyətinə görə könüllülüyün xeyriyyəçilik tarixinə Azərbaycanın adını qızıl hərflərlə yazan Heydər Əliyev Fondunu nümunə göstərmək olar.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə hələ 2004-cü ildən fəaliyyətə başlayan Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm, texnologiya, ekologiya və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək, yeni cəmiyyət quruculuğunda fəal iştirak edərək ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir.

Fond müstəqil dövlətimizin qurucusu Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq ideologiyasının ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələn səbəblərdən yaradılıb. Fondun layihələri istər yerli, istərsə də beynəlxalq miqyasda yüksək səviyyədə qiymətləndirilir.

Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü ilə Pakistanın Müzəffərabad şəhərinin Rara ərazisində Heydər Əliyev Fondunun inşa etdirdiyi qızlar üçün orta məktəb binasının istifadəyə verilməsi, bu Fondun xeyriyyəçilik missiyasının sadə bir nümunəsi deyil, bu həm də ötən əsrin əvvəllərində Azərbaycanda formalaşan mərhəmət və xeyriyyəçilik fəaliyyətində könüllü iştirakın davamıdır. O iştirakın ki, bir zamanlar bu işləri H.Z.Tağıyev, Murtuza Muxtarov, Ağa Musa Nağıyev, Ağabala Quliyev, Hacı Hacıağa Dadaşov, Teymur bəy Qulubəyov, Nabat Qoca qızı Aşurbəyova və digər tarixi şəxsiyyətlərimiz ediblər.

Ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyətində gənclər siyasəti xüsusi və mühüm yer tutub. Azərbaycan gənclərinin cəmiyyətin inkişafında, problemlərinin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyət hissini yüksəltmək, paytaxt və regionlarda yaşayan gənclərin fikir mübadiləsinə şərait yaratmaq, gənclər və dövlət qurumları, hökumət nümayəndələri ilə açıq ünsiyyəti asanlaşdırmaq məqsədilə ümummilli lider Heydər Əliyev tərəfindən hələ 1995-ci ildə Azərbaycan Gənclər Forumunun keçirilməsi təşəbbüsü irəli sürülüb və 2 fevral 1996-cı ildə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirilib.

Forumda həmişə gənclərin yanında olduğunu qeyd edən o zamankı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yeni formalaşan müstəqil Azərbaycanın ictimai-siyasi gündəmində olan gəncləri dinləyib.

Bu forum gənclərimizin ictimai proseslərdə könüllü iştirakının stimul və başlanğıc nöqtəsi kimi qiymətləndirilə bilər.



# BEYNƏLXALQ TƏCRÜBƏDƏ KÖNÜLLÜLÜK

Dostum, bu fəsildə sənə kiçik nümunələri də misal kimi çəkəcəyəm. Təbii ki, beynəlxalq müstəvidə könüllü olmaq kimi bir iddian varsa, müxtəlif xarici dil biliklərinə malik olmalısan. O zaman müqayisələrə baxdıqdan sonra sənin maraq dairəni cəlb edən istiqamətlər və ixtisaslar üzrə könüllü proqramları barədə internet üzərindən sosial şəbəkələrdə axtarışlar aparmalısan.

Beynəlxalq könüllü proqramları o qədər çoxdur ki, onlar barədə bir neçə kitabda belə məlumat vermək çox az olardı. Bu məlumatları sənə təqdim etməkdə məqsədim, proses barədə fərqli təhlil imkanlarını artırmaqdır.

Ola bilsin ki, sən səhiyyə, humanitar, iqtisadi, hüquq və digər sahələr üzrə təhsil alırsan. Nəzərə al ki, müasir dünyamızda da ölkəmizdə olduğu kimi könüllü hərəkatı ixtisaslaşıb. Sən öz maraqlarına uyğun olaraq könüllü proqramları tapa bilər və bu proqramlarda iştirak edə bilərsən.

O ki qaldı, bu proqramların üstünlüklərinə, bu barədə elə o proqramlar barədə axtarış apardığın resurslardan məlumat əldə edə bilərsən. Beləliklə, gəl müqayisə üçün təqdim etdiyim bir neçə nümunəyə baxaq.

**BMT-nin Könüllülük Proqramı (UNV)**

Könüllülük insanların düşüncə tərzinə münasibətlərinin və davranışların dəyişdirmə qabiliyyəti sayəsində, davamlı təsir əsasında sosial, ekoloji və iqtisadi transformasiya üçün ən vacib pozitiv metodlardan biridir.

İnsanlar dayanıqlı insan inkişafı və qlobal sülh istiqamətində yerli, milli və beynəlxalq tərəqqiyə nail olmaqla dəyişikliklərin iştirakçıları və bərabər tərəfdaşı olurlar.

BMT-nin Könüllülük Proqramı (UNV) azad iradə, ədalət, iştirak, həmrəylik, şəfqət, empatiya və başqalarına hörməti formalaşdıran ortaq ümumbəşəri dəyərlər təqdim edir. 1970-ci ildə yaradıldığından bəri, UNV dünyada minlərlə könüllüyə insan inkişafına və daha yaxşı bir dünyaya doğru irəliləməyə töhfə vermək imkanı yaradıb. BMT-nin Könüllülük Proqramı (UNV), BMT-nin sülh və inkişaf işinə töhfə verməyə həvəsli vətəndaşların qlobal sistemini

idarə edir. Onların təcrübəsi milli və beynəlxalq BMT könüllülərinə BMT-nin digər tərəfdaş agentliklərinin proqram və mandatlarının effektiv icrası üçün imkan yaradır. Biz birlikdə bütün dünyada sülh və sosial ahəngi inkişaf etdirmək üçün yoxsulluq və bərabərsizlik məsələlərini həll edə bilərik. Niyə BMT-nin milli könüllüsü olaq? BMT könüllüsü olmaq şəxsi və peşəkar təcrübəni zənginləşdirmək üçün unikal bir fürsətdir. Bu imkan könüllünün özünə, eləcə də ümumilikdə cəmiyyətə fayda gətirir. UNV sülh və inkişafa dəstək olmaq məqsədilə müxtəlif BMT agentliklərində vəzifələrdə xidmət etməsi üçün xüsusi təcrübəyə sahib mütəxəssisləri göndərir. BMT könüllülərini tapşırıqları yerinə yetirməsi üçün vəzifədə olduqları ölkədəki yerli agentlik dəstəkləyir.

BMT-nin milli könüllüləri beynəlxalq BMT könüllüləri və BMT-nin digər layihə işçiləri ilə birlikdə, eləcə də təşkilatın institusional dəstəklərindən yararlanaraq proqram və layihələrə, BMT-nin neytrallığına və fəaliyyətinin işıqlandırılmasına töhfə verirlər. BMT-nin beynəlxalq heyəti ilə müqayisədə BMT-nin milli könüllüləri yerli dillər, mədəni, sosial və iqtisadi xüsusiyyətlər haqqında olan bilikləri və yerli səviyyədə işləmə qabiliyyətləri ilə əlavə dəyər qatırlar. BMT-nin milli könüllüləri icma səviyyəsində bilik və bacarıqların aşılanması, xüsusən də

fəaliyyət göstərdikləri yerlərdə vəzifələrinin icrası və dayanıqlılığı baxımından daha mötəbər mövqedədirlər. Tapşırıqlara hökumətlərlə texniki əməkdaşlıq, icma əsaslı təşəbbüslər, humanitar yardım, reabilitasiya, eləcə də seçki və sülh quruculuğu proseslərinə töhfə vermək daxil ola bilir.

BMT-nin milli könüllüləri kim ola bilər? BMT-nin milli könüllüləri ölkədəki sülh və inkişaf proqramlarını dəstəkləmək üçün proqramın fəaliyyətdə olduğu ölkənin tələbi ilə UNV-nin səfərbər etdiyi könüllülərdir. Onlar həmin ölkənin vətəndaşlarıdır.

Vətəndaşlığı olmayan şəxslər, yaxud qaçqın statusunda olduqları ölkədə qanuni olaraq yaşadıqları və göstərilən xidmətin yerli ölkənin milli qanunvericiliyinə uyğun olduğu halda da, BMT-nin milli könüllüləri kimi xidmət göstərə bilərlər. Qeyri-vətəndaşlar proqramların benefisiar ölkədən kənarda həyata keçirildiyi təqdirdə (təhlükəsizlik səbəbləri ilə bağlı olaraq) də milli BMT könüllüləri kimi xidmət edə bilərlər. Qeyri-vətəndaşlar yuxarıda göstərilən hallar istisna olmaqla, BMT-nin milli könüllüləri kimi xidmət edə bilməzlər.

BMT könüllüləri birdən çox milliyyətə sahib olduqda onlardan yalnız birini seçməlidirlər. Qeyd olunmalıdır ki, BMT könüllüləri əvvəl bir vətəndaşlıq altında, sonra isə digər vətəndaşlıqları ilə eyni ölkədə xidmət edə bilməzlər.

Xaricdə UNV könüllüsü kim ola bilər? BMT könüllüsü olmaq şəxsi və peşəkar təcrübəni zənginləşdirmək üçün gözəl bir şansdır. Bu imkan həm fərdi könüllülüyə, həm də ümumilikdə cəmiyyətə fayda gətirir.

BMT-nin Könüllülük Proqramı, öz ölkələrindən kənarda beynəlxalq BMT Könüllüləri olaraq vaxt və təcrübələrini paylaşmaq istəyən, peşəkar, təcrübəli, akademik təhsili, yaxud kvalifikasiyaları olan bacarıqlı xanım və bəyləri axtarır. Peşəkar bacarıqlar və ixtisaslarla yanaşı, könüllülüyə, eləcə də BMT-nin etika və düzgünlük prinsiplərinə bağlılığı BMT könüllüsünün önəmli keyfiyyətləri sırasındadır. Bundan əlavə, BMT könüllüsü müxtəlif şərait və vəziyyətlərə hazır olmalı, uyğunlaşma, emosional sabitlik, müxtəlif mədəniyyətlərə qarşı həssaslıq, o cümlədən dəyişikliyə müsbət münasibət nümayiş etdirməlidir. (https://www.unv.org/marketing-messaging-materials/resources-outreach-talent)

UNV-nin Qlobal Sistemində necə qeydiyyatdan keçmək olar? UNV hər il 50.000-dən çox qeydiyyatın olduğu, tərəfdaşlarının ehtiyaclarını ödəmək üçün uyğunlaşdırılmış dinamik məlumat bazasını idarə edir. Tapşırıqların əksəriyyətini UNV-nin məlumat bazasındakı namizədlər öhdələrinə götürür, lakin vaxtaşırı çətin, yüksək ixtisaslaşmış və ya

çoxhəcmli tapşırıqlar UNV saytında, xüsusi mediada, peşəkar assosiasiyaları vasitəsi ilə, yaxud da sosial media şəbəkələrində elan olunur.

Qeydiyyat prosesi bir neçə addımdan ibarətdir və profilinin nəzərə alınması üçün bütün hissələr tamamlanmalıdır. Minimum tələblərə cavab verdiyini yoxladıqdan sonra sən profilini BMT Könüllülük Proqramının Qlobal İstedad Sistemində (UNV Global Talent Pool) qeydiyyatdan keçirməyə dəvət olunursan. (https://vmam.unv.org/candidate/signup).

Qeydiyyat prosesi təxminən 45 dəqiqə çəkir. Məlumat əlavə etmək və profilini yeniləmək üçün istənilən vaxt hesabına daxil ola bilərsən.

BMT onlayn Könüllülük Proqramı vasitəsi ilə könüllülər, təşkilatlar və tərəfdaşlar dayanıqlı inkişaf istiqamətində qlobal hərəkata qoşulurlar. Könüllülər dünyanın istənilən yerində kompüter, planşet və ya mobil telefonda işləyərək təşkilatın işinə birbaşa töhfə verə bilərlər. Onlayn könüllülük, könüllülərə bacarıqlarını inkişaf etdirməyə və peşəkar həyatlarında yeni rollara sahiblənməyə imkan verir. Könüllülər dünyanın müxtəlif yerlərində müxtəlif təşkilatlardan olan fərqli insanlarla əməkdaşlıq edir və insan inkişafını hədəfləyən qlobal onlayn cəmiyyətin bir hissəsinə çevrilirlər.

UNV onlayn könüllülük xidməti könüllüləri dünyadakı müxtəlif təşkilatlarla əlaqələndirən və beləliklə, onların sülh və inkişaf istiqamətində internet üzərindən birlikdə çalışmalarına imkan verən pulsuz bir xidmətdir. www.onlinevolunteering.org

## Dünya Bankı

Dünya Bankı da özünün keçirdiyi müxtəlif layihələrdə adətən könüllülük proqramlarına üstünlük verir. Həmin proqramlar bir qayda olaraq dövri xarakterə malik olur. Hər hansı bir layihənin həyata keçirilməsi zamanı könüllü gənclər də bankın layihə ilə bağlı əməliyyatlarında iştirak etmək şansı əldə edir. Belə könüllülük proqramlarına misal olaraq 2012-ci ildə elan olunmuş "Gənclik və könüllülər" proqramını göstərmək olar. Son layihələrdən biri isə Milli Könüllülük Xidmətləri Proqramı olub. Bu layihə Orta Şərq və Şimali Afrikanı əhatə edib.

Dostum, əgər dil biliklərin beynəlxalq təşkilatlarda könüllü kimi fəaliyyət göstərmək arzuna cavab verirsə, elə indi Dünya Bankının könüllülük proqramı barədə internetdəki məlumatlarla daha geniş tanış ol.

Dünya Bankının Azərbaycan Respublikasında ofisinin fəaliyyət göstərməsini nəzərə alsaq, sən

daha ətraflı məlumatlanmaq üçün aidiyyati şəxslərlə görüş də təyin edə bilərsən. İnan ki, səni dinləyib, arzuna uyğun nəzakətli cavab verəcəklər. Buna əmin ol.

## Avropa Birliyi Yardım Könüllüləri

Avropa Gənclər Forumunun (European Youth Forum) qaydalarına görə şəxsin öz iradəsi ilə cəmiyyətin maraqlarının təmin edilməsi üçün, əvəzsiz olaraq, əsasən təşkilatlarda insanlara yardım və ictimai xidmətlərin göstərilməsi məqsədilə həyata keçirilirsə və maddi qazanc əldə etməyi qarşısına məqsəd qoymursa, o zaman həyata keçirilən fəaliyyət könüllülük fəaliyyəti hesab olunur. Könüllülük və Avropa Birliyi barədə danışarkən qeyd etmək lazımdır ki, Avropada könüllülük ölkədən-ölkəyə fərqli xüsusiyyətlərinə görə fərqlənir. Belə ki, inkişaf səviyyəsi, ictimai şüur və digər xüsusiyyətlər burada rol oynaya bilər. Eurobarometrin keçirdiyi sorğuya əsasən, hər 10 avropalıdan 3-ü könüllülük fəaliyyəti ilə məşğul olduğunu bildirib. Bəzi təxminlərə görə, Avropa Birliyindəki könüllülərin ümumi sayı 92-94 milyon ətrafındadır. Bu isə 15 yaşdan yuxarı olan avropalıların 23%-i deməkdir. Avropa Komissiyası könüllü fəaliyyətinə qatılan

100 milyon avropalının səylərini qeyd etmək üçün 2011-ci ili "Avropa Könüllülük ili" elan edib.

BMT-də olduğu kimi, Avropa İttifaqının könüllüsü olmağın da öz tələbləri var. Bu tələblərə uyğun üstünlüklər də mövcuddur. Avropa Birliyində könüllülük Avropa Könüllülük Xidmətinin (European Voluntary Service) vasitəçiliyi ilə həyata keçirilir. Könüllü kimi iştirak etmək üçün müstəqil şəkildə layihə tapmaq mümkün olmadıqda vasitəçi təşkilata (sending organization) müraciət edilməlidir:

- milli agentliklər;
- Şərqi Avropa və Qafqaz, Cənub-Şərqi Avropa və Avro-Aralıq dənizi ölkələri üçün regional SALTO Resurs Mərkəzi (salto-youth.net)
- akkreditasiya olunmuş təşkilatların məlumat bazası.

Avropa Könüllülük Xidmətinin fəaliyyəti ilə bağlı Erasmus proqramı da sizə yardımçı ola bilər. Avropa İttifaqının könüllüsü olmaq üçün aşağıdakı qeydlərə önəm vermək lazımdır:

- Avropa İttifaqının rəsmi qəbul etdiyi dillərdən birini öyrənmək;
- keçmişdə könüllüsü olduğunuz təşkilatlar və könüllülərlə əlaqə saxlamaq;
- həm öz ölkəndə, həm də gedəcəyin ölkədə inzibati prosedurları - viza, yaşayış icazəsi, sığorta

və s. haqda məlumat əldə etmək;
- təlimlər barədə məlumatla maraqlanmaq, gedişdən öncə keçirilən təlimlərdə iştirak edərək, gələcək könüllülərlə də tanış olmaq fürsəti qazanmaq;
- gedəcəyin ölkə haqqında internetdə kifayət qədər məlumat vardır, məlumatları topla, hansı ölkəyə getməyin karyera üçün mühüm rol oynayacağını bir daha nəzərdən keçir.

## Asiya İnkişaf Bankının(AİB) təcrübə proqramı

AİB təcrübə proqramı xarici tərəfdaşları cəlb etməklə, bilik və əmək mübadiləsi işinə kömək edir. Bundan başqa, təcrübə proqramları potensial gələcək işçi heyəti müəyyən etmək üçün AİB-ə imkan yaradır. Bu təcrübə proqramlarının müddəti minimum 8 həftə (56 gün), maksimum 26 həftə, yaxud 6 ay davam edə bilir.

Tələbələr də bu proqramlara qoşula bilərlər. Onlar AİB karyera və məşğulluq sistemi (ACES – aceb.adb.org) elektron vasitəsilə elektron formada müraciət edə bilərlər.

Universitet tərəfindən bilavasitə göndəriş şərt kimi tələb edilmir. AİB yalnız magistratura və doktoranturada təhsil alan tələbələri özünün təcrübə proqramlarına qəbul edir.

Təcrübəçilər qalmaq, nəqliyyat, qidalanma xərclərini öz üzərinə götürür. Həmçinin uçuş xərclərinin bir hissəsini də bəzi hallarda bura daxil etmək olar. Təcrübəçilərin Manilaya yola düşməmişdən əvvəl tibbi sığorta olunmaları da şərtlərdən biridir. Seçilmiş namizədlərin uçuş xərclərinin bir hissəsi AİB tərəfindən qarşılanır. AİB internet səhifəsi vasitəsilə seçim nəticələri barədə elanları yerləşdirir. Seçilmiş namizədlərlə AİB-in insan resursları bölməsi birbaşa əlaqə saxlayır. AİB-in əksər təcrübə proqramları Manilada (Filippində) - AİB-in baş ofisində olur. Rezident missiyaları əsasən yerli universitet və tələbələr üçün təşkil edilir.

Bu təşkilat sənə xaricdə, xüsusən də tibb sahəsi üzrə təcrübə keçməyə yardımçı ola bilər. Həmçinin nəzərə almaq lazımdır ki, bəzi hallara uyğun olaraq könüllü fəaliyyəti minimum ödənişləri də özündə ehtiva edə bilir. Burada həftəlik 200 dollara kimi ödəniş imkanları mövcud ola bilər. Bu proqram vasitəsilə 2 böyük proqramda iştirak etmək mümkündür. Belə ki, Hindistanda həkim və uşaq baxıcılığı sahəsi üzrə proqram, Nepalda tibbi effektiv kömək proqramı ən əsas proqramlardan hesab edilir.



# FƏRDİ VƏ İŞGÜZAR İNKİŞAFIN ÖNƏMLİ MƏRHƏLƏSİ

Dünyada keçirilən elə bir özgüvən, fərdi və işgüzar inkişafa həsr edilmiş tədbir yoxdur ki, orada könüllülük fəaliyyətinin mühüm rolu qeyd edilməsin. Könüllülük insanın nəinki insan və şəxsiyyət kimi formalaşmasına kömək edir, həm də onun peşəkar dəyərlər məcmusunda formalaşdığı bir mühitdir.

Könüllülük həm də ona görə fərdi və işgüzar inkişaf sahəsində mühümdür ki, bu fəaliyyətlə məşğul olmaq üçün, könüllü olmaq istəyən şəxs öz iradəsi və müstəqil seçimi əsasında əvəzi ödənilməyən fəaliyyət növü ilə məşğul olduğunu anlayaraq bu işə qoşulur.

Könüllülük vətənpərvərlik, insansevərlik, əməksevərlik, mənəvi dəyərlərin də daşıyıcısı olmaq nümunəsi ilə yanaşı, həmçinin bir karyera inkişafı mühitidir. Könüllülük fərdi və işgüzar inkişaf sahəsində formalaşan fərqli düşüncələrin ümumi məcmusudur.

Fərdi və işgüzar inkişafda mühüm yer tutan könüllülük cəmiyyəti dəyişdirməyə, vətəndaş cəmiyyətinin formalaşmasına mühüm töhfə verməyə şərait yaradan bir hərəkat, fərdi və cəmiyyətin inkişafına hədəflənmiş və mənsub olduğu cəmiyyətdə görülən bütün işlərin timsalında özünü və cəmiyyəti irəli aparmağı hədəfləmiş bir fəaliyyət sahəsidir.

İctimai həyatda iştirak, həyat bacarıqlarının inkişaf etdirilməsi, riskli davranışların qarşısının alınması, fərqli mədəniyyətlərə inteqrasiya, təhsilin inkişaf etdirilməsi, kollektivdə formalaşmaq, stressin idarə edilməsi, vaxtın idarə edilməsi, ünsiyyət bacarıqlarının artırılması, bir sözlə fərdi və işgüzar inkişafın bütün istiqamətləri baxımından əhəmiyyətlidir.

Könüllülük bəziləri üçün xoşbəxtlikdir, bir çoxları üçün məsuliyyətdir, digərləri üçün isə daxili dinclikdir. Hamı üçün isə fərdi və işgüzar inkişafa gedən yoldur. Öz fərdi və işgüzar inkişafına biganə qalmayan minlərlə gənc və tələbə üçün isə formalaşmış vahid dəyər, başqasını xoşbəxt etməyin həyatda ən böyük xoşbəxtlik olduğunun fərqinə varmaqdır.

Müasir könüllü bir çox məsələlərin fərdi və işgüzar inkişaf üçün önəmini nəzərə almalı və gələcək karyerasında tətbiq edə biləcəyi yeni bacarıqlar əldə etməlidir.

Könüllülərin iştirak etdiyi yüzlərlə tədbir, ünsiyyətdə olduğu minlərlə şəxs xarakterin formalaşmasında mühüm rol oynayır.

Ən mühüm amil isə ondan ibarətdir ki, könüllülük kimi fərdi inkişaf sisteminin Azərbaycan qanunvericiliyində də təsbit edilmiş əsası vardır.

Qanunvericiliyimizdə könüllü fəaliyyətinin əsas istiqamətləri aşağıdakı kimi təsbit edilir:

- *əlillərə, kimsəsizlərə, qocalara, aztəminatlı ailələrə, qaçqınlara və məcburi köçkünlərə kömək edilməsi;*
- *insanpərvərliyin və dözümlülüyün təbliği;*
- *istehlakçıların hüquqlarının qorunması;*
- *hüquqi və mədəni maarifləndirmə;*
- *uşaq və gənclərin təhsili, tərbiyəsi, fiziki və əqli inkişafı;*
- *idmanın inkişafı;*
- *xəstəliklər və epidemiyalar barədə məlumatlandırma;*
- *sağlam həyat tərzinin təbliği;*
- *ətraf mühitin mühafizəsi;*
- *tarix və mədəniyyət abidələrinin, mədəni və mənəvi irsin qorunması;*
- *silahlı münaqişələr, təbii fəlakətlər, sənaye qəzaları, yanğınlar, epidemiyalar, epizootiyalar və digər fövqəladə halların nəticələrinin aradan qaldırılmasına, o cümlədən, fövqəladə hallar nəticəsində zərər çəkmiş şəxslərə yardım göstərilməsi;*

- *cəzaçəkmə müəssisələrindən azad edilən, narkotik asılılığına düçar olan, məişət zorakılığına məruz qalan şəxslərə kömək edilməsi;*
- *Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə zidd olmayan digər fəaliyyət sahələri.*

Qanunvericiliyimizin də təsbit etdiyi dairələrdən görsənir ki, fərdi inkişaf üçün mühüm bir ekosistemə malik könüllülük sağlam vətəndaşlıq mövqeyinin göstəricisi və eyni zamanda içində olduğumuz sosial münasibətlərin ayrılmaz parçasıdır.

Vətənpərvərlik, bilik və kamillik kimi dəyərlərdən ilhamlanan könüllülük həm cəmiyyətin, həm də fərdlərin rifahına, şəxsi inkişafına danılmaz dəyər qatır. Könüllü fəaliyyət, həmçinin insanın içindəki "ictimai inkişafda iştirak" istəyinin dövlət və qeyri-dövlət təsisatları vasitəsilə canlandırılması və faydalı hala gətirilməsidir. Könüllü işləri fərdin sahib olduğu bilik, bacarıq və təcrübələrini cəmiyyətlə paylaşaraq daha da təkmilləşdirməsilə yanaşı, bundan zövq almasına, xoşbəxt olmasına imkan yaradan məşğuliyyət də hesab etmək olar.

Könüllülük fəaliyyəti yeni təcrübə, dünyagörüşü, sosiallaşma, uğurlu karyera yolu, ətrafda baş verən hadisələrə daha həssas yanaşma, komandada işləmə və ünsiyyət qurma bacarığı sahəsində insanlara özlərini inkişaf etdirməyə dəstək olur. Könüllülük

fəaliyyəti şəffaflığı, operativliyi, məsuliyyəti, mənəvi zənginliyi, gülərüz və səbirli olmağı özündə əks etdirir.

İşgüzar və fərdi inkişafına biganə olmayan hər bir şəxsdə könüllülük düşüncəsi gənc yaşlarından formalaşmalıdır. Könüllülük fəaliyyətinin özü nə dərəcədə sosial faydalıdırsa, bir o qədər də karyerayönümlüdür.

Fərdi və işgüzar inkişaf üçün könüllü fəaliyyət qədər ikinci münbit bir mühit hələ ki, kəşf edilməyib desəm yanılmaram. Həm də bu sahə mərhəmət və insan sevgisini aşılayan və aqressiyadan kənar inkişafa dəstək olan sistemdir.

Könüllülük insana, təşkilata, ətraf mühitə, cəmiyyətə göstərilən köməklə bərabər böyüyən şəxsiyyətdir. Hər bir şəxs könüllü fəaliyyətə başladığı gündən arzularının, məqsədlərinin təməlini qoyur.

Əlbəttə ki, dostum bəlkə də deyəcəksən ki, könüllülük işini seçənlərin hamısı eyni təmiz duyğulara malik olmur. Bu normaldır və aktiv fəaliyyətin müxtəlif məqsədləri ola bilər. Könüllülük fəaliyyətini seçənləri əsasən üç qrupa bölə bilərəm:

*a) ümumi axına düşüb, trendə qoşularaq şöhrət qazanmaq istəyənlər;*

*b) faydalı, dəyərli olub, bacardığı işləri bölüşərək cəmiyyətin və dövlətin çağırışlarında iştirak etmək;*

*c) işgüzar və fərdi inkişaf məqsədləri ilə karyera inkişafına nail olmaq.*

Əziz dostum, əgər sən məndən soruşsan, deyərdim ki, bu 3 kateqoriyanın heç birindən asılı olmayaraq könüllü olmaq faydalıdır. Bu kateqoriyaları saysız qədər də artırmaq olar. Hətta sən bu qruplardan hər hansı birinə aid olmaya da bilərsən, yeni bir qrup kəşf edə bilərsən. Amma artıq könüllüsənsə, bu fəaliyyət sənin inkişafında öz unudulmaz izini buraxacaqdır. Hansı niyyətlə könüllü olmağından asılı olmayaraq, nəticələri ölçülə bilən bir əməllə öz fəaliyyətini daha da inkişaf edən xətt üzrə davam edəcəksən.

Dostum, sən özün qərar verməlisən. Həyatının əsas amalı nədir? Nə, kim və harada olmaq istəyirsən? İnsanlara yardım etmək sənə zövq verə bilər. Amma unutma ki, könüllü fəaliyyətinin gələcək karyeran üçün də mühüm rolu var. Gələcəyin öndədir, inkişaf edəcəksən, mühitdən mühitə düşəcəksən. Keçmiş könüllü olmur. Faydalı olmağı sevən insan ömrünün sonunadək karyerasının müxtəlif mərhələlərində könüllü olaraq cəmiyyət və dövlət üçün faydalı olmağı bacarır. O, istənilən yaşda, istənilən situasiyada paylaşmağa, kömək etməyə hazırdır.

Hazırda bütün ölkəmiz də daxil olmaqla, dünyada minlərlə könüllü təşkilatı və könüllü fəaliyyəti ilə məşğul olan insan var. Hər gün bu say daha da artır. Əslində hər üç qrupa aid insanlar özləri də

fərqinə varmadan dəyişib-dəyişdirirlər. Çünki hər insan keçdiyi yerdə bir iz qoyub gedir.

Könüllü olarkən özün də hiss etmədən o qədər müsbət dəyişikliyə məruz qalırsan ki, tədricən baş verən bu prosesin nəticəsini bir müddətdən sonra ölçə bilirsən. Daha mehriban, ailəcanlı, mərhəmətli, savadlı, intizamlı, ünsiyyətcil olmaqla, ailə üzvlərini və çevrəni də, sözün yaxşı mənasında, təəccübləndirirsən. Ətrafındakı insanlar da bu dəyişikliyi mütləq hiss edir. Valideynlər üçün isə bu müsbət dəyişikliyi görmək ayrıca bir zövqdür.

Könüllü fəaliyyətin şəxsi inkişafa əsas təsirlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- *motivasiya olma və motivasiya edə bilmə bacarığı qazanmaq;*
- *insanlara və ətraf mühitə qarşı daha həssas davranmaq;*
- *dəyişikliyə açıq olmaq;*
- *"Komanda işi" bacarığı qazanmaq;*
- *yaradıcılıq bacarıqlarını inkişaf etdirmək;*
- *təşkilatçılıq bacarıqlarına yiyələnmək;*
- *liderlik bacarıqlarını inkişaf etdirmək;*
- *ünsiyyət qurmaq bacarığını inkişaf etdirmək;*
- *hadisələrə cəld reaksiya vermək;*
- *daha tolerant olmaq, dözüm və səbir göstərmək;*
- *stressin daha məntiqli idarə edilməsi bacarıqları-*

*nın artması;*

- *vaxtın idarə edilməsi bacarıqlarının inkişafı;*
- *natiqlik bacarıqlarının inkişafı;*
- *karyera imkanları barədə məlumatlılıq;*
- *təhsil inkişafı üzrə məlumatlılıq;*
- *müxtəlif kurslarda və seminarlarda iştirak etmək və CV-də bunları göstərmək;*
- *müxtəlif bacarıqlara malik olmağı ehtiva edən sertifikatlara malik olmaq.*

Könüllü fəaliyyətin cəmiyyətə faydalarından danışarkən, qeyd etməliyəm ki, könüllülük yalnız digər şəxslərə yardım etməkdən ibarət deyil. Bu fəaliyyət ictimai yardımlaşmada, ictimaiyyətin sağlam birliyinin formalaşmasında mühüm rol oynayır.

Sənin də məşğul olduğun könüllülük cəmiyyətdə insanlararası münasibətlərin möhkəmlənməsində, mənəvi dəyərlərin qorunmasında, ictimai məlumatlılığın artmasında, yaranan sosial problemlərin həllinə fərqli yanaşmaların formalaşmasında çox əhəmiyyətli faktordur. Bu fəaliyyətin nəticəsində insanlar maddiyyatın daim ön planda olmadığını, yardıma möhtac insanlara kimliyindən asılı olmayaraq, hər zaman kömək etməyə borclu olduqlarını anlayırlar.

Sosial əlaqələrin və sosial idarəetmənin inkişafı, komanda quruculuğu, ictimai dəyərlərin öyrənilməsi, ictimai məsələlər və problemlərdə aydınlıq

məhz könüllü fəaliyyətin nəticəsində təzahür edir. Könüllülük fəaliyyəti, eyni zamanda, fərdlərin sahib olduqları bilik, bacarıq və təcrübələri ətraf mühitlə bölüşməsinə, şəxsi inkişafla paralel cəmiyyətin də yüksəlişinə gətirib çıxarır.

Bir çox hallarda gənclər keçirdikləri qorxu və müdafiəsizlik hissini, öz gələcəkləri üçün qorxularını, sabaha olmayan ümidlərini, ailədə, ictimai münasibətlərdə, təhsildə uğur qazana bilməyəcəkləri kimi narahatlıqlarını, əllərində olanları, əldə etdikləri kiçik uğurları itirmək qorxularına məhz könüllü olmaqla qalib gəlirlər.

Könüllü kimi fərdi inkişaf xüsusiyyətlərinə malik gənclər özlərini qurban kimi göstərməyə çalışmırlar, şikayətlənib, problemlərində kimisə, nəyisə günahkar çıxarmırlar. Yəqin ki, könüllüsənsə artıq bunları bilirsən. Yox könüllü deyilsənsə, ətrafında olan könüllülərdə bu yüksək dəyərlərin şahidi ola bilərsən.

Könüllü fəaliyyətində olan hər bir gənc, onun üçün yaradılan münbit şəraitdən bəhrələnir, bacarıqlarını inkişaf etdirir, şəraitin qurbanı olduğu barədə düşünmür. Əksinə, özünü şəraitin əsas qəhrəmanı və mərkəzində hiss edir.

Könüllü fəaliyyətinin fərdi və işgüzar inkişaf üçün əhəmiyyətini anlayan gənc çarəsizliyə təslim

olmur, ümid və inadkarlığını itirmir, vaxtını səmərəsiz deyil, düzgün idarə etməyi öyrənir.

Hər bir gənc kimi sən də istəyirsən ki, səsin eşidilsin, səninlə müzakirə etsinlər, fikrini və rəyini nəzərə alsınlar, ideyalarına hörmət edib, qiymətləndirsinlər. Bu, normaldır, dostum. Kütləvi mədəniyyət inanır ki, insan şəxsi maraqlarını təmin etmək üçün başqa adamlarla olan qarşılıqlı əlaqələrdən istifadə etməkdədir.

Sənin özünü alicənab göstərməyə, başqasının uğuruna sevinməyə çalışmağınla, özünün də fərdi və işgüzar inkişafına biganə qalmamağın arasında böyük bir fərq var. Könüllü olarkən, başqalarının işgüzar və fərdi inkişafına, daha yaxşı nəticə əldə etməyinə həsəd aparmaq əvəzinə, sağlam və ədalətli rəqabət mühitində özünəməxsus şəxsi inkişaf mühiti yaradırsan.

Kollektivdə yalnız o adam yüksək imkanlar əldə edə, uğur qazana bilər ki, o, “biz” demək məharətinə yiyələnsin, “biz” deməyi bacarsın. O, diqqətlə və hörmətlə dinləməkdən, başqalarına xidmət etməkdən maksimum dərəcədə məmnun olsun və sevinsin. Əsl böyüklük onda qazanılır ki, insan təmənnasız hərəkət etsin, anlayış göstərsin. Bu isə, sənin də çox eşitdiyin komanda anlamına gəlir.

Dostum, sən öz effektivliyin, xoşbəxtliyin üçün fərdi məsuliyyət daşıdığın kimi, ümumi komanda

işlərinin ölçülə bilən nəticələrə gəlməsi üçün də kollektiv məsuliyyətin bir hissəsisən. Bilik, bacarıq və istək sənin nəzarətin altındadır. Əsl uğur özünlə rəqabət aparmaq və özünə qalib gəlməkdir. "Əgər nəyisə dəyişmək istəyirsənsə, onda öncə özünü dəyişməlisən" kəlamını unutma.

Özünü effektiv dərəcədə dəyişmək üçün sən öncə öz intizam tərzini dəyişməli, ətrafındakı səni əhatə edən və inkişaf etməkdə olan mühitlə həmahəng inkişaf etməlisən. Bu isə tələbəlik dövründə yalnız könüllülük fəaliyyətindən keçir.

Fərdi və işgüzar inkişafa baxdığın "bucaq" ilə səni əhatə edən mühitin "baxış bucağı" arasında fərq ola bilər. Bunu normal qəbul et və yoluna davam et. Səni ailə, ətrafın, məktəb, universitet, iş həyatın öz istədikləri nizama salmağa, özlərinə görə nizamlamağa çalışacaqlar. Bu da normaldır. Sən isə könüllü kimi fəaliyyətə başladığın andan öz təsəvvür və yaradıcı potensialından istifadə edərək daha effektiv, dəyər və prinsiplərə uyğun gələn və bu dəyərlərə xüsusi məna verən ssenarilər üzrə öz fərdi və işgüzar inkişaf konsepsiyanı qura bilərsən.

Özünü tanımaq, özünə düzgün dəyər vermək, öz keçmiş həyatını, çətinlikləri, problemləri necə varsa qəbul etməklə sən cəmiyyətə inteqrasiyanı könüllü olmaqla təmin edə bilərsən.

Sosial, ictimai və iş həyatına inteqrasiya olunmaq üçün isə tələbəlik vaxtından ən mükəmməl addım könüllü kimi fəaliyyətə başlamaqdır.

Necə deyərlər, belə bir deyim var; “fikir səpərsən, hərəkət biçərsən, hərəkət səpərsən, vərdiş biçərsən, vərdiş səpərsən, xarakter biçərsən, xarakter səpərsən, tale biçərsən”.

Dostum sənin fərdi və işgüzar inkişafında könüllülük fəaliyyətinin əsas üstünlüklərindən biri, sən də daxil olmaqla, sənin həmyaşıdın olan gənclərdə sağlam mühit daxilində gələcəklə bağlı təsəvvürlərinin düzgün formalaşması və sağlam düşüncə yönündə inkişaf etməyindir.

Sən dostlarından, komanda yoldaşlarından fərqli düşünə bilərsən. Bu da çox normaldır. Hətta sən könüllüsü olduğun komandada olan yoldaşlarından, fərqli dəyərlərə, motivlərə, arzulara, məqsədlərə və gələcək fərqli karyera quruculuğu planlarına malik ola bilərsən.

Fikir və təsəvvürlərində yarana biləcək ziddiyyətlərin həllinə və aradan qaldırılmasına ən uyğun şərait də məhz könüllü olduğun komandada qazandığın davranış nümunələridir. Fərdi və kollektiv olaraq güzəştə getmək, kompromis əldə etmək bacarığı və ortaq məxrəcə gəlməklə, işin effektivliyini artıra bilmək bacarığı yalnız kollektivdə formalaşan bir bacarıqdır.

Fərdi və işgüzar yüksək nailiyyətlər ətrafdakılarla qarşılıqlı münasibətlər olmadan mümkün deyil. Qarşılıqlı asılılıq insan həyatının bir parçası olmaqla bərabər, bu asılılıq kollektiv üzvlərinin bir-birinə "biz bunu birlikdə edə bilərik", "biz bacararıq" demək zərurətini yaradır.

Beləliklə də, insanlar gözlədikləri nəticələrə nail olmaq üçün öz səylərini başqaları ilə birləşdirməyə məcburdurlar. Bəzən bu, bir çox gənclər, yetkinlik dövrü ilə yeni vidalaşan şəxslər tərəfindən müstəqillikdən məhrum olmaq kimi və asılı yaşamaq kimi dərk edilə bilər.

Könüllülük cəmiyyətin rifahı üçün çalışmaqla bərabər, təşəbbüskar olmaq, həmçinin gənclərin bununla öz maraqlarını, qabiliyyətini yoxlayaraq həyat yolunu və prinsiplərini düzgün müəyyən etmək sahəsində çox mühüm bir alətdir.

Fərdi və işgüzar inkişaf sahəsində könüllülük fəaliyyəti gəncləri daha məsuliyyətli olmağa, eyni zamanda ağıl və təşəbbüskarlığı ilə yüksək nailiyyətlər qazanmağa həvəsləndirir. Könüllü olaraq, edilən ən xırda işdən belə məmnunluq hissi duymaq və bununla da neqativ fikirlərdən uzaqlaşaraq pozitivə köklənmək könüllülüyün yaratdığı daxili rahatlıqdır.

Könüllü fəaliyyətində olan şəxs insana xas olan özünüdərk və vicdan hissi ilə öz zəif tərəflərini, tək-

milləşməyə ehtiyacı olan cəhətlərini, inkişaf etdirilməsi mümkün olan istedad və qabiliyyətini, həmçinin dəyişdirməli və həyatından silməli cəhətləri anlamağa başlayır.

Bu isə müəyyən bir təsəvvürlərə gəlməyə çox böyük kömək edir. Bu təsəvvürləri aydınlaşdırıb müstəqil hərəkət edərək özgüvən hissi yaradır, qarşıya məqsəd qoyur, bu məqsədə sadiq qalaraq öz monolit xarakterini yaradır.

Beləliklə, həyatının sonrakı dövrünə pozitiv köklənməklə yanaşı, ətrafdakı insanların zəif cəhətlərini arqument hesab etməmək və onlardakı çatışmazlığa həssaslıqla yanaşmaq könüllülük fəaliyyətinin fərdi inkişafına biganə qalmayan gəncə aşıladığı ən yüksək səbirlilik prinsipidir. Bu isə əmin ol ki, sən rəhbər olan zaman mütləq sənə lazım olacaq.

Qazandığın bacarıqlar, prinsiplər sənə düzgün idarəetmə qabiliyyətini aşılayacaq, düzgün nəticəyə gəlmək üçün müqayisəli təhlil imkanı verəcəkdir.

Bəzən gənclər onlar üçün nəyin əhəmiyyətli, nəyin isə əhəmiyyətsiz olduğunu ciddi düşünəndə məşğul olduqları işlərə fərqli bir məcra verməyə çalışırlar.

Təcrübə göstərir ki, fərdi və işgüzar inkişaf sahəsində öz üzərində işləyən gənclər keçmiş intizamsız vərdişlərinin çərçivəsindən kənara çıxaraq

daha geniş mənada, gələcək haqda nəinki düşünürlər, hətta gələcəkdə istədikləri hədəflərə çatmaq üçün konkret planlara malik olurlar.

Dəyişib və inkişaf edən cəmiyyətimizdə gənc könüllülər təkcə təhsil almaqla kifayətlənmir, biliklə yanaşı, bacarıqlarını da artırır, öz düşüncə tərzlərini hər dəfə yeniləməklə inkişafdan geri qalmamaq üçün səriştə və qabiliyyət hüdudlarını və çevrələrini genişləndirirlər.



# BACARIQLARINA MEYDAN VER, ARZULARINDAN YORULMA

Müasir dünyanın problemlərindən biri də tələbələrin ali məktəblərdə qazandıqları biliyin tətbiqi məsələsində çətinliyin mövcud olmasıdır. Bu, müasir texnologiyanın inkişafı ilə yanaşı, dinamik inkişaf edən innovasiyalar, cəmiyyətin tələblərinin dəyişməsi ilə də bağlıdır.

Müasir gənclərin özlərini hansı sahədə reallaşdıra biləcəkləri barədə təsəvvürlərə malik olmaması da ciddi problemdir. Dostum əmin ol ki, könüllü olduğun müddətdə təmsil olunduğun qurumun iş qaydaları çərçivəsində yeni qazandığın bacarıqların tətbiqi məsələsində çətinliyin olmayacaq. Əksinə, bacarıqlarını tətbiq etmək üçün münbit bir məkan əldə edəcəksən.

Müasir texnologiya, dinamik inkişaf edən innovasiyaları isə öz fərdi və işgüzar inkişafına uyğunlaşdırmaq sahəsində daha bacarıqla çalış. Beləliklə, cəmiyyət dəyişdikcə, sən də müsbətə doğru dəyi-

şəcəksən. Bu isə bir gənc kimi problemlərdən çıxış yolunu özün tərəfdən müəyyən edə bilmək anlamına gəlir.

Təhsil aldığın dövrdə könüllü kimi fəaliyyətdəsənsə, eşitdiyin, oxuduğun və öyrəndiyin metod və alətləri bu biliklər vasitəsilə reallaşdırmağa başlayacaqsan. Könüllülük insanın təkcə müəyyən bilik və bacarıqlarının artırılması deyil, eyni zamanda sahib olduğu bacarıqların daha da püxtələşməsinə kömək edir.

Şübhəsiz ki, orta və ali məktəbdə əla qiymətlərlə oxuyan, tərbiyəli, intizamlı olmalarına rəğmən, cəmiyyətdə uğur qazanmamış onlarla şəxs tanıyırsan. Əziz dostum, sən də təsdiq edərsən ki, bir çox işəgötürən üçün qiymət cədvəli, diplomun rəngi, təlim-tərbiyə ilə yanaşı, sənin iddia etdiyin vəzifə üzrə  təcrübən də önəmlidir.

Sən çox məşhur bir şirkətin qırmızı diplomlu satış meneceri olub, bir kisə sement, iki qutu çap kağızı və yaxud da bir ədəd paltaryuyan, qabyuyan maşın sata bilməmisənsə, bu, sənin savadsız və qabiliyyətsiz olduğun anlamına gəlməyə bilər, amma əmin ol ki, bu sənin bacarıqsız olduğun anlamına gələ bilər. Çünki sənin bu sahə üzrə biliklərini təsdiq edən gözəl diplomun və bu sahədə sənə tədris olunan dərslər içində gözəl qiymətlərə malik

qiymət cədvəlin, çox gözəl bir ailə tərbiyən ola bilər. Amma unutma ki, əgər stressə dözümün az, ünsiyyət bacarıqların zəif, komanda işində passiv, deyingən və tənbəlsənsə, bu, artıq sənin bacarıqlarına çox ciddi təsir göstərə bilər. O zaman malik olduğun müsbət dəyərlər bacarığınla müqayisədə kölgədə qala bilər və yaxud da tərs mütənasib görünə bilər. Biliklərin bacarığına, bacarığın isə biliklərinə adekvat olmaz.

Dostum, müasir həyat arzularla yanaşı, daha realist və ölçülə bilən dəyərlərə üstünlük verir. Məsələn, sən bir şirkətin universiteti orta qiymətlərlə bitirmiş bir məzunusansa, gündə on min manatlıq müxtəlif məhsullar sataraq, şirkətin gəlirlərinə ciddi təsir edirsən, əməkhaqqı ilə yanaşı, təbii ki, çox ciddi də bonuslar alırsansa, deməli, sən bacarıqlı bir menecersən. Bunu isə biliklə yanaşı, həyatdan qazandığın bacarıqlarına, bu bacarıqları formalaşdıran mühitə borclusan. Ən önəmlisi isə intizamlı olduğun üçün belə bir bacarıqlara yiyələnə bilmisən.

Müasir ictimai münasibətlər savad və biliklə yanaşı, bacarıq da tələb edir. Xüsusilə bu bacarıqlı insan müxtəlif yerlərdə könüllü kimi iştirak edərək formalaşır, sosial və maddi məsuliyyətin dəqiq sərhədlərini bilir. Müxtəlif təlimlərdə iştirak edir, sertifikatlara sahib olur. Bu isə könüllüləri öz işlərində

daha da əvəzedilməz edir. Könüllü olmaq bacarıqlı olmağa gedən yolun başlanğıcıdır.

Dostum, sən də könüllü olmaqla biliklərini bacarığa necə çevirməyi öyrənəcəksən. Yox, əgər artıq sən hazırda könüllüsənsə, sənə bu işin pioneri demək olar. Sən də mənim dediklərimi tam təsdiq edə bilərsən.

Çünki sən artıq bir mərhələni geridə qoyaraq, digər həmyaşıdlarından 1-0 öndəsən. Yox, əgər hələ də könüllü deyilsənsə, demək, könüllü olmaq üzrə bilik və müəyyən resursların olsa da, bu sahədə bir qədər məsuliyyətsizlik və intizamsızlıq etmisən. O zaman könüllü olan dostlarını, tələbə yoldaşlarını, 1-0 səndən öndə olması münasibətilə təbrik edib, hətta əllərini də sıxa bilərsən. Ən azı onlar bu işdə daha intizamlı olmaqla, bir addım önə keçə biliblər. Unutma, dostum, bütün işlərdə intizam və məsuliyyət uğurun açarıdır.

Əgər könüllü olmaq üçün heç bir yerə müraciət etməmisənsə, elə indi könüllü olmaq üçün elektron imkanların verdiyi müraciət formalarından istifadə edib, könüllü olmaq üçün müraciət et. Ali məktəbə qəbul olunanda hansı ixtisasda təhsil alacağını müəyyən etdiyin üçün bu ixtisasda təhsil alırsan. İndi isə hansı ixtisasda oxuduğunu yox, hansı ixtisas üzrə könüllü olmaq istədiyini seçməlisən. Həm

də könüllülüyün ixtisas və ixtisas qrupunla heç bir əlaqəsi olmaya da bilər. Daha sonra ölkənin bütün könüllü hərəkatında mərhələ-mərhələ könüllü ol. Bu, sənin sektorlar üzrə bilik və bacarıqlarını da artıracaq. Təkcə biliklərində deyil, bacarıqlarında da ixtisaslara yiyələnəcəksən, həm də fərqli ixtisaslara.

Əgər könüllü deyilsənsə, iş elanlarında göstərildiyi kimi, sənin texniki parametrlər üzrə seçim imkanların mexaniki olaraq aşağı düşür.

Belə olan halda isə müraciət imkanların iddiana tərs mütənasib olaraq daxili demotivasiyanla müşayiət olunur.

Amma bacarığın olsa, 3-5 il təcrübə tələb edən sahələr üzrə müxtəlif könüllü stajları yığmaqla əldə etdiyin bacarıqlara güvənib, bu baryerləri çox rahat şəkildə aşa bilərsən. Deyərdim ki, “bacarıq öyrəndiyin nəzəri biliklərin və həyat təcrübənin toplusudur”. Bacarıqsız insan, hər kim olur-olsun, böyük uğur əldə edə bilməyəcək, etsə də, bu uğur keçici olacaq.

Müasir cəmiyyətdə bacarıqlara malik olmağın forma və məzmunları da sürətlə dəyişir. Köhnə bacarıqlar öz yerini yeni dövrün tələblərinə verir. Müasir qaydalar və bu qaydaların tələbləri də dinamik olaraq inkişaf edir. Bunlar isə gənc könüllülərin ideyalarının, gələcək təsəvvürlərinin formalaşmasında böyük rol oynayır.

Fikrimcə, bütün dövrlərin müasir tələbini hər zaman həmin dövrün müasir gəncliyi yaradıb və bundan sonra da yaradacaq. Təkcə güclü əzələyə deyil, daha çevik və dəyişən, inkişaf edən bacarıqlarına sahib çıxa bilən, müasir tələblərlə uyğunlaşan gənclər daha güclüdür, desəm yanılmaram. Əgər peşəkar olmaq iddiasındasansa, müvafiq sahə üzrə heç bir könüllülük stajın, təcrübən yoxdursa, heç bir təlimdə iştirak etməmisənsə, əlavə kitablar oxuyaraq yeni biliklərə nail olmamısansa, inkişaf etmək istədiyin sahə üzrə iş çevrən formalaşmayıbsa, inan ki, ali təhsil aldığın müəssisəni günahlandırmaq üçün heç bir tutarlı səbəblərin yoxdur və günahlandırdığın bütün epizodlar üzrə çox haqsızsan.

Öz üzərində davamlı olaraq işləməyə bu gün sənə heç nə mane olmur. Bunun üçün sənin bilik və bacarığın kifayət qədərdir. Sadəcə, bu bilik və bacarığı tətbiq etmək üçün mövcud məkanlar daxilində hərəkət etməyinə ehtiyac var.

Bilik və bacarıqları adekvat tətbiq etmək lazımdır. Nə üçün bacarıqlarını və biliklərini adekvat olaraq tətbiq edə bilmirsən? Özün bunun səbəblərini tapmaq üçün çoxlu müqayisələr apar. Köməklik üçün bir neçə müqayisə təqdim edim. Rus dilini bildiyin halda, nəyə görə rusdilli bir könüllülük proqramına qoşulmursan? Turizm ixtisasına yiyələndiyin halda,

niyə könüllü igid kimi özünü sınamaq kimi bir təşəbbüsə qoşulmamısan? Hüquq fakültəsinin tələbəsisən, amma heç bir vəkilin yanında, vəkillərin kluar sözü olmasın "vəkil çantası daşımamısan", stajçı üzərində işləməmisən. Dostum səbəbləri yüzlərlə sadalamaq olar. Amma səbəblərdən adekvat çıxış yolunu özün tapmalısan.

İnkişaf edən, innovasiyaları ilə təəccübləndirən müasir dünyada, gənclərin qarşısına hər gün yeni tələblər çıxır. İnnovasiyaların gətirdiyi yeni bacarıqlara sahib olmaq tələbi addım-addım hər kəsi təqib edir. Trendlərdən geri qalmamaq üçün daha sürətli və çevik olmaq kimi bir öhdəlik hər kəsi təqib edir. Həyatda uğur qazanmaq, özünü təsdiq etmək istəyən hər bir gənc bütün yeniliklərə çevik reaksiya verə bilməyi öyrənməyə məcburdur.



# PEŞƏKARLIQ

Peşəkarlıq təmsil olunduğun sahənin daha yaxşı və bütün detallarınadək, hələ lap gənc yaşlarından mənimsənilməsi deməkdir. Peşəkar insanlar könüllü gənclərin də inkişaf etməsində çox maraqlıdırlar. Çünki peşəkar insanlar nəinki peşəkarlarla işləməyi, həm də peşəkar yetişdirməyi çox sevirlər.

Peşəkarlıq cəmiyyətdə sağlam rəqabətin formalaşmasına yol açır ki, bu da hər növ fəaliyyət sahəsində yüksək keyfiyyət deməkdir. Cəmiyyətin ümumi inkişafı ilə yanaşı, fərdin şəxsi inkişafı da peşəkar münasibətlərdən birbaşa asılıdır.

İşgüzar inkişafda peşəkar inkişaf üçün etikaya malik peşəkar çevrə də çox önəmlidir. Sadəcə, mədəni, nəzakətli, centlmen olmaq hələ peşəkarlıq etika daşıyıcılığına malik olmaq mənasına gəlmir.

Hətta hər bir dövlət və özəl müəssisə peşə etikasını tənzimləmək üçün daxili etik davranış qaydalarına malikdir. Bu etik qaydalar, peşə fəaliyyətindən

irəli gələn qaydaları tənzimləmək üçün bir çox münasibətlərin tarazlaşdırılmasında mühüm çəkiyə malikdir.

Bu kodekslər işin təşkili, işin icrasına nəzarət, iş yerində davranış, daxili korporativ qaydaları əhatə edir. Hər bir gənc könüllü olaraq getdiyi qurumda peşə etikası ilə bağlı hər hansı yazılı sənədlə tanış ola və hətta qaydalara görə onu imzalamalı da ola bilər. Hər bir könüllü könüllüsü olduğu qurumun korporativ qayda və standartlarına çox ciddi əməl etməlidir.

Könüllü gənclər özləri bu qaydaları öyrənmək üçün qurumun müvafiq əməkdaşına müraciət etməli olurlar. Çünki qaydalardan xəbərdar olmaq daha az səhvlərə deyil, düşünülmüş çoxlu düzgün hərəkətlər etməyə səbəb olur. Könüllülər könüllü olanadək bu qaydaları bilməyə bilər, amma öyrənməmək üçün heç bir səbəb yoxdur. Müasir texnoloji mühitdə, internet əsrində istədiyin məlumatlarla tanış olmaq çox asandır. Amma bir könüllü kimi həm də bu məlumatları etik normalar və qaydalar çərçivəsində tətbiq də etmək çox mühümdür.

Müəssisələr bəzən daxili işgüzar sirrin, daxili qaydalarda baş verən münasibətlərin "təcrübəsiz" bir könüllü tərəfindən kənara dezinformasiya kimi yayılmasına görə çox narahat olurlar. Bu səbəbdən də bir çox şəxslər, bəlkə də, haqlı səbəbdən çox

təcrübəsiz bir gənc tələbə ilə işləməkdən çəkinir.

Ola bilər ki, gənc könüllü özü də bilmədən korporativ münasibətlərə kiçik bir problem yaratsın. Bütün bunların baş verməməsi üçün gəncin yetişdirilməsində müəssisə rəhbərinin də böyük məsuliyyəti vardır. Narahatlıq yaradan halların baş verməməsi üçün müəssisə rəhbərləri bu məsələdə mühafizəkar davranmaq əvəzinə, ən yaxşısı, əvvəlcədən necə davranmalı olduğunu könüllü gəncə başa salmalı, könüllünün də məsuliyyət dairəsini müəyyən edən sənədləri müəssisədaxili qaydalar kimi qəbul etməlidir. Eyni zamanda könüllü ilə könüllü fəaliyyəti barədə müqavilə imzalamalı, könüllü isə tanış olduğu qaydaları oxuduğu, tanış olduğu barədə müqavilədə nəzərdə tutulan müddəalar da daxil, bu sənədlərə imza atmalıdır.

Könüllü müqaviləsinə imza atmaq könüllünün ilk məsuliyyət anlamına gələn rəsmi münasibət hesab edilə bilər.

Əlbəttə ki, könüllü fəaliyyəti zamanı sən dövlət və əməliyyat sirri hesab edilən işlərdə və yaxud da kommersiya sirri daşıyan işlərdə iştirak etməyəcəksən. Təbii ki, bu işlər şifahi etibar sistemi ilə deyil, bu sirləri daşıyan insanların xüsusi peşə növlərində çalışmalarını təmin edən qanunlarla tənzimlənir. Ona görə də bu cür işləri müəssisə rəhbərləri sənə etibar

etməsələr, xahiş edirəm ki, bundan inciməyəsən. Çünki bu işlər üçün illərlə yetişmiş mütəxəssislər var və bu işlər bir qədər könüllü fəaliyyətinin hüdudlarını aşır. Ona görə də qarşına belə işlər çıxdıqda bunu normal qəbul et və sənə etibar olunan digər işlərin daha yüksək səviyyədə icrasına bax.

Kateqoriyasından asılı olmayaraq, hansı sahə ilə məşğul olursan ol, işləyəcəyin yerdən və kollektivdən asılı olmayaraq, hər bir yerin etibarlı qurum imicini qorumaq sənin də komanda üzvü olaraq mənəvi borcundur. Məsələn, əgər sən “Dost Mərkəzi” kimi bir yerdə könüllüsənsə və könüllü olduğun müddətdə mərkəzə təqaüdə çıxmağa gələn ahıllarla, əlilliyi olan şəxslərlə kobud rəftar edirsənsə, bu hal təmsil etdiyin yerin etibarına zərbə vurmuş ola bilər. Əlbəttə, mən də bilirəm ki, sən də bunu istəməzsən.

Buna görə də daxil olduğun kollektivlərdə istər sosial münasibətlər, istərsə də daxili kommunikasiyadakı etibarı zədələməyə deyil, möhkəmlətməyə çalış. Etibar deyərkən, sənə etibar olunan işləri daha keyfiyyətli yerinə yetir. Bu işləri yüksək səviyyədə görəcəyinə inanan adamların sənə qarşı olan tələb etalonuna qarşı sən də adekvat ol. Onların səndən gözlədikləri etalon qədər ol və dəyər zəncirində öz yerini yarat.

Əziz dostum, tələbə olaraq auditoriya kollektivində olmaqla könüllü olub kollektivdə işləmək bir - birindən tamamilə fərqli anlayışlardır. Könüllü olmaq istəyirsənsə, dəmir iş intizamı formalaşdırmaqla yanaşı, işgüzar bir ekosistemin də bir parçasına çevrildiyini tam məsuliyyəti ilə anladıqda işgüzar inkişaf ekosisteminin bir parçası olduğunu hiss edəcəksən.

Unutma, könüllülük fəaliyyətilə məşğul olduğun zaman fərqli yaşlarda və fərqli sosial mühitə malik insanlarla ünsiyyətdə olduğun üçün ünsiyyət bacarıqların və çevrən daha çox inkişaf etmiş olur.

Danışıq qabiliyyəti, özünüifadə edə bilmə bacarığı müasir cəmiyyətimizdə çox mühüm əhəmiyyət kəsb edir. Normal qaydada etik prinsiplər çərçivəsində ünsiyyət qura bilməyən, özünüifadə edə bilməyən bir gəncin dostluqda, iş və ailə həyatında da müəyyən problemlər yaşaya biləcəyi şəksizdir.

Məhz bu səbəbdən də sözügedən faktorda ünsiyyət bacarıqlarının artırılması məsələsi çox vacibdir. Bir gəncin əhatə dairəsi nə qədər genişlənərsə, nə qədər çox insan tanıyarsa, həmin gəncin öyrənmə mənbələri və buna uyğun məlumat axını da düz mütənasib şəkildə artacaqdır.




# SOSİAL ŞƏBƏKƏLƏR VƏ İŞGÜZAR İNKİŞAF

Sosial şəbəkələr könüllülərin işgüzar inkişafına dəstək verdiyi kimi, hədəf və məqsədləri olmayan gənclərin də həyatında mühüm rol oynayır. Belə ki, musiqi, gülməli videolar, oyunlar, zarafatlar qiymətli vaxtın çox hissəsini "yeyir", amma bu, əksər gəncləri qətiyyən narahat etmir. Bu, "vaxt öldürmək" dərdindən xilas olan könüllülər isə sosial şəbəkələri öz gələcək məqsəd və hədəfləri üçün çox sağlam və səmərəli bir hala gətirirlər.

Könüllü şəkildə vaxtını havaya sovuranlarla sovurmayanların bəlli və bir-birindən fərqli bir gündəliyi yaranır. Sosial şəbəkələrdə çoxsaylı əyləncə sahələri ilə yanaşı, işgüzar inkişaf və karyera qurmaqla bağlı yüzlərlə səhifə vardır. Bu səhifələrdə könüllü axtarışı elanlarına da rast gəlmək mümkündür. Ölkəmizdə trendə çevrilmiş gənclər təşkilatlarının, könüllülük hərəkatlarının hər birinin internet səhifələri olmaqla bərabər minlərlə izləyicisi olan sosial şəbəkə hesabları vardır.

Sosial şəbəkələrin də işgüzar inkişafda çox mühüm rolu var. Qrup müzakirələri, tədbirlər barədə məlumatların bölüşməsi, daha çevik məlumat almaq sosial şəbəkələrdən səmərəli məlumat alınmasının bir nömrəli prinsipi olmalıdır.

Könüllüsü olduğun qurumun ictimai-sosial təşəbbüslərə yönəlmiş fəaliyyətinin fotoşəklini çəkərək paylaşdığın bütün əhəmiyyətli sosial şəbəkələrdəki paylaşımların, səndən sonrakı gənc nəsil arasında da könüllülük hərəkatının formalaşmasında mühüm rol oynayır.

Hər gün daha çox könüllü ilə ünsiyyət qurmaq, geniş inkişaf edən mədəni bir mühitin içində olmaq məsələlərində hiss edəcəksən ki, könüllü olmaq sənin sosial statusuna hər gün çox ciddi təsir edir.

Ünsiyyət dairən hər dəfə ixtisaslaşmış könüllü təsisatlarının birindən digərinə transfer etməklə daha da böyüyərək genişlənəcəkdir. Zaman keçdikcə hiss edəcəksən ki, daha işgüzar insanlardan ibarət bir çevrə ilə əhatə olunmusan. Ciddi, işgüzar insanlarla ünsiyyət qurmaq, sənin gələcək işgüzar inkişafın üçün mühüm bir başlanğıc nöqtəsi olacaq.

Gələcəkdə öz işinin sahibi olmağa qərar verdiyin andan könüllü olduğun dövrdəki əlaqələrin, topladığın bilik və bacarıq köməyinə gələcək. Təbii ki, burada sosial şəbəkələrdəki fəaliyyətini də unutmaq olmaz.

Bir zamanlar könüllü olmağın, sosial şəbəkələrdəki aktivliyin sənə menecmentin əsas açarları qədər yardımçı olacaq. Bu gün sosial şəbəkələr uğurlu və uğursuz adam olmağın formuluna çevrilib. Uğurlu insan, eyni zamanda sosial şəbəkələrdən düzgün istifadə edə bilən insandır. Sənə yeni vərdişlər, bacarıqlar qazandıran sosial şəbəkələrin əsl mahiyyəti də elə budur.

Əlbəttə, heç kim sənin əylənmək haqqını əlindən ala bilməz. Sadəcə, sən ona ayıracağın vaxtı nəzarətdə saxlamağı öyrənəcəksən. Əgər sən öz üzərində işləyən bir gəncsənsə, bəyəndiyin səhifələr də seçilmiş və daha fərqli, necə deyərlər səviyyənə uyğun səhifələr olacaq. Beləliklə, sosial şəbəkələrdə öz mühitinlə yanaşı, bu mühitə atdığın imzan yaranacaq. O mühit ki, səninlə eyni cür düşünür və işgüzar inkişafın sahəsində sağlam rəqabət formasında fəaliyyətdə olan insanların pozitiv sinerjisini yaradır.

Sosial şəbəkələr həm də artıq uğurun pik nöqtəsində yaşayan insanlarla da səni tanış edir. Onların keçdikləri yolu görməyə sənin üçün böyük bir şans yaradır.

Bəzən əcnəbi mühitdə formalaşan mütəxəssislərin uğur hekayəsini müqayisə edərkən, belə bir fikir yarana bilər ki, bizdə belə uğurlu mütəxəssislər inkişaf etmir. Hesab edirəm ki, kökündən yanlış bir

fikirdir. Çünki bu cür gənclər bizdə də yüzlərlədir, sadəcə onları sosial şəbəkələrdən tapmaq, onlarla dost olmaq, qarşılıqlı uğurlu vərdişləri bölüşmək lazımdır.

Bəzən bir çox şəxslərin inkişafı ilə bağlı düşünərkən səndə belə bir fikir formalaşa bilər ki, malik olduğun problemlər yetişdiyin mühit və yaşadığın ölkədədir. Xarici ölkələrdə belə olmur, orada hər kəs çox şanslıdır. Əsla belə deyil, dostum. Sadəcə, şanslı adamlar daha şanslı mühitə malik olurlar. Harada olmağından asılı olmadan sən də o mühiti formalaşdıra bilərsən.

“O adam daha şanslı olub”, “bax, o Avropada”, “o Amerikada” doğulduğu üçün bəxti gətirib kimi bədbin fikirlərə qapılmaqdansa, ölkəmizin uğurlu insanlarını axtarıb tap, sosial şəbəkələr vasitəsilə onlarla tanış ol, onların uğur hekayələrini real olaraq onların dilindən eşit. Mənsub olduqları çevrəni, paylaşımlarını, oxuduqları kitabları, baxdıqları filmləri, dinlədikləri musiqiləri və sairə, bir sözlə, işgüzar inkişaf resepturan üçün önəmli olan hər şeyi izlə.

Sosial şəbəkələrdə könüllü qəbul edən elanlarla rastlaşdıqda tələsmə, diqqətli ol. Mütləq araşdır, əgər bu müəssisə dövlət müəssisəsi deyilsə və yaxud da bu müəssisə barədə heç bir təcrübən yox-

dursa, internetdə axtarış ver, dostlarından soruş, o qurumda əvvəllər işləmiş yaşıdlarını tap, məsləhətləş. Doğru qərar vermək üçün bir neçə cəbhədə aparılan bu araşdırma həmin müəssisəni - istər milli, istər xarici - sənə daha yaxından tanıdacaq.



# MALİYYƏ SAVADLILIĞI

Müasir dövrümüz və kapitalizm cəmiyyəti üçün maliyyə savadlılığı məsələləri həyat qədər önəmli bir məsələdir. Evdən ona verilən gündəlik xərcliyi necə sərf etmək məsələsində nə qədər peşəkar olsa, tələbə o qədər varlı olacaq. Təəssüf ki, qazanmadığı pulu havaya sovurmaqda mahir olan gənclərin də çox olduğunu deyəcəksən. Özü qazandığı pulun da qiymətini bilməyənlər və yaxud da qazandığı pulla davrana bilməyən onlarla tanışın var.

Maliyyə savadlılığı təkcə maliyyəçi və mühasiblərə lazım olan bir sahə deyil. Hər kəsin maliyyə savadlılığı olmalıdır. Dostum əgər maliyyə savadlılığının üzərində işləyirsənsə, digər həmyaşıdlardan 1-0 öndə olduğunu düşünə bilərsən. Bu barədə isə internetdə kifayət qədər məlumatlar var. Dövlət orqanları da daxil olmaqla, özəl şirkətlər və qeyri-hökumət təşkilatları bu sahədə onlarla seminarlar təşkil edirlər. Əziz dostum məsləhət görərdim ki, bu seminarlarda iştirak şansını əldən buraxmayasan.

Mərkəzi Bankın internet səhifəsindən əldə etdiyim bir məlumatı sənin diqqətinə çatdırım.

Maliyyə savadlılığı fərdlərin maliyyə məhsul və xidmətlərini başa düşmək, maliyyə risk və imkanlarını qiymətləndirmək, məlumatlı seçimlər etmək və digər səmərəli addımlar atmaq üzrə zəruri olan məlumatlılıq səviyyəsi, bilik, bacarıq və davranışlar toplusudur (İƏİT - İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı). Bu səbəbdən əhalinin maddi rifahı, habelə ölkənin iqtisadi artımı və maliyyə sabitliyi üçün maliyyə savadlılığı vacib bir element hesab olunur.

Azərbaycan Respublikasının Mərkəzi Bankı (AMB) əhalinin maarifləndirilməsinə, maliyyə savadlılığının artırılmasına və bu yolla onların hüquqlarının qorunmasına yönəlmiş müxtəlif səpkili tədbirlər həyata keçirir. Bu tədbirlərdə əsas hədəf qrupları məktəblilər, tələbələr, müəllimlər, ev təsərrüfatları, iqtisadiyyat və bankçılıq üzrə ixtisaslaşan jurnalistlər və bank işçiləri olmuşdur. Ötən dövr ərzində istehlakçıların maliyyə savadlılığının artırılması məqsədilə hədəf qruplara təlim və seminarlar keçirilmiş, ictimai aksiyalar, yay məktəbləri, iş yerlərində təlimlər, müxtəlif nominasiyalarda müsabiqələr, öyrədici oyunlar, təbliğat-təşviqat kampaniyaları təşkil edilmiş və müxtəlif intellektual resurslar yaradılmışdır.

Maliyyə savadlılığının ictimai dəyər kimi tanınması, istehlakçıların savadlılıq səviyyəsinin və hüquqlarının müdafiəsinin artırılması, həmçinin maliyyə məsələləri ilə bağlı düzgün qərarların verilməsini dəstəkləmək məqsədilə keçirilən bu tədbirlərdə müasir intellektual vasitələrdən istifadə olunur. Belə intellektual vasitələrdən biri 2015-ci ildə istifadəyə verilmiş “Maliyyə savadlılığı” portalıdır (www.bizimpullar.az). Bu portal vasitəsilə iqtisadiyyat və maliyyə sahəsində informativ materiallarla, bank xidmətləri və mərkəzi bankçılığa dair izahedici animasiyalarla, virtual muzey və məktəblilər üçün rubrikalarla tanış olmaq, eləcə də iqtisadi məzmunlu oyun və kalkulyatorlardan istifadə etmək mümkündür.

AMB-nin iqtisadi maarifləndirmə məqsədilə yaratdığı digər intellektual vasitə 2017-ci ildə fəaliyyətə başlamış virtual təhsil platformasıdır (www.edu.e-cbar.az). Ənənəvi təlim üsullarını müasir formatda təklif edən bu platformanın əsas məqsədi iqtisadiyyat və maliyyə-bank sektorunda işləyən və işləmək istəyənlərin bilik və bacarıqlarının artırılmasını dəstəkləməkdir. Platformadakı interaktiv multimedia resurslarından istifadə etməklə istənilən vaxt və istənilən yerdə peşəkarlıq səviyyəni təkmilləşdirmək mümkündür.

Ölkə başçısının 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə "Maliyyə bazarı iştirakçılarının bilik və bacarıqlarının artırılması" ayrıca strateji hədəf kimi qeyd olunmuş və maliyyə savadlılığının əhəmiyyəti bir daha vurğulanmışdır.

Bu sənəd istehlakçıların maliyyə savadlılığının artırılması və hüquqlarının müdafiəsinin gücləndirilməsi prioritetinin əsas icraçısı kimi AMB qarşısında əhalinin maarifləndirilməsinə dair strateji tapşırıqlar qoymuşdur.

Həmin tapşırıqların, həmçinin Prezidentin 2018-ci il 26 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"ndakı əhalinin maliyyə savadlılığının yüksəldilməsi, rəqəmsal ödənişlər haqqında ictimai məlumatlılığın artırılması məqsədilə maarifləndirmə, təbliğat və təşviqat işlərinin icrası əvvəlki illərdə olduğu kimi hədəf qruplar üçün tədbirlər həyata keçirilir.

"Maliyyə savadlılığı" portalının və virtual təhsil platformasının məzmunu isə mütəmadi zənginləşdirilir.

Bu istiqamətdəki işləri, eləcə də institusional koordinasiyanı AMB adından, onun iqtisadi maarif-

ləndirmə ilə məşğul olan müvafiq struktur bölməsi həyata keçirir və bu məqsədlə digər dövlətlərin mərkəzi bankları, xarici və yerli təlim-tədris institutları ilə əməkdaşlıq edilməsini, lazımi informasiya mübadiləsi aparılmasını, qarşılıqlı işgüzar əlaqələrin qurulmasını təmin edir.

Daha ətraflı məlumatı "Maliyyə savadlılığı" portalından (www.bizimpullar.az) əldə etmək mümkündür.

Bu məlumatları sən özün də internet resurslarından çox asan bir şəkildə əldə edə bilər və prosesə qoşulmaq üçün çox rahat təqib edə bilərsən. Könüllülük fəaliyyəti maliyyə savadlılığı sahəsində, çox önəmli bilgilər əldə etmək üçün yaxşı fürsətdir. Yoldaşlarınla bərabər müxtəlif insanlara, təşkilatlara kömək edərkən pulun necə xərcləndiyinin şahidi olacaqsan. Eyni zamanda pulun necə qazanıldığının da şahidi olacaqsan. Bəzi gənclər maliyyə savadlılığı deyərkən yalnız və yalnız mühasibat bilikləri olan bir adam təsəvvür edirlər. Buna görə də əgər bir gənc filologiya, hüquq, kimya, tarix və sair ixtisas fakültələrinin tələbəsidirsə, o, maliyyə savadlılığı məsələsinə özünə dəxli olmayan ayrı bir ixtisas kimi baxır. Bu stereotipə maliksənsə, elə indidən bu fikri özündən uzaqlaşdırmağa gecikmə.

Maliyyə savadlılığına sahib olmaq üçün iqtisadi ixtisaslara malik olub, mühasib olmağa gərək yox-

dur. Xərcləri və gəlirləri hesablayan müasir proqramlar vasitəsilə bütün gəlir və xərcləriniz barədə qeydlər aparın. Müasir maliyyə hesabatlarının hazırlanması qaydasına, vergi sisteminin inkişaf etməkdə olan innovativ islahat formaları və digər maliyyə institutlarının inkişafına, eyni zamanda böhranlarla müşayiət edilən müasir bazar iqtisadiyyatının prinsiplərinə uyğun olaraq, hər kəsin maliyyə savadlılığı olmalıdır.

Könüllü olmağa qərar verərkən sənin prioritetlərin arasında, maliyyə savadlılığı üzrə inkişafın mütləq və mütləq ön sırada olmalıdır. Bu, gələcəkdə maliyyə savadlılığı olan peşəkar əməkdaş statusu qazanmağına kömək edəcək. Sadəcə dövlət və özəl şirkətlərdə deyil, qeyri-hökumət təşkilatları və Azərbaycan Respublikasında akkreditasiyadan keçmiş beynəlxalq təşkilatların həyata keçirdiyi seminar və təlimlər vasitəsilə də maliyyə savadlılığını artıra bilərsən.



# RƏQƏMSAL SAVADLILIQ

Rəqəmsal savadlılığa smartfonlar, planşetlər, noutbuklar və masaüstü kompüterlər kimi şəbəkə cihazları vasitəsilə məlumat tapmaq, məlumatı qəbul etmək, təhlil etmək, istehsal etmək və paylaşmaq kimi qabiliyyətlər aiddir. Həmçinin deyə bilərik ki, rəqəmsal savadlılıq bir insanın müxtəlif rəqəmsal platformalarda yazı və digər vasitələrlə aydın məlumat tapmaq, qiymətləndirmək və tərtibetmə qabiliyyətidir. Rəqəmsal savadlılıq kompüter savadlılığı və ya rəqəmsal bacarıqlardan fərqlənir. Rəqəmsal savadlılıq bir insanın qrammatikası, yazı bacarığı və texnologiyadan istifadə edərək yazı, şəkil, səs və dizayn hazırlamaq bacarığı ilə qiymətləndirilir. Rəqəmsal savadlılıq əvvəlcə rəqəmsal bacarıqlara və fərdi kompüterlərə yönəlsə də, internetin inkişafı və sosial medianın istifadəsi bu diqqət mərkəzlərinin mobil cihazlara keçməsinə səbəb oldu. Rəqəmsal savadlılıq ənənəvi savad formalarını əvəz etmir, bunun

yerinə o, ənənəvi savad formalarının əsasını təşkil edən bacarıqlar üzərində qurulub.

Rəqəmsal savadlılığın yüksəlməsi çox vaxt media savadlılığı ilə müqayisə olunurdu. Media savadlılığı təhsili 1930-cu illərdə müharibə təbliğatları və 1960-cı illərdə reklamların artması nəticəsində İngiltərə və ABŞ-da başlamışdır. Manipulyativ mesajlaşma və medianın müxtəlif formalarının artması pedaqoqları daha çox maraqlandırmağa başlamışdı. Pedaqoqların və istifadəçilərin aldıqları media mesajlarını mühakimə etməyi və əldə etməyi öyrətmək üçün media savadlılığı təhsili təbliğ etməyə başladı.

Rəqəmsal və media məzmununu tənqid etmək qabiliyyəti fərdlərə qərəzli yanaşmaların təhlilinə və mesajları müstəqil qiymətləndirməyə imkan verir.

Danah Boyd xüsusilə gənclər üçün tənqidi media savadının vacibliyini vurğulayır. O, media və ya çap reklamının media məzmunundakı qərəzləri müəyyənləşdirmək üçün ilk addım olduğunu vurğuladı. Naviqasiya kompüter sistemlərinin texniki bacarıqları və bilikləri fərdlərə məlumatları özləri qiymətləndirməkdə kömək edir.

Renee Hobbs rəqəmsal və media savadlılığı nümayiş etdirən bacarıqların siyahısını hazırlamışdır. Rəqəmsal və media savadlılığı mesajların mənasını araşdırmaq və anlamaq, etibarlılığını qiymətləndir-

mək və rəqəmsal işin keyfiyyətini qiymətləndirmək bacarığını əhatə edir. Rəqəmsal savadlı bir şəxs, şüurun yayılması və başqalarına evdə, işdə və ya milli platformada rəqəmsal həll tapmalarına kömək etməklə cəmiyyətlərinin sosial məsul bir üzvü olur.

Rəqəmsal bölünmə dedikdə, inkişaf etmiş və inkişaf etməkdə olan dünyada mövcud olan cəmiyyətdə insanların informasiya və kommunikasiya texnologiyalarına (İKT), xüsusən kompüter aparatlarına, proqram təminatına və internetə daxil olması və istifadəsi ilə bağlı fikir ayrılıqları nəzərdə tutulur.

Cəmiyyətlərdəki İKT infrastrukturunu qurmaq üçün iqtisadi imkanlar lazımdır. Bu imkanları olmayan şəxslərin müvafiq rəqəmsal savadları kifayət qədər olmur ki, bu da rəqəmsal bacarıqlarının məhdud olması deməkdir. İnkişaf edən və etməkdə olan ölkələrin inkişaf göstəriciləri elmi-texniki tərəqqi ilə xarakterizə olunur ki, burada da, rəqəmsal savadlılığın rolu mühümdür. Bu baxımdan informasiya inqilabından kənarda qalan xalqlar üçün rəqəmsal savadın artırılması və texnologiyaya çıxış imkanlarının məhdudluğu ümumi narahatlıq doğurur.

Bu gün rəqəmsal savadlılıq və rəqəmsal giriş internetdən mənalı istifadə edən insanlar üçün getdikcə daha vacib rəqabət formasında fərqləndirici amilə çevrilməkdədir.

Rəqəmsal yerlilər və rəqəmsal mühacirlər barədə fikirlər də sənin üçün çox maraqlı olardı. Marc Prensky rəqəmsal əsrdə doğulmuş və həyatının sonrakı dövründə müvafiq bacarıqları mənimsəyən bir insanı təsvir etmək üçün rəqəmsal yerli və rəqəmsal mühacirlər terminlərini icad etdi və bu termin geniş yayıldı. Rəqəmsal bir mühacir, həyatının ilk dövründən deyil, sonradan texnologiyanı mənimsəyən bir şəxsdir.

Carr iddia edirdi ki, rəqəmsal mühacirlər yerlilər ilə eyni texnologiyaya uyğunlaşsalar da, yerli əhali ilə nisbətən müəyyən çətinliklər olur. Marc Prensky bunun problem olduğunu düşünür ki, günümüzdə bu problemi belə bir misal üzərindən göstərə bilərik. Dövrümüzün tələbələri müəyyən rəqəmsal lüğət və bacarıq dəstinə malikdir.

Rəqəmsal savadlılığın tətbiqi geniş əhatəyə malikdir. Təhsildə, sosial və iş mühitində tez-tez işlədilir. Təhsildə rəqəmsal savadlılığa çatmaq üçün, məktəblər sürətlənmiş texnoloji inkişaflarla ayaqlaşmaq üçün tədris planlarını daim yeniləyirlər. Buraya tez-tez siniflərdəki kompüterlər, bir çox sinif otaqlarındakı ənənəvi tabloların və ya lövhələrin dəyişdirilib ağıllı lövhələrlə əvəz olunması, tədris proqramlarını öyrətmək üçün rəqəmsal proqramlardan istifadə və tələbələrə onlayn olaraq təqdim olunan dərs materialları daxildir. Tələbələrə tez-tez

onlayn etibarlı mənbələri necə yoxlamaq, veb-saytlara istinad etmək və plagiatlığın qarşısını almaq kimi savadlılıq bacarıqları öyrədilir. Google və Wikipediyadan tez-tez tələbələr tərəfindən "gündəlik həyatı araşdırmaq üçün" istifadə olunur, bunları müasir təhsili asanlaşdıran iki ümumi vasitə kimi qəbul edə bilərik.

Sosial platformada rəqəmsal savadlılıq müxtəlif sosial platformaların düzgün istifadəsi üçün lazımdır.

Savadlılığın bu formada artırılması daha çox sosial şəbəkələrdə insanların təmaslarına, vaxtında məlumat ötürülməsinə və hətta mal və xidmətlərin alqı – satqısına da kömək edir.

Rəqəmsal savadlılığın olmaması insanların onlayn istifadələrinə mane olur. Rəqəmsal dünyadan istifadə edərkən həmişə bir addım öndə düşünmək üçün rəqəmsal savadlı olmaq vacib məsələdir.

İşçi mühitində rəqəmsal savadlılıq bir çox iş yerlərindən mütləq şəkildə İKT və rəqəmsal biliklərin olmasını tələb edir. Bir çox şirkət və ofis yerlərində iş, ilk növbədə, kompüterlərdə və portativ cihazlarda aparılır. Bu işlərin çoxunda rəqəmsal savadlılıq tələb olunur.

Sən də, dostum, yuxarıda yazdıqlarımızı nəzərə alaraq, öz üzərində işləsən əminəm ki, bunun sənə çox köməyi olacaq. Bu biliklərə sahib olmağın həm

yerli, həm də beynəlxalq təşkilatlarda iş fəaliyyətini bir addım qabağa çəkmiş olacaqdır. Eyni zamanda gündəlik həyatında bir çox məsələləri asanlaşdıracağının da şahidi olacaqsan.



# ƏZİZ KÖNÜLLÜ VALİDEYNİ

Əziz valideynlər.

Övladlarınızla fəxr edə bilərsiniz. O, tələbədir, təhsil alır və yaxud da işgüzar inkişaf üzərində çalışır.

Əgər övladınız könüllüdürsə, təbrik edirəm, əgər könüllü deyilsə, o zaman məsləhət görərdim ki, övladınızın könüllü olması üçün səbəblər tapın, onu könüllü olmağa motivasiya edin. Bir sözlə, övladınızın könüllü kimi formalaşmasına dəstək olun.

Gənclərin ilk müəllimləri onların valideynləridir. Onlar ailədə görüb-götürdükləri bilik və bacarıqla kiçik yaşlarından böyük cəmiyyətə - məktəbə yola düşürlər. Uşaqlar böyüdükcə ev-məktəb cütlüyünə küçə, məhəllə, şəhər kimi daha geniş mühitlərə də qoşulur. Bir gəncin yetişməsi bu mühitlərin məhsuldarlığından birbaşa asılıdır.

Valideyn olaraq sizin qədər öz övladını tanıyan bəlkə də yalnız və yalnız onun sevimli sinif rəhbərləri və ya müəllimləri ola bilər.

Valideynlər övladlarının olduğu mühitləri tanımaq istəyirlər. Kimlərlə ünsiyyət qurduğunu, nələrlə məşğul olduğunu narahatlıqla izləyirlər. Övladının pis təsirə düşməsi valideynin ən böyük qorxusudur. Əziz valideynlər, özünüzün və övladınızın rahatlığı üçün könüllülük kimi bir fəaliyyətin mövcudluğundan xəbəriniz varmı? Evdəki gənclə bərabər sizin də ölkəmizdə sürətlə inkişaf edən bu hərəkat haqqında daha çox bilməyiniz lazımdır.

Könüllülük fəaliyyəti bir çox hallarda valideyn investisiyası da tələb edir. Belə ki, könüllü olmaq istəyən şəxsin müəyyən qayğıları olur. Bu qayğılara valideynlər böyük diqqətlə yanaşmalıdırlar. Həmişə valideynin gözü qabağında olsun deyə, gəncin fəaliyyətini evlə məhdudlaşdırmağa çalışmaq lazım deyil. O, nə qədər internet qəhrəmanı olsa da, canlı ünsiyyətlər və faydalı fəaliyyət onun şəxsiyyət kimi formalaşmasında daha çox rol oynayır.

Valideynlər övladlarının könüllü olmaları ilə yanaşı, onların ən gənc yaşlarından şəxsi inkişaf sahəsinə dair kitab oxumağa təşviq etməlidirlər. Azərbay canda artıq şəxsi inkişaf sahəsində formalaşmış bir çox mütəxəssislər vardır. Onlar davamlı olaraq

seminarlar, kouçinqlər təşkil edirlər. Təbriz Hacınski, Anar Bayramov, Elvin Dadaşsoy, Həlimə Qəmərlinskaya, Rəşad Bayramov, Elvin Paşayev, Elçin Əzimli, Sakit Səmədov, Coşqun Kərimov, Elməddin Hacıyev, Nəcəf Allahverdiyev, Elmir Əkbər, Sənan Həsənov, Fəxri Ağayev, Sənan Nəcəfov, Cəlalə Nəzəroğlu, Nəsimi Paşayev, Sahil Məmmədli, Azad Qəhrəmanlı, Eyvaz Qocayev, Kənan Aslanlı, Taleh Qasımov, Tural Hümbətov, Zümrüd Cəlilova, Fəxri Məmmədli, Şamil Bağmanov, Fəxrəddin Həsənzadə, Rəvanə Həşimova, Narınc Rüstəmova, Kamran Ağayev, Yaqub Rəhimov, Aqil Allahverdiyev, Elşən Məhərov, Rövşən Abdullaoğlu, Əhəd Kazımov, Babək Bayramov, Orxan Oruc, Hüseyn Hümbətov və digər mütəxəssislər tərəfindən təşkil edilən seminarlarda özünəinam, natiqlik, fərdi və işgüzar inkişaf, keyfiyyətlərin formalaşdırılması haqqında mühazirələr dinləmək mümkündür.

İnternet üzərindən axtarış verməklə də adlarını qeyd etdiyim şəxslər barədə məlumatlar əldə etmək və onların müxtəlif seminarlardakı çıxışlarına qulaq asmaq mümkündür. Mən özüm də adlarını qeyd etdiyim şəxslərin müxtəlif seminarlarında qonaq qismində iştirak edirəm.

Bu seminarlarda iştirak edən gənclər övladınız kimi yaxşı tərbiyə görmüş və öz şəxsi inkişafında

maraqlı olan gənclərdir. Əziz valideyn, ali təhsil haqqında diplomdan əvvəl bir neçə ciddi sertifikat alması övladınızın uğurudur. Bu uğurda sizin də rolunuzun olması övladınızı daha da həvəsləndirəcək. O, sonra bu sertifikatları CV-sinə əlavə etməklə daha tez iş tapacaq və sizi ciddi bir qayğıdan azad edəcək. Övladınızın öz ayaqları üstündə durmasını görmək ən böyük arzunuz deyilmi? Buyurun, bu da sizə daha bir fürsət.

Əgər övladınız I kursdan könüllülük fəaliyyətinə başlayıbsa və davamlı olaraq üzərində işləyibsə, əmin olun ki, IV kursda sizi yaxşı mənada çox təəccübləndirəcək. Deməк, övladınız nəinki inkişaf etmiş yaxşı bir vətəndaşdır, həm də arzularınızı reallaşdıran və sizdən daha çox nailiyyəti olan bir insandır. Valideynlər bilməlidirlər ki, könüllülük fəaliyyəti həm də ciddi rəqabət mühitinin olduğu, bilik və bacarığın yarışdığı bir yerdir. Buna görə də hər bir valideyn bu rəqabət şəraitində qalib olmaq üçün öz övladını motivasiya etməli, ona dəstək olmalıdır.

Dünyada baş verən qloballaşma, geosiyasi və iqtisadi proseslər məsələlərə daha innovativ yanaşma tələb edir. Dövrün sürətinə və tələblərinə uyğunlaşmaq istəyən hər bir kəs özünü daim inkişaf etdirməli, nəinki tələblərə cavab verməli, hətta onları qabaqlamalıdır. Odur ki, günümüzün tələb-

lərinə uyğunlaşa bilən daha dinamik, geniş dünyagörüşlü, savadlı və özündə faydalı vərdişləri ehtiva edən gənc insanların formalaşmasına çalışmaq lazımdır. Belə bir cəmiyyətin formalaşmasında əsas rol, birmənalı olaraq, valideynlərin üzərinə düşür. Onlar da bilirlər ki, bir gənc həyatda özünə yer tutmaq üçün bir çox mərhələlərdə, xüsusilə də iş həyatında çoxsaylı maneələri aşmalı olur. Çox vaxt valideyn dəstəyi olmadan bu problemlərin öhdəsindən gələ bilməyən gənclər vardır. Gəlin, əsas problemləri birlikdə nəzərdən keçirək.

Yeni məzun olmuş tələbə iş axtardığı vaxt ən çox rastlaşdığı problem iş stajının olmamasıdır. Universitet illəri ərzində tələbələrin yay istehsalat təcrübəsi çərçivəsində qazandıqları təcrübə iş həyatına atılmağa kifayət etmir və ya təşkilatın, müəssisənin həmin gənclərə biganə yanaşması yaxud həmin fəaliyyətin mahiyyətinin düzgün dərk edilməməsi nəticəsində yay istehsalat təcrübəsinin effektiv bir nəticəsi olmur.

Digər bir məsələ isə ilk dəfə işə qəbul olan gənclərin adaptasiya dövrüdür. Belə ki, iş həyatında təcrübəsi olmayan və heç bir peşə vərdişinə yiyələnməyən gənclər üçün həmin vəzifəyə tez bir zamanda uyğunlaşmaq, təşkilatın dəyərlərini mənimsəmək və məhsuldar bir əməkdaşa çevrilmək müddəti digərlərinə

nisbətən daha uzun çəkir. Bu müddət ərzində həmin gənc üzərində hiss etdiyi təzyiq nəticəsində həvəsdən düşə bilir, motivasiyası azalır. Bundan əlavə, boş vaxtını səmərəli keçirə bilməyən bir çox gənc var. Bəziləri məlumatsızlıq nəticəsində öz potensiallarını, bilik və bacarıqlarını harada tətbiq edəcəklərini bilmirlər. Həmin gənclər vaxt keçdikcə daha da passivləşir, yeni tendensiyalardan geri qalır və dünyagörüşləri getdikcə genişlənmək yerinə daralır.

Yuxarıda qeyd edilən problemlərin qarşısını müxtəlif üsullarla almaq mümkündür. Valideynlər adətən klassik metodlara müraciət edirlər. Danlamalar, məktəbdə müəllimlərlə görüşlər, böyük qohumların öyüd-nəsihətləri. Bu tədbirlər daha çox hansısa bir hadisə olduqdan sonra görüldüyünə görə o qədər də effektiv olmur. Narahatlıq içində illərlə yaşamaqdansa, övladınızı könüllülərin sırasına göndərməyiniz daha məntiqli deyilmi? Valideynlər övladlarını düzgün istiqamətləndirib könüllü fəaliyyətinə cəlb etməklə vaxtlarının səmərəli keçməsi, yeni vərdişlərin mənimsənilməsi və gələcək həyat yolunda təcrübə əldə etməsi üçün imkan yaratmış olurlar. Gənclər də belə mühitdə daha intizamlı, işlərində daha dəqiq və səliqəli olur, vaxt keçdikcə həmin vərdişləri şəxsi həyatlarında da əks etdirməyə başlayırlar.

Son zamanlar rastlaşdığım problemli gənclərlə məşğul olan psixoloq və valideynlərin, ilk növbədə, üz tutduqları yer məhz könüllü fəaliyyətidir. Həmin gənclər könüllü fəaliyyəti ilə məşğul olmaqla cəmiyyətin lazımlı üzvü olduqlarını, onların əmək və töhfələrinə ehtiyac duyulduğunu hiss edərək özünəinam qazanırlar. Tapşırıqları yerinə yetirmək üçün var gücləri ilə çalışır və beləliklə, özlərinin və əvvəllər bilmədiyi bacarıq və qabiliyyətlərini kəşf etmiş olurlar.

Belə gənclərdə vətənpərvərlik ruhu da yüksəlir və cəmiyyətin nümunəvi üzvünə çevrilmək üçün durmadan işləyirlər. Bundan əlavə, könüllü fəaliyyəti çərçivəsində yeni və sağlam dostluqlar yaranır. Dostluq elə bir şəraitdə formalaşmalıdır ki, hər iki tərəfə müsbət təsir etsin, arada sağlam rəqabət yaransın və tərəflər bir-birlərindən daim yeni, faydalı vərdişlər öyrənsinlər. Eyni fikirdə olan gəncləri bir yerdə könüllü fəaliyyəti çərçivəsində görmək olduqca ürəkaçan mənzərədir. Həm gənclərin, həm də valideynlərin adına. Hər qrupda olduğu kimi burada da gənclər digər yoldaşlarının nümunəvi davranışlarından nümunə götürür, onlardan geri qalmamağa çalışırlar. Könüllü fəaliyyəti ilə məşğul olan gənc öz vətəndaş məsuliyyətini anlayır və fəaliyyətinin cəmiyyətə qoyulan sərmayə olduğunun fərqinə vararaq davranışlarına diqqət yetirir.

Könüllülük fəaliyyətində biz cinslərarası münasibətləri və tərbiyəni də qeyd etməliyik. Qızlar və oğlanlar böyük bir kollektivdə özlərindən böyük və kiçik yaşlı könüllü yoldaşlarının əhatəsində düzgün davranış qaydalarını mənimsəyirlər. Bir-birlərinə qarşılıqlı hörmət və ehtiramla yanaşmağı, qayğı göstərməyi, kömək etməyi öyrənən gənclər sabah öz ailələrində də bu prinsiplərə sadiq qalacaqlar. Normal qadın və kişi münasibətlərinin bünövrəsi məhz bu cür sosial təmaslar vaxtı qoyulur.



# İŞGÜZAR HƏYAT

İnsanın özünü nə qədər inkişaf etdirdiyi onun kollektivdə davranışı və işgüzar mühitə inteqrasiyası ilə ölçülə bilər. Kollektivdə işləmək mürəkkəb və çoxqatlı prosesdir. Kollektiv daxili münasibətlər yazılmış və yazılmamış qaydaları ilə daimi olaraq tənzimlənsə də, hər gün özünə yeni xarakter qazanmaqdadır.

Kollektivdə işləmək, ilk növbədə, tanışlıq dairəsinin genişlənməsinə səbəb olur. Təbii ki, kollektivdəki bütün iş yoldaşlarınızın sizin əbədi dostlarınız olacağını gözləmək mümkün deyil. Amma bir yerdə işlədiyiniz insanlarla birbaşa, yaxın kontaktda olursunuz. Mehriban yoldaşlıq münasibəti yaranır. Sosial şəbəkələrdə qurduğunuz təmaslardan fərqli olaraq bu canlı münasibətlər sizə daha çox təsir edir. Sən kollektivin mədəni, elmi, məişət həyatı ilə tanış olursan. Təbii ki, sən özünüzə lazım olan ən yaxşı şeyləri bu kollektivdən öyrənməyə çalışırsan. Bu sırada in-

sanlarla xoş münasibət qura bilmək, subordinasiyanı gözləmək, işi vaxtında və keyfiyyətli yerinə yetirmək kimi nüansları qeyd etmək mümkündür.

Unutmayaq ki, arzusunda olduğun böyük şirkətdə könüllü təcrübəçi kimi işə başlamaq üçün hazırlıqlı olmaq lazımdır. Unutma ki, rəqabətin mövcud olduğu şəraitdə yüksək bacarıq və vərdişləri olan gənclər üstünlük qazanırlar. Odur ki, hamı öncədən daha kiçik müəssisələrə müraciət edir, müsahibəyə hazırlaşır, dil və informasiya texnologiyaları bacarıqlarını inkişaf etdirir və beləliklə, müəyyən bir təcrübə toplayırlar. Bu təcrübə isə onların karyera yüksəlişində həmişə köməyə çatır.

Bu cür hazırlıq keçmiş könüllü gənc işəgötürmə prosesinin birinci mərhələsini uğurla başa vurur. Eyni zamanda əvvəllər hansısa bir kollektivdə işlədiyi üçün yeni mühitə və komandaya daha tez adaptasiya olur və vəzifəsi üzrə işlərə daha tez köklənir. Gənc əvvəlki könüllülük fəaliyyətindən qazandığı bütün təcrübəni artıq şəxsi inkişaf və karyera yüksəlişi üçün istifadə etmək məqamının çatdığını hiss edir və növbəti mərhələyə inamla qədəm qoyur.

Fərd kollektivlərdə öz inkişafını daha da sürətləndirdikdən sonra cəmiyyətə inteqrasiya olunur. Daha doğrusu, bu proseslər eyni vaxtda baş verir. Bildiyimiz kimi, ortaq adət-ənənələrə və inanclara malik in-

san toplumları eyni dəyərlərin ətrafında birləşərək cəmiyyət statusu qazanırlar. Tarixboyu baş verən bütün mənfi və müsbət rezonanslar da bu dəyərlərin toqquşması və ya birləşməsinin məhsulu olub.

Cəmiyyətin yaranması ilə başlayan könüllülük işi bütün mərhələlərdə onun başlıca tərkib hissəsi olaraq öz mövcudluğunu davam etdirib. Özünü demokratik sayan istənilən cəmiyyət bu anlayışa yalnız fərdi psixoloji amil kimi baxmır, həm də onu cəmiyyətin gələcək hədəflərində əsas qüvvəyə çevirir. “Sosial məsuliyyət” predmeti inkişaf edən istənilən birləşmənin - təşkilatın, şirkətin, hətta ölkənin xüsusi diqqət ayırdığı bir anlayış olmaqla könüllülüyün istiqamətlərini, yəni, təsir dairəsini müəyyənləşdirir.

Özündə cəmiyyətə xeyir vermək üçün atılan addımları birləşdirən “Sosial məsuliyyət” predmeti toplumun sahib olduğu dəyərlərə birbaşa təsir göstərir. Bu proses bütövlükdə könüllülük anlayışı ilə ahəngdardır və cəmiyyətə öz mütəmadi təsirləri ilə diqqət çəkir.

Könüllülük sahib olduğun və inandığın dəyərləri sosial məsuliyyət naminə cəmiyyətin digər fərdləri ilə bölüşməkdir. Hər bir fərd yalnız aid olduğu cəmiyyətin psixoloji statusuna müsbət mənada töhfə vermir, eyni zamanda, özündə də bir sıra dəyişikliklərin əsasını qoyur. İstənilən şəxsin inki-

şafında maddi, mənəvi və digər amillərdən başqa, onun aid olduğu cəmiyyətin də özünəməxsus rolu vardır. Bu, o deməkdir ki, əgər sənin də aid olduğun cəmiyyət yüksək inkişaf indeksinə malikdirsə, bu, fərd olaraq sənin də yüksək həyat standartlarına sahib olduğunu göstərir.

Könüllülüyün sosial məsuliyyət istiqamətlərini müəyyən edən elə cəmiyyətin özüdür. Düzgün müəyyən edilmiş sosial istiqamətlər üzrə reallaşdırılan könüllülük fəaliyyəti cəmiyyətdə vətəndaşlıq məsuliyyətini formalaşdırdıqca özünütəbliğatın kütləviliyini artırır. Beləliklə də könüllülük fəaliyyətinə qoşulanların sayı artır və nəticə etibarilə cəmiyyətin psixologiyasında istənilən müsbətyönümlü dəyişikliyə, dəyərin formalaşmasına nail olunur.

Könüllülük fəaliyyət dairəsinin ölçüsündən asılı olaraq qarşısına qoyduğu sosial hədəfləri müxtəlif dövrlərdə çeşidli formalarda müəyyən etməsi ilə diqqət çəkir. Bu fəaliyyət növünün uğurlu olmasının başlıca səbəblərindən biri ümumi maraqların şəxsi maraqlardan üstün tutulması, istənilən şərait və istənilən dövrdə reallaşdırıla bilməsidir. Könüllü olaraq öz cəmiyyətinin inkişafına çalışan istənilən xalq hər zaman daha böyük uğurlara nail olub, cəmiyyətin psixologiyasına verdiyi bu töhfələrlə fərdlərinin daha yüksək inkişafını təmin edib.



# KARYERA PİLLƏKƏNİNİN NÖVBƏTİ PİLLƏSİ

Bir daha qeyd etməkdə fayda var ki, könüllülük altruistik, nəcib və ali fəaliyyət növüdür. Könüllü kimi işləmiş insanlar bir qayda olaraq daha alicənab, nəzakətli və cəmiyyətdə baş verən hadisələrə çevik reaksiya vermələri ilə fərqlənirlər. Könüllülük dəyərinin daşıyıcısına çevrilmiş insanlar karyeraları boyu işəgötürənlər üçün ən çox axtarılan kadrlardır.

Bir qayda olaraq müsahibə mərhələsində insan resursları üzrə mütəxəssislərin verdiyi əsas sualların bir hissəsi də könüllülük və sosial fəaliyyətlə bağlı olur.

Dostum, sənin də bildiyin kimi, qanunvericiliyə görə, dövlət qulluğuna qəbul test imtahanı, müsabiqə və müsahibə yolu ilə aparılır. Müsabiqənin birinci mərhələsində namizədlər test imtahanından, daha sonra müsahibədən keçməlidirlər.

Təcrübələr göstərir ki, müsabiqənin nəticələrinə görə, 3 işçi tələb olunan yerə bəzən 70-100 və hətta daha çox iddiaçı müraciət edir. 100 nəfərin içindən seçilən 3 nəfəri təhlil edərkən məlum olur ki, bu 3 nəfər daha öncə könüllülük təcrübəsi olan şəxslərdir.

Əgər gənclərin uğurlarını ölçən bir ölçü vahidi olsaydı, qeyd edim ki, bu ölçü vahidinin əsas və bir nömrəli meyarı könüllülük olardı. Şəxsi inzibati təcrübəmdən deyirəm ki, könüllülük təcrübəsi olan gənclər daha çox uğur əldə edirlər. Çünki müsahibə və müsabiqə mərhələlərində bu gənclərin ünsiyyətcilliyi, bacarıqları, kollektivdə davranış, intizam və eyni zamanda bir natiq kimi özünü ifadə etməsi, təbii ki, ekspertlər tərəfindən nəzərə alınmaya bilməz. Çünki könüllülərin CV-yə əlavə etdikləri könüllülük fəaliyyəti barədə sertifikatlar onlar haqqında müsbət təəssürat yaradan rəsmi mənbələr hesab edilir.

Bunu da bilməmiş deyilsən ki, özəl sektorda işə qəbul prinsipləri dövlət sektorundan tam fərqlidir. Burada işədüzəltmə agentlikləri CV-lərin təqdim edilməsi, işçi ilə təmin etmək və yaxud da şirkətlərin insan resursları şöbələri mühüm rol oynayır. Amma yenə də işəgötürənlər, daha peşəkarların və bacarıqlıların işə götürülməsində çox maraqlıdırlar.

Biznes sektorunda da iddiaçının CV-si təbii ki, dövlət orqanında işə qəbulda tələb edilən CV-lər qədər çox önəmlidir. Müasir şirkətlər üçün ərizəçinin işgüzar, ictimai-sosial keçmişi həmişə maraqlıdır. Müasir şirkətin insan resursları mütəxəssisləri bilmək istəyir ki, onlara müraciət edən işçinin əlaqələri, işgüzar və sosial təcrübəsi nə qədərdir.

Dostum, könüllü olduğun yerlər həm də sənə zəmanət məktubu verə bilən bir mənbədir. Hansı ki, sən bu mənbəyə hər zaman rəsmi və ya qeyri-rəsmi müraciət edə bilərsən. İş üçün müraciət etdiyin müəssisələr könüllü çalışdığın qurumlara barəndə sorğu göndərə bilər. Könüllü fəaliyyət zamanı sənin necə davranış nümayiş etdirdiyin, nə qədər bacarıqlı, intizamlı olduğun barədə öyrənərkən, müsbət rəylə qarşılaşman sənin işlə təmin edilməyinə səbəb olacaq.

CV öz yerində, təbii ki, özəl müəssisələrin insan resurslarının idarə olunması üzrə peşəkar mütəxəssisləri CV ilə həmahənglik təşkil edən bacarıq və biliyi də yoxlayır. Əgər sən hansısa beynəlxalq təşkilatın xətti ilə xaricdə könüllü olmusansa, bu, artıq sənin dil biliyinin əyani sübutudur.

Sən özünü inkişaf etdirməlisən. Çünki arzu etdiyin məşhur şirkətin insan resursları rəhbəri və əməkdaşları təsadüfi adamlar deyil, onlar da vaxtilə

könüllülük prosesini keçmiş və yaxud da hazırda könüllülərlə işləyən, peşəkar bir kollektivin gündəlik qayğıları ilə məşğul olan professionallardır. Buna görə də sənin arzu etdiyin şirkət bu gününü deyil, keçmişini də bilmək istəyir. Çünki sənin yaxın keçmişin bu gününü formalaşdırıb. Əgər sən şirkətin bugünkü tələblərinə cavab verirsənsə, buna görə öz könüllülük keçmişinə borclusan.

Təbii onunla da razıyam ki, özəl müəssisələr bir çox hallarda rəsmi prosedurlardan daha çox bacarıq və çevikliyə üstünlük verirlər. Dil bilikləri, kommunikasiya vərdişləri, işin peşəkarlığı özəl şirkət üçün çox vacibdir.

Bir çox özəl şirkətlər əksər hallarda yalnız CV-si kifayət qədər zəngin olan hazır kadr axtarışına qaçırlar.

Heç nəyə baxmayaraq, hazırda tələbələrin özünü inkişaf etdirməsi üçün xaricdə təhsildən başlamış təqaüd proqramlarında iştirakadək çoxlu imkanlar mövcuddur. Gənclərin əksəriyyəti xarici proqramlarda şanslarını sınamaqdan çəkinirlər. Çünki dil bilikləri istənilən səviyyədə deyil. Digər tərəfdən, ətraflı məlumata malik olmurlar və onları xaricdə nə gözlədiyini bilmirlər. Evdən uzaqlaşmaq onlara çətin gəlir. Onlar ona görə məlumatsızdırlar ki, zamanında könüllü olaraq çalışmayıblar və belə-

liklə də öz aktiv yaşıdlarından, yuxarıda qeyd etdiyim kimi 1-0 geridə qalırlar.

Bir çox özəl şirkətlər sosial həyatda aktiv iştirak edir. Bu barədə praktik misallar da kifayət qədərdir. Korporativ sosial məsuliyyət siyasətinə uyğun olaraq özəl şirkətlər öz korporativ münasibətlərində bir çox layihələrin maddi dəyərini sosial dəyərə çevirə bilirlər. Şirkətlər sosial aksiyalarda dövlət orqanları, vətəndaş cəmiyyəti və peşə birlikləri ilə bir arada, həmrəy formada çıxış edirlər. Özəl sektorda könüllülərin iştirakı qanunvericiliklə qadağan olunsa da, qanunvericilik könüllülərə dəstək verməyi özəl sektora qadağan etmir.

Müxtəlif peşə birliklərinin, ictimai təsisatların könüllüləri kimi onların inkişafına dəstək vermək özəl sektorun da borcudur.

Könüllülər istehsalat prosesinə buraxılmasalar da, istehsalat prosesi və digər işlər barədə nəzəri biliklərə yiyələnə bilərlər. Onların bu barədə təsəvvürləri yarana bilər. Bu kiçik ehtiyacların ödənməsi üçün gənclərə səmərəli və əlçatan şərait yaratmaq olduqca önəmlidir.

Dövlət orqanları yanında fəaliyyət göstərən könüllü təsisatları, qeyri-hökumət təşkilatları, ictimai birliklər və fondlar özəl şirkətlər və könüllülər arasında çox mükəmməl formada körpü rolunu oynaya bilərlər.

Bu təşkilatlar könüllülük proqramları çərçivəsində ixtisaslaşmış könüllü təşkilatları ilə sıx və səmərəli əməkdaşlıq edirlər. Onlar birgə icra etdiyi bu proqramları şəffaf seçim və müsabiqə əsasında həyata keçirirlər.

Bu fəaliyyət bəzən elə gənc könüllülərin özlərinə və insan resurslarının idarə olunması bölmələrinə həvalə edilir. Könüllülərin qeydiyyatdan keçməsi üçün onlara elektron resurslar üzərindən daha asan qeydiyyat imkanları təklif edilir. Könüllülər elektron resurslarla daha rahat və asan şəkildə qeydiyyatdan keçirlər. Bu, həm də işin ən şəffaf tərəflərindən biridir.

Bu şəffaflıq nəticəsində çox mühüm bir məsələ də öz həllini tapmış olur. Məhz marağı olan gənclər istədiyi sahə üzrə qeydiyyatdan keçərək ədalətli meyarlar üzrə formalaşmaq istədikləri sahədə özlərini sınamaq şansı qazanırlar.

Bu modulu özəl sektor istiqamətlərinə uyğun peşə birlikləri və ictimai təsisatlarla qarşılıqlı əlaqəli şəkildə tətbiq etsələr, mütəxəssis hazırlıqları ilə yanaşı, ölkədə gənclərin məşğulluğu prosesinə böyük bir töhfə vermiş olacaqlar.

Təsəvvür edək ki, 759 əsas özəl sektor sahəsi üzrə 30 ictimai birlik mövcuddur. Bu birliklər hər ay 200 könüllünün seçimi üçün elan verir. Hər müəssisədə növbəli şəkildə işləmək üçün 3 nəfər

seçilir. Hər ay ən azı 600 könüllü şəxs ayrı-ayrılıqda 200 müəssisəyə təcrübəçi kimi yerləşdirilir. Bir ilin sonunda təcrübəçilərin sayı 7200-ə çatır. Deməк, on iki aydan sonra müxtəlif yerlərdə könüllü olmuş 7200 hazırlıqlı könüllümüz var. Bu gənclər müəyyən dərəcədə yetişmiş, gələcəyinə investisiya qoyulmuş bir şəxs kimi də illər sonra qarşımıza çıxır.

Dostum, ola bilər deyərsən ki, gələcəkdə mən nə dövlət orqanı, nə də özəl sektorda işləmək istəyirəm. Öz işimi qurub, öz işimin ağası olmaq istəyirəm. Gözəl təşəbbüsdür. Mən də cəsarətinə görə səni təbrik edirəm.

Unutma ki, təcrübə, ünsiyyət bacarığı, inzibatçılıq, intizam yalnız və yalnız kollektivdə formalaşır. Bunlar olmadan, hətta öz işini qurmaq fikrin gözəl arzu kimi səslənsə də, təcrübəsizlikdən bu arzu elə beşikdəcə boğula bilər. Tələbəlik illərində müxtəlif kollektivlərdə keçdiyin könüllü təcrübəsi sənə nəinki öz işini qurmaqda kömək edəcək, hətta sənin liderlik, tabe olmaq və eyni zamanda tabeçiliyində olacaq şəxslərlə işləmək üçün gözəl bir təcrübə qazandıracaq.

Bu isə sənə gələcəkdə öz işini qurmaqda böyük kömək olacaq. Öz işini qurarkən oxuduğun kitabların və könüllü olduğun yerlərin ən gözəl təcrübələrinə əsaslanacaqsan. Əgər belə demək mümkünsə,

uğur hekayənin ilk sətirlərini qızıl hərflərlə yazacaqsan. Təbii ki, görüb-götürdüyün idarəçilik formalarından, ünsiyyət bacarıqlarından istifadə etməklə də yetişib formalaşacaqsan.

Həyat yaxşı nümunələr kimi, pis nümunələrlə də zəngindir. Amma sən də mənimlə razılaşarsan ki, pis nümunələri görüb, onu təkrar etməmək üçün yaxşı təcrübəyə malik olmaq lazımdır.

Maliyyə savadlılığı, rəqəmsal savadlılıq və iş mühitində biliklərinin artırılması prosesi də könüllü olduğun zaman yaddaşında böyük bir iz buraxacaq.

Öz işini qurmaq istəyirsənsə, əvvəl kiminsə yanında öyrənməli, könüllü kimi işləyib təcrübə qazanmalısan. Maddi təmənna güdmədiyin əvəzi ödənilməyən işlər, sənə əvəzində çox böyük bir təcrübə qazandıracaq ki, bəlkə də bir çox insanlar bu təcrübəyə yiyələnmək üçün külli miqdarda vəsait xərcləməyə hazırdır.

Tələbə və yaxud da könüllü olduğun müddətdə ağlına çoxlu ideyalar gəlir. İşlədiyin yerdə gördüklərini öz ideyalarınla müqayisə etmək imkanın var. Müqayisələr vasitəsilə artıq öz hədəflərini konkret aydınlaşdıra bilirsən. Əgər 4 ildə ən azı 10 müəssisənin hər birində 1 ay stajın varsa, sənin ümumi iş stajın 300 gün edir. 300 gün isə 10 ay deməkdir.

Deməli, artıq sənin 10 aylıq iş stajın var. Bunu bir müəssisədə işləyən mütəxəssisin iş stajına çevirsək, deməli, 10 ay fasiləsiz iş stajı edir. Bu müddətdə sən intizamlı, kollektivlə iş, təşkilatçılıq, kargüzarlıq kimi faydalı bacarıqlarla yanaşı, faydalı çevrə də qazanmısan.



# KÖNÜLLÜLƏRLƏ İŞİN TƏŞKİLİ

Bir daha qeyd edim ki, könüllülərlə işin təşkili müəssisə rəhbərlərinin üzərinə çox böyük məsuliyyət qoyur. Gənc, təcrübəsiz könüllülərin işdə əl-ayağa dolaşacağını düşünən qurum rəhbərləri kifayət qədərdir.

Könüllülərlə sıx əməkdaşlıq təcrübəsinə malik bir şəxs kimi qeyd etməliyəm ki, könüllülərlə işi təşkil etmək istəyən hər bir müəssisə rəhbəri könüllülərin qəbulu üzrə qaydaları müəyyən edərək onu rəsmi təsdiq etməyi, standartlar, şərtlər, könüllülərin görə biləcəyi işlərin xarakterinə uyğun könüllü tələbləri qoymalıdı.

Könüllü fəaliyyətinə tələblərdə gender balansını qorumaq işin xeyrinə olardı. Çünki qanunun işçilərlə bağlı gender kvotası olduğunu nəzərə almaq müəssisənin imicinə də müsbət təsir göstərərdi. Digər tərəfdən əgər, bir müəssisədə 30 könüllü yeri

varsa, bunların hamısının qız və ya oğlan olması sosial dəyər üçün heç bir fayda verməyəcək.

Əlbəttə, elə peşələr vardır ki, burada məhz müvafiq cinsin iştirakı tələb edilə bilər. Amma hər bir işəgötürən sosial dəyər yaratmaqla gənclərin cinslərarası tərbiyəsinə böyük bir töhfə vermiş olardı. Gənclərin yetişməsi üçün ayrı-seçkiliyin olmadığı bir mühitin bünövrəsini qoymaq şansını qaçırmayan müəssisələr müasir Azərbaycan gənclərinin formalaşması sahəsində mühüm bir tarixi hadisənin iştirakçısına çevrilirlər.

Könüllülərlə işin insan resurslarının idarə olunması şöbəsi və yaxud kadrlar şöbəsi tərəfindən koordinasiya edilməsi məqsədəuyğun olardı.

İnsan resurslarının idarə olunması şöbəsi könüllülərlə işin bürokratik tərəflərini həll etməlidir. Onlar müqavilə nümunələrini, könüllülərin intizam qrafikini hazırlamaq və könüllülərlə digər şöbələrin işinin intizamlı təşkili məsələsində məsuliyyət daşıyırlar. Eyni zamanda, bu şöbə könüllülərlə işin tənzimlənməsi üzrə daxili qaydaları hüquqşünaslarla birgə hazırlayaraq yuxarı rəhbər orqanların təsdiqinə verməlidirlər.

Könüllülərin sosial işdə iştirak etmələrinin əsas hədəflərindən biri də karyera quruculuğudur. Bunu nəinki normal qəbul etmək, hətta bu könüllülərə

məsləhət, dəstək və istiqamət vermək lazımdır.

Onlar üçün sertifikat və xasiyyətnamə nümunələri hazırlamaq da könüllülərlə işləyən şöbənin, departament və yaxud da bölmənin birbaşa işidir. Bu prosesin rəsmiləşdirilməsinə bürokratik yük kimi baxmaq olmaz. Bu işdən zövq almaq lazımdır. Axı bizim yetişdirmək istədiyimiz insan, cəmiyyət üçün edəcəyimiz işlər var və biz bu işlərlə məşğuluq.

Mütləq bütün prosesləri rəsmiləşdirin, bunun üçün müvafiq hüquqi sənədləşməni mütləq edin və elektron qeydiyyat aparın. İşçilərdə olduğu kimi, könüllülər üçün də işə davamiyyət qrafiki hazırlayın. Əgər müəssisənizdə turniket və yaxud da elektron qeydiyyat sistemi tətbiq edilirsə, könüllüləri də əməkdaşlarınızdan ayırmayın. Onlar üçün də özlərini önəmli olmaları, komandanın bir parçası olaraq özlərini hiss etmələri üçün şans yaradın. Onlara da turniketdən keçid kartı və yaxud da könüllü olduqları müddətdə könüllü vəsiqəsi təqdim edin.

Könüllülərə hər bir diqqət onların şəxsiyyət kimi formalaşmasına dəstək olmaqla bərabər, xatirələrində geniş və pozitiv bir iz buraxacaqdır. Bu tətbiqlər onların iş intizamına təsir etməklə yanaşı, hər mənada sizin işinizə də böyük fayda vermiş olacaq. Onlar sizdən nümunə götürməklə yanaşı, sizin müəssisənin ən böyük təbliğatçısına çevriləcəklər.

Siz isə gənclərin gələcək işgüzar inkişafına dəyər verməyinizlə nümunəvi müəssisə rəhbərinə çevriləcəksiniz.

Könüllülərə qayğı ilə yanaşılan cəmiyyətdə siz də bir valideyn kimi övladınızın başqa bir müəssisədə könüllü olacağından narahat olmayacaqsınız. Övladınızın da başqa müəssisədə könüllü olduğunu düşünün. Əlbəttə ki, könüllü onun üçün ayrılmış məlum saatlarda işləməlidir. Rəhbərlik etdiyiniz müəssisəyə isə könüllü təsisatları ilə geniş əlaqələrin qurulması və könüllülərin təyin edilmiş saatlarda məhz sizin müəssisədə staj keçməsi üçün şərait yaradın.

Könüllülərlə işin təşkilini İnsan Resursları bölməsinə həvalə etsəniz də, bu işin təşkili üzrə strategiyanı və işin nəticəsi ilə bağlı hesabat tələb edin. Könüllülər üçün çoxlu motivasiya tədbirləri düşünün. Onların müəssisənin işində aktiv olmaları üçün motivasiya etməyi unutmayın.

***Əziz işəgötürənlər,***

***Əziz könüllülərlə işləyən şəxslər.***

Könüllü sisteminin qurulmasını öz müəssisənizdə tətbiq etməyə çalışın. İşə götürərkən, sosial dəyər və cəmiyyət üçün faydalı üzvlər yetişdirilməsi işinə töhfə məqsədilə könüllü stajını da nəzərə alın. Yeni gələn könüllülərdən könüllü stajını təsdiq

edən sertifikat və ya xasiyyətnamə tələb edin. Bu, həm gəncləri könüllü olmağa təşviq edəcək, həm də bu sahələrdə çalışmaq üçün özlərini daha inamlı aparmalarına zəmin yaradacaqdır.

İşəgötürən kimi sizin gənc könüllülərdən tələbləriniz valideynlərin tələblərindən bir o qədər də fərqlənmir desək, yanılmarıq. Amma müəssisə sahibinin tələbi bir qədər inzibati tələbdir ki, bunu da gənc könüllülərin heç biri öz ailələrində öyrənə bilməz. İnzibati dəyərlərin öz alqoritmi və davranış qaydaları var. İşin tələb etdiyi müəyyən qaydalar, çərçivələr, etiket və digər tələblər var. Amma işəgötürənlər yaxşı bir mütəxəssislə yanaşı, eyni zamanda, yaxşı bir adamı işə götürmək istəyirlər - formalaşmış, vicdanlı, çevik vərdişləri olan bir adamı. Amma, özümüzə belə bir sual verək. İşə götürmək istədiyimiz əməkdaşı, gənc kadr kimi yetişdirmək kimi bir arzumuz oldumu?

Bəzən işəgötürənlər mütəxəssis azlığından, gənclərin təcrübəsizliyindən şikayətlənirlər. “Etibarlı” mütəxəssislə işləmək üçün tanış və qohumlara üstünlük verirlər.

Ən yaxşı halda isə insan resursları üzrə fəaliyyət göstərən şirkətlərə müraciət edirlər. İşəgötürənlər etibarlı bir mühitdən tövsiyə olunan təcrübəli işçi tapmaq üçün bunu edirlər.

Kadr seçimini gözünüzün qabağında yetişmiş gənc kadrlar arasından etməyə nə deyirsiniz?

Sadəcə, könüllüləri öz ətrafında birləşdirən birliklərə müraciət etməyiniz və ya könüllülərin ixtisaslaşmış ictimai birlikləri vasitəsilə rəhbərlik etdiyiniz qurumda təcrübəçi gəncləri dəvət etməyiniz kifayətdir. Onlar sizin bu çağırışınıza böyük hörmət və ehtiramla qarşılıq verəcəklər.

İşəgötürənlərlə olan müzakirələrdə, onlar insan resurslarının formalaşdırılmasında könüllülük fəaliyyəti olan gənclərə daha çox üstünlük verəcəklərini qeyd edirlər.

“Necə bir könüllüyə?” sualını verdikdə isə “Daha bilikli və bacarıqlı olana”, - cavabını verirlər. Əlbəttə ki, haqlı tələbdir. Əgər bilikli və bacarıqlı işçiyə ehtiyacımız varsa, niyə bu tələbləri həm də könüllülərə qarşı qoymayaq. Eyni zamanda, gələcəkdə müəssisəyə əməkdaş seçərkən, niyə də işçiləri könüllülər arasından seçməyək?!

Əgər sizlərin hər birinizin qarşınızda çox böyük bir əmək bazarı üçün könüllü zəhmət çəkmiş, könüllü olaraq çalışmış və əməyinin bəhrəsini görmək istəyən yüzlərlə gənc varkən, bu gənclərin real uğur hekayəsi niyə sizin müəssisə ilə bağlı olmasın?

Könüllülük fəaliyyəti yalnız insanın sosial inkişafına yönəlmiş bir yardımlaşma deyil, bu fəaliyyət

növü, eyni zamanda gənclərin və könüllülərin işgüzar inkişafına edilmiş investisiyadır və cəmiyyətin sağlam şəkildə inkişafı üçün əvəzsiz rola malikdir.

Könüllülük fəaliyyəti ictimai münasibətlərin və ictimai nəzarətin, komandada işləmənin inkişafına, əlaqələrin və ikitərəfli dialoqların artmasına, ictimai fərqlilik yaradılmasına və sosial sahibkarlığın genişlənməsinə böyük töhfələr verməklə yanaşı, işgüzar inkişaf, karyera pillələrinin də ən önəmli hissəsi sayılır.

Bu prosesin aparıcı qüvvəsi olmağa qadir müəssisələr könüllülük kimi bir işi könüllü seçmiş enerjili, həvəsli gənclərlə işbirliyi qurub, həm özünə, həm gəncə, həm də cəmiyyətə kömək edə bilər. Cəmiyyətin bütün təbəqələrini bu misilsiz təşəbbüsə qoşulmağa çağırıram.



# MÜASİR KÖNÜLLÜLÜK HƏRƏKATINDA MİLLİ KÖNÜLLÜ TƏSİSATLARI

Bir zamanlar xarici təcrübədə mühüm yer tutan trendlər gənc və müstəqil dövlətimizdə də könüllülük hərəkatının inkişafı ilə yeni bir mərhələyə qədəm qoyur. Artıq xarici ölkələrin deyil, ölkəmizin də yerli nümunələrinə əsasən qeyd edə bilərik ki, universitetlər, işə götürən qurumların böyük hissəsi gənclərin könüllü fəaliyyəti ilə məşğul olmasına əhəmiyyət verir.

Azərbaycandakı özəl şirkətlər arasında da könüllülərlə işləmək təcrübəsi geniş yayılmaqdadır. Artıq işəgötürənlər gənclərin CV-lərində könüllülük fəaliyyətinin olub-olmamasına, onların bu fəaliyyətdə olmalarını təsdiq edən mötəbər sertifikatlara mühüm önəm verirlər.

Ölkəmizdə “Azercell Telecom”, “Bakcell”, “Veysəloğlu”, “Gilan Holding”, “Azersun”, “Paşa Holding”, “Paşa Bank”, “Paşa Sığorta”, “166 Global Logistics” MMC, “Expressbank” ASC, “Marsol” MMC ilə yanaşı,

digər şirkətlər də könüllülərlə bağlı çoxsaylı layihələrə imza atıb. Müxtəlif dövlət orqanlarında könüllü olmuş gənclər bu şirkətlərdə təcrübəçi kimi fəaliyyətini davam etdirib və yaxud da bu şirkətlərin elan etdikləri təqaüd proqramlarından bəhrələniblər.

Bu şirkətlər mövcud könüllülük fəaliyyəti çərçivəsində bir çox könüllülük layihələrini dəstəkləyiblər. Şirkətlər öz kadr potensialının formalaşmasında müxtəlif könüllülük təsisatlarının insan resurslarından səmərəli istifadə ediblər. Eyni zamanda şirkətlər gənc könüllülərin işgüzar inkişafına dəstək vermək məqsədilə könüllü gənclərə müxtəlif təqaüdlər təsis edib, onları stajçı kimi öz fəaliyyətlərinə cəlb etməklə staj müqabilində müəyyən bir əməkhaqqı ilə təmin ediblər. Nəhayət, bu şirkətlərdə işə başlayan könüllülərimizi misal göstərə bilərik.

Bu gün statistikanın təhlili göstərir ki, məşğulluq sahəsində ən çox uğur qazanan gənclər bir zamanlar könüllü olmuş gənclərdir. İşə qəbulla bağlı proseslərdə minlərlə tələbə və gənc iştirak edərək, qazandıqları geniş təcrübənin bəhrəsi ilə mükafatlandırılaraq arzusunda olduqları və iddia etdikləri işlə təmin olunublar.

Könüllülük fəaliyyətinin müasir insan resurslarının formalaşmasında oynadığı mühüm rolu nəzə-

rə alan dövlətimiz, demək olar ki, mərkəzi və yerli icra hakimiyyəti orqanları, bütün şəhər və rayon icra hakimiyyəti orqanları gündəlik işlərində könüllülərin fəaliyyətinə mühüm yer verir.

Biz artıq bu orqanlar tərəfindən sosial şəbəkələrdə tez-tez könüllülərin qəbulu ilə bağlı elanlara rast gələ bilərik. Amma səmimi olaraq qeyd edim ki, mənim gənclik illərim üçün bu, bir yuxu hesab edilərdi. Kiməsə bu barədə desən, nəinki inanmazdı, hətta səni xəyalpərəstliyinə görə qınaq obyektinə də çevirərdi. Görünən reallıq odur ki, bu, bir həqiqətdir.

Artıq ölkəmizdə könüllülərin müəyyən bir zaman aralığında, müxtəlif məkanlarda ixtisaslaşması prosesi gedir. Təhsil almaqla bərabər, tələbə olan gənclər elə ilk kurslardan könüllü olmaqla, öz potensiallarından səmərəli istifadə edirlər və müxtəlif istiqamətlərdə könüllü olmaqla bu sahələr üzrə bacarıqlarını da artırırlar. Təbii ki, həmin tələbə-gənclər fəaliyyətləri dövründə bu bacarıqları təsdiq edən sertifikatlara malik olurlar. Bu sertifikatlar gələcəkdə gənclərin işə qəbulu, xaricdə təhsil, stajçı olmaq, bir sözlə, iddia etdikləri istiqamətlər üçün dəstək rolunu oynayan mühüm sənədlərdir. Bu sertifikatlar istər milli, istərsə də beynəlxalq təqaüd proqramlarının iştirakçısı olmaq

iddiasında olan gənclər üçün nəinki CV-də qeyd edilən bir üstünlük olur, hətta CV-də qeyd edilən bu fəaliyyəti təsdiq edən, möhürlü və imzalı xüsusi bir statusa malik sənəd olur.

Bu gün ölkəmizdə könüllü hərəkatının ixtisaslaşması və inkişafı mərhələsi gedir. Könüllü hərəkatının genişləndiyi sektorlardan biri də ictimai sektordur.

İctimai birliklərin ilk illərində könüllülərin bu cür təşkilatlarda aktiv fəaliyyətinin şahidi olurduqsa, artıq müasir dövrümüzdə ixtisaslaşmış könüllü təsisatlarının yaranmasının şahidi oluruq.

Dövlət orqanlarının məntiqə uyğun dəstəyi ilə formalaşan ixtisaslaşmış könüllülük təsisatları da öz təşkilati hüquqi formasına görə ictimai birlik hesab edilir və müvafiq prosedurları keçərək dövlət qeydiyyatına alınaraq hüquqi şəxsə, eləcə də ayrıca möhürə, bank hesablarına və özünü idarə edən bir quruma çevrilir.

Bizim ölkədə 25-30 yaşı olan, hətta sovetlər birliyinin yaranması ilə həmyaşıd, ənənəvi, böyük təcrübəyə malik ixtisaslaşmış ictimai birliklər var. Bu gün ixtisaslaşan və inkişaf edən könüllü təşkilatlarının fəaliyyətini ənənəvi və klassik Qeyri-Hökumət Təşkilatı (QHT) sektorunun fəaliyyəti ilə qarışdırmaq olmaz.

Könüllülük fəaliyyətinin ixtisaslaşması və müasir tələblərə cavab verməsi, zamanla ayaqlaşması gənclərin karyera inkişafının tələbi kimi meydana çıxan zəruri amilə çevrilir.

Könüllülük təsisatları ixtisaslaşmış ənənəvi ictimai birliklərdən forma və məzmununa görə tam fərqlənir desəm yanılmaram. Belə ki, bir neçə ay ixtisaslaşmış könüllülük təsisatlarında fəaliyyət göstərən gənclər fəaliyyətlərini mütəmadi olaraq digər ixtisaslaşmış könüllülük təsisatlarında davam etdirirlər. Onlar müxtəlif sahələr üzrə öz bilik və bacarıqlarını təkmilləşdirir, kollektivlərdə işləmək, liderlik, fərdi inkişaf üzrə bacarıqlarını artırırlar.

Belə demək olar ki, könüllülər gəlir, formalaşır, inkişaf edir və fərdi inkişaflarını sağlam qurmaq üçün gedirlər. Könüllülər könüllü təsisatlarında fəaliyyətlərini başa vurduqdan sonra təhsil, karyera, iş quruculuğu, bir sözlə, fərqli istiqamətlərdə inkişaf etmək üçün gedirlər. Onlar üçün könüllülük fəaliyyəti bir dəyər olsa da, ənənəvi ictimai birliklərdən və qeyri-hökumət təşkilatlarından fərqli olaraq fəaliyyətlərini müasir standartlar çərçivəsində qururlar. Belə ki, bir zamanlar könüllü kimi fəaliyyətə başlayan gənclər, daha sonra peşə fəaliyyətində bu könüllülük təcrübəsinin bəhrəsini görürlər. Onlar ömür boyu könüllü qalmaq, ictimai fəaliyyətlə məşğul olm-

aq kimi bir mənəvi yük daşımır. Bu, çox məntiqə uyğun bir keçid prosesidir. Müasir könüllülük hərəkatında könüllülüyün forma və məzmunu gəncin yaşadığı, işlədiyi, oxuduğu, bir sözlə, maraq dairəsinə aid olan alqoritm çərçivəsində sürətlə dəyişir və inkişaf edir. Gənc, könüllülük fəaliyyətinə fərdi və karyera inkişafının təkanverici bir tərkib hissəsi kimi baxır. Bu cür baxmaq, əslində, çox məntiqli və gözəldir.

Qanunvericiliyin təkmilləşdirilməsi könüllülük fəaliyyətinin inkişafına mühüm təkan verir. QHT sektoru və gənclər hərəkatından vüsət alan könüllülük fəaliyyəti bu gün qanunvericilik və normativ bazanın təkmilləşməsi ilə özünün yeni mərhələsinə qədəm qoyur.

Bir zamanlar QHT sektorunda könüllü kimi fəaliyyət göstərən gənclər müxtəlif təqaüd proqramları vasitəsilə xaricdə təhsillərini davam etdirirdilər. Təqaüdlə təhsil almış bu QHT nümayəndələri daha sonralar, ictimai birlik statusunda məzun Assosiasiyaları formasında təşkilatlar yaratmaqla, xaricdə təhsil almaq istəyən gənc nəslə könüllü olaraq ictimai əsaslarla dəstək verirlər.

Tarixən Gənclər və İdman Nazirliyinin dəstəyi ilə yaranan gənclər təşkilatlarının sayı onlarladır. Bu təşkilatlar ölkəmizin könüllülük hərəkatına davamlı olaraq mühüm töhfələr veriblər.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaranmasından sonra Gənclər və İdman Nazirliyinin dəstəyi ilə yaradılan gənclər təşkilatları da daxil olmaqla, klassik və ənənəvi QHT-lərin fəaliyyətində könüllülük prinsiplərinin dəstəklənməsi və davam etdirilməsi üçün Şura kifayət qədər layihələri maliyyələşdirir.

Məhz bunun nəticəsidir ki, bu gün də könüllülük fəaliyyəti ictimai rəydə yenə də bir trend olaraq öz aktuallığını QHT-lər arasında saxlayır. Şura da Gənclər Fondu kimi, gənclərin, könüllülərin müxtəlif beynəlxalq konfranslarda və təlimlərdə iştirak xərclərini öz üzərinə götürməklə, bir çox şəxsi könüllü təşəbbüslərinə də fərdi qaydada dəstək verib.

Konstitusiyamızın 12-ci maddəsinin I hissəsinə əsasən insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Bu ali məqsədin həyata keçirilməsində qeyri-hökumət təşkilatlarının rolu xüsusi əhəmiyyətə malikdir. Bu da onunla bağlıdır ki, QHT-lər dövlət idarəçiliyinin həyata keçirilməsində, o cümlədən cəmiyyət maraqlarının qorunmasında dövlət qurumlarının əsas tərəfdaşları hesab olunmaqla yanaşı, ictimai nəzarət funksiyalarını icra edirlər.

Fiziki və hüquqi şəxslərin təşəbbüsü əsasında yaradılan və həyata keçirilən QHT fəaliyyəti, əsasən, Azərbaycan Respublikasının Konstitusiyası və 13 iyun 2000-ci il tarixində qəbul olunmuş "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Bu qanuna əsasən könüllülər də QHT fəaliyyətinin iştirakçıları hesab olunur.

2009-cu ildə QHT işində yaxından iştirak edən könüllü fəaliyyətinin qanunvericilik əsaslarının inkişaf etdirilməsi ilə bağlı "Könüllü fəaliyyət haqqında" Qanun qəbul edilmişdir.

Hüquqi və fiziki şəxslərin əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti sahəsində yaranan münasibətlərin tənzimlənməsini nəzərdə tutan "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanunu öz iradəsi və sərbəst seçimi əsasında əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti həyata keçirən könüllü ilə bu fəaliyyəti təşkil edən və həyata keçirən təşkilatçı arasında könüllü fəaliyyətin qanunvericilik əsaslarını təmin edir.

Şura qanunvericiliklə müəyyən olunmuş səlahiyyətləri çərçivəsində ölkə ərazisində könüllü fəaliyyətin təşkilinə, həyata keçirilməsinə və inkişafına hər zaman dəstək göstərir. Bununla bağlı yalnız son üç il ərzində şura könüllü fəaliyyətin təbliği

və inkişafı istiqamətində ixtisaslaşmış QHT-lərin və eyni zamanda könüllü fəaliyyətinin təbliğini nəzərdə tutan digər QHT-lərin ümumilikdə 19 layihəsinin icrasına 142 min manat maliyyə vəsaiti ayırmışdır. Bu layihələr çərçivəsində ölkədə könüllü fəaliyyətinin təbliği və inkişafı ilə bağlı müxtəlif məzmunlu çoxsaylı tədbirlər və maarifləndirmə işləri həyata keçirilmişdir.

O da qeyd olunmalıdır ki, son illərdə müxtəlif sahələr üzrə könüllü fəaliyyətin təbliği və inkişafı ilə bağlı ixtisaslaşmış QHT-lərin yaranması və fəaliyyəti həmin sahələrdə gənclərin peşə potensialının formalaşması və inkişafı, həmçinin onların gələcək karyera quruculuğu istiqamətində düzgün qərarlar qəbul etməsi üçün əhəmiyyətlidir.

QHT-lərin fəaliyyətində könüllülərin iştirakının genişləndirilməsi, həmçinin könüllülüyün təbliğini və inkişafını nəzərdə tutan müxtəlif məzmunlu layihə və proqramlar gələcəkdə də şuranın prioritet fəaliyyət istiqamətlərindən olacaqdır.

Gənclər təşkilatları ilə bağlı könüllülük fəaliyyətinin təbliğində Gənclər Fondunun işi də diqqətə layiqdir. Gənclər Fondu 4 il ərzində 7 qrant müsabiqəsi keçirib, 2333 layihəyə dəstək verib. Dəstəklənən layihələrdən üçdə ikisi fərdi, üçdə biri isə gənclər təşkilatlarının layihələri olub. Fərdi layihələr, əsasən,

gənclərin inkişafına, maarifləndirilməsinə və könüllülük fəaliyyətinin inkişafına yönəldilib. Layihələrin dəstəklənməsi ilə yanaşı, icrasına da bir çox könüllülər cəlb edilib.

Ölkəmizdə könüllülük hərəkatı geniş vüsət aldıqdan sonra ictimai təsisatların yeni bir forması kimi inkişaf etməyə başladı.

Bu təşkilatların sayı bu gün az olsa da, sürətlə inkişaf edir, təmsil etdikləri sahə üzrə bir çox layihələri uğurla icra edirlər. Önəmli məsələlərdən biri də odur ki, bu təşkilatlar müstəqil olsalar da, oxşar adı daşıyan, mərkəzi icra hakimiyyəti orqanlarının birbaşa dəstəyi ilə fəaliyyət göstərirlər. Bir çox hallarda bu təsisatlar, aidiyyatı icra hakimiyyəti strukturlarının böyük bir ictimai yükünü də üzərinə götürür.

Ali məktəb tələbələrinə könüllülük fəaliyyətinin təbliğ olunması, könüllü tələbələr arasında ruh yüksəkliyinin artırılması, ali təhsildə tədrisin könüllülük fəaliyyətinə cəlb edilmə yolu ilə keyfiyyətinin yüksəldilməsi, könüllülərin iştirakı ilə ali təhsil sistemində yeni və fərqli bir mühitin yaradılması, savadlı, bacarıqlı və hazırlıqlı tələbə yetişdirilməsi və müxtəlif dövlət orqanlarının könüllülük təsisatlarına inteqrasiya edilməsi, əmək bazarının artan tələblərinə uyğun olaraq könüllülərin müvafiq kadr hazırlığının

təmin edilməsi sahəsində könüllü təsisatları mühüm rol oynayır. Əziz dostum gəl baxaq görək bu təsisatlar hansılardır? Sən də bu təsisatlara qoşulmaqla öz karyera inkişafına hansı böyük təkanları vermiş olarsan?

Tələbə və gənclərin karyera inkişafında könüllü olaraq qoşula biləcəkləri ən məşhur könüllü təşkilatları: Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyinin Könüllüləri, “Bir könüllü”, “Könüllü dost”, “ASAN Könüllüləri”, “Aqrar İnkişaf Könüllüləri”, “KOB könüllüsü”, “Bakı Şəhər Halqası” Əməliyyat Şirkəti - Könüllülük Proqramı, “Miqrasiya könüllüsü”, “İdman könüllüləri”, “Könüllü gömrükçülər”i nümunə göstərmək olar ki, onlar adlarına uyğun qurumların dəstəyi ilə həmin orqanların inzibati binalarında və tabeliklərində olan strukturlarda öz fəaliyyətlərini qururlar. Eyni zamanda çox sevindirici haldır ki, ölkəmizdə könüllülük təsisatlarının ixtisaslaşması prosesində demək olar ki, bütün mərkəzi icra hakimiyyəti orqanları, dövlət strukturları mühüm rol oynayır. Buna misal kimi, Azərbaycan Respublikasının Baş Prokurorluğunu, Ədliyyə, İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər, Səhiyyə nazirliklərini, Ali Məhkəməni, Diasporla İş üzrə Dövlət Komitəsini, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsini, Azərbaycan Respublikasının İqti-

sadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və eyni zamanda Dövlət Vergi Xidmətini misal göstərmək olar. Qeyd edilən qurumlar, nəinki könüllüləri fəaliyyətə cəlb edir, onlar könüllü fəaliyyətinin tənzimlənməsi ilə əlaqədar daxili prosedur qaydalarını qəbul edərək bu qaydaları rəsmi təsdiq ediblər. Bu isə yaxşı mənada bu qurumların üzərinə böyük bir məsuliyyət qoyur. Adları çəkilən qurumların internet resurslarına nəzər saldıqda, məlum olur ki, bu qurumlar mütəmadi olaraq, öz internet resursları üzərindən könüllülər barədə məlumatları yeniləyir, elanlar verirlər. Adları çəkilən qurumlarda könüllülük hərəkatı digər proqramlara münasibətdə daha gənc olsa da, əminəm ki, bir neçə ilə bu qurumların məzun könüllülərinin karyera və işgüzar inkişafının real şahidi olacağıq.

Dostum, sən də bu təşkilatlar barədə məlumatlarla tanış olmaq istəyirsənsə, fürsətdən səmərəli istifadə edib, həmin təşkilatların sosial şəbəkələrindəki səhifələrini bəyənməyi unutma, internet səhifələri üzərindən elanları izlə və müraciət et. Müasir dünyadır, “Google”da könüllü olmaq istədiyin sahə ilə bağlı kiçik bir cümlə yazmaq kifayət edir ki, bu sahənin bütün tarixçəsini görə biləsən.

Gəl indi sənə, son bir neçə ildə ölkəmizdə geniş vüsət alan könüllülük hərəkatı barədə məlumat verim.

# “ASAN Könüllüləri” şəbəkəsi

Dayanıqlı İnkişaf üçün 2030 Gündəliyi və bütün Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması əhəmiyyətli rola malikdir. Bu istiqamətdə 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan “ASAN xidmət” mərkəzləri yaradılıb. Bu xidmət mərkəzi yarandıqdan 3 il sonra dünyada ən yaxşı dövlət xidmətlərinin göstərilməsi mexanizmini həyata keçirdiyi üçün 2015-ci il Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri mükafatına layiq görülüb. Mükafat “ASAN”ın vətəndaşyönümlü, müasir, şəffaf, innovativ və əlçatan dövlət xidmətlərinin göstərilməsi mexanizmi üzrə beynəlxalq nümunəvi modeli kimi tanınması əsasında verilib. Bu dövlət qurumunda sosial məsuliyyət fəaliyyətləri çərçivəsində “ASAN Könüllüləri”nin fəaliyyətə başlaması Azərbaycanda könüllülər hərəkatının əsasını qoymuşdur. Təsadüfi deyil ki, ölkə başçısı 2012-ci il dekabrın 29-da pilot layihə

olaraq Bakıda 1 saylı "ASAN xidmət" mərkəzi fəaliyyətə başladığı zaman da könüllülərlə görüşmüş, xeyir-duasını vermiş və gəncləri bu fəaliyyətə səsləmişdir. Həmçinin Sabirabad rayonundakı Heydər Əliyev Mərkəzində 2014-cü il 16 dekabr tarixində "ASAN Könüllüləri"nin I Ümumrespublika Forumunun keçirilməsi və bu Forumda Prezident İlham Əliyevin giriş nitqi söyləməsi könüllülük fəaliyyətinə verilmiş xüsusi önəm kimi dəyərləndirilir. Ölkə başçısının tapşırığı ilə fəaliyyətə başlayan ilk 15 nəfərdən ibarət "ASAN Könüllüləri" 4 il sonra 10 mindən çox gənci özündə birləşdirəcək və könüllü hərəkatına çevriləcəkdi. *"Əlbəttə ki, biz "ASAN xidmət"i könüllülər hərəkatından ayıra bilmərik. Bu da bir yenilikdir. "ASAN" yaranana qədər Azərbaycanda könüllülər hərəkatı olmamışdır. Biz könüllülər haqqında eşitmişdik. Ancaq könüllülər hərəkatı nədir, onu bilmirdik. Bu gün artıq bu hərəkat Azərbaycanda yaşayır"*,- bu fikirləri Prezident İlham Əliyev 2016-cı il 28 dekabr tarixində 1 saylı "ASAN Kommunal" mərkəzinin açılışında iştirak edərkən bildirib.

"ASAN xidmət"in ölkədə könüllülük fəaliyyətini təşviq etdiyini nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramında gənclər arasında könüllülük fəaliyyə-

tinin daha geniş təşviq edilməsi üçün Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi həmicraçı kimi müəyyən olunmuşdur.

Qabaqcıl həllərin və innovativ yanaşmanın mövcud olduğu "ASAN xidmət"də könüllülük fəaliyyətinin necə tənzimləndiyinə nəzər yetirək. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ölkəmizdə dövlət qurumları arasında ilk dəfə könüllü fəaliyyəti ilə bağlı xüsusi struktur bölmə - Könüllülərlə iş sektoru yaratmışdır. Bu struktur bölmə "ASAN xidmət"in ayrılmaz komponentinə çevrilən "ASAN Könüllüləri" şəbəkəsinin fəaliyyətinin genişlənməsinə, könüllülük fəaliyyətinin institusional səviyyədə nəzərdən keçirilməsinə və bu fəaliyyətə sistemli yanaşmanın genişlənməsinə şərait yaratdı. Könüllülərlə iş sektoru könüllülük hərəkatının stimullaşdırılması və yerlərdə intensivləşdirilməsi kimi fəaliyyətləri yerinə yetirir.

Yuxarıda qeyd olunanları nəzərə alsaq görərik ki, Dövlət Agentliyi ölkəmizdə könüllülük fəaliyyətinin genişlənməsi və bu mədəniyyətin aşılanması üçün öz struktur bölməsi - Könüllülərlə iş sektoru vasitəsilə mütəmadi olaraq müxtəlif layihələr, fəaliyyətlər, tədbirlər icra edir və "ASAN Könüllüləri" şəbəkəsinin imkanlarından digər qurumların və təşkilatların faydalanmasına şərait yaradır.

"ASAN Könüllüləri" şəbəkəsi dayanıqlı inkişafa nail olmaq və sosial məsuliyyətlilik hissini aşılamaq üçün sosial, hüquq, səhiyyə, ekoloji, psixoloji, iqtisadi, mədəni və digər sahələrdə beynəlxalq və yerli əhəmiyyətli layihələr, o cümlədən təlimlər, yarışlar, seminarlar, sərgilər, fləşmoblar və digər tədbirləri icra edir. "ASAN Könüllüləri" yalnız ölkə səviyyəsində deyil, beynəlxalq səviyyədə olan qurumlarla da əməkdaşlıq edir və bir çox tədbirlərdə təşkilatçı və icraçı tərəfdaş qismində iştirak edir. Bunlardan başqa, "ASAN Könüllüləri" ölkəmizdə keçirilən beynəlxalq idman oyunlarının və tədbirlərin təşkil olunmasında fəal iştirak edən könüllülərin baza rolunu oynamaqdadır.

"ASAN Könüllüləri" şəbəkəsi 2 əsas komponenti özündə birləşdirir;

- ASAN Könüllülük Məktəbi
- ASAN Könüllüləri Təşkilatı

ASAN Könüllülük Məktəbi "ASAN xidmət" mərkəzlərinə könüllülərin cəlb edilməsi məqsədi daşıyır.  Master 1 və Master 2 pillələrindən ibarətdir.

"ASAN Könüllüləri Gənclər Təşkilatı" İctimai Birliyi QHT kimi 2013-cü ildə fəaliyyətə başlamış və bu günədək 20.000-dən çox gənci öz ətrafında birləşdirmişdir. Hər ay üzvlərinin sayı 500 nəfər olmaqla artır ki, bu da təşkilatın gənclər arasında mövcud nüfuzundan xəbər verir. Həmçinin bildirməliyik ki, təşkilat

təkcə Bakıda deyil, regionlarda da öz fəaliyyətini reallaşdırır. Təşkilatın missiyası gənclərin inkişafına nail olmaqla, onların bilik və bacarıqlarının artırılması və sosial məsuliyyətli cəmiyyətin formalaşdırılmasıdır.

"ASAN Kadr" karyera mərkəzi "ASAN Könüllüləri"nin peşəkar kadrlar kimi formalaşması məqsədi ilə yaradılıb. Mərkəz mövcud əmək bazarının tələblərini nəzərə alaraq, müxtəlif peşələr üzrə kadrları formalaşdırır. www.asankadr.az - "ASAN Kadr" karyera mərkəzi çərçivəsində fəaliyyət göstərən karyera və inkişaf portalıdır. Hər bir ASAN könüllüsü www.asankadr.az portalında CV-sini yerləşdirir, eyni zamanda, işəgötürənlər mütəmadi olaraq vakansiyalar elan edə bilirlər. Beləliklə, portal gənclər, dövlət və özəl qurumlar arasında texnoloji körpü rolu oynayır.

"Yaşıl ASAN" təşəbbüsünün əsas məqsədi kağız tullantılarının toplanmasına, o cümlədən ətraf mühitin mühafizəsinə həsr olunmuş müxtəlif aksiyalar, seminarlar, layihələr və təlimlər təşkil olunması yolu ilə gənclərin ekoloji maarifləndirilməsi, sağlam həyat tərzinin və ətraf mühit mühafizəsinin təşviq edilməsidir.

"ASAN Məktub" layihəsi uşaqların inkişafı proqramının məqsədi sosial cəhətdən həssas qruplara aid uşaqlara sevinc bəxş etmək və ümumilikdə so-

sial məsuliyyət, eləcə də cəmiyyətdə qayğı hissini daha da artırmaq, heç bir maddi qazanc güdmədən 14 yaşadək sosial qayğıya ehtiyacı olan uşaqların arzu və istəklərini həyata keçirməkdir.

"Yaşlı könüllülər" layihəsinin məqsədi "ASAN xidmət" mərkəzləri vasitəsilə yaşlıları təcrübə mübadiləsinə cəlb etmək, asudə vaxtlarının səmərəli təşkili, cəmiyyətdə aktiv rol oynamağa dəvət etmək, onlara sosial inteqrasiya və yeni insanlarla tanış olmaq imkanı yaratmaqdır.

"Əcnəbi könüllülər" layihəsinin məqsədi əcnəbi gənclərin ölkəmizdə təcrübə keçməsi ilə ekoloji problemlərin icrasına qarşı innovativ həll yollarının öyrənilməsi və ekoloji layihələrin icra edilməsi ilə iqlim dəyişikliyinə qarşı mübarizəyə diqqətin artırılmasıdır.

"Mədəniyyət carçısı" proqramının məqsədi gənclərimizin teatr-kino, təsviri və dekorativ sənət, musiqi və rəqs sahəsində aktiv iştirakına nail olmaqla, onların potensialını aşkara çıxarmaq və dəstəkləməkdir.

"Rəqəmsal Hökumət" təşviqat proqramının məqsədi vətəndaşları elektron xidmətlər haqqında məlumatlandırmaq, ən çox hansı elektron xidmətlərdən istifadə etdiklərini, eləcə də elektron xidmətlər haqqında haradan məlumat əldə etdiklərini

müəyyən etmək, bu xidmətlərdən istifadə ilə bağlı onlara dəstək olmaqdır.

“Əsgərə məktub” layihəsinin məqsədi Azərbaycan əsgərlərinə göstərdiyi möhkəm iradəyə görə minnətdarlığımızı, var gücümüzlə dəstəyə və döyüşə hazır olduğumuzu bildirmək üçün “ASAN xidmət" mərkəzlərində ayrılmış xüsusi məntəqələr vasitəsi ilə məktubların yazılması onlarda ruh yüksəkliyini daha da artırılmasıdır.

“Məktəblinin dostu” layihəsinin məqsədi təhsilin idarə edilməsinin təkmilləşdirilməsi, valideynlərin ümumi təhsil müəssisələrinin həyatında daha yaxından iştirakını təmin etməklə, müəllim və şagirdlər üçün təhlükəsiz mühit yaratmaq, ilk tibbi və psixoloji yardım göstərmək, mütəmadi olaraq şagird, valideyn, müəllim, təlim-tərbiyə müəssisələrinin kollektivi və rəhbərliyi ilə maarifləndirmə və diaqnostik işlərin aparılmasıdır.

“Könüllülər Parlamenti - Azərbaycan” layihəsinin əsas məqsədi gəncliyin vətəndaş mövqeyini konstruktiv şəkildə ifadə etməsini stimullaşdırmaq üçün Azərbaycan Respublikası Milli Məclisinin simulyasiya formatında həyata keçirilməsidir.

“Könüllülər yurdu - Azərbaycan” layihəsinin məqsədi respublika miqyasında könüllülük fəlsəfəsinin təbliğ olunması və könüllülük hərəkatının

stimullaşdırılması üçün müxtəlif təlimlərin və fəaliyyətlərin həyata keçirilməsidir.

"Nəqliyyat bələdçisi" layihəsinin əsas məqsədi qayda-qanunlara tam şəkildə riayət edən sürücülər və ictimai nəqliyyatda vətəndaş məsuliyyətini unut-mayan sərnişinlərin köməyi ilə daha rahat, təhlükə-siz sərnişindaşımaya şərait yaratmaq, ictimai nəq-liyyatda mövcud problemlərə diqqət çəkməkdir.

"Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Döv-lət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 5.7.5-ci yarımbəndinə əsasən gənclər ara-sında könüllülük fəaliyyətinin daha geniş təşviq edilməsi, həmçinin Davamlı İnkişaf Məqsədlərinə nail olmaq üzrə birgə tədbirlərin gücləndirilməsi və könüllülük fəaliyyətinin təbliğ olunması sahəsində "Beynəlxalq Könüllülər günü"nə həsr olunmuş "Könüllülər dayanıqlı cəmiyyət formalaş-dırırlar" adlı forumda müsabiqə də təşkil olunub.

"TÜRKSOY-un I Beynəlxalq simulyasiyası" layihə-sinin məqsədi mədəni inkişaf sahəsindəki xalqların problemləri və onların həlli yollarının müzakirə olunması və müxtəlif türk dövlətlərindən olan gənc-lərin vahid ideologiya ətrafında birləşmələrini tə-min etmək olub.

"Gənclər arasında Milli-Dini Dözümlülük, Sülhse-vərlik və Humanizm Dəyərlərinin Təbliğ Edilməsi"

Proqramının əsas məqsədi Azərbaycanın dövlət siyasəti olan, dini dözümlülüyün, milli-mənəvi dəyərlərin, tolerantlıq nümunələrinin düzgün şəkildə gənclərə təbliğ edilməsi, eləcə də, ölkəmizdə mövcud olan dinlərarası nümunəvi əlaqələrin, tolerantlığın, əsrlərdən bəri formalaşan köklü bir ənənənin, qarşılıqlı hörmət və əməkdaşlığın onlara çatdırılması olub.

“Həmrəylik düşərgəsi” layihəsi aktiv həyat tərzi sürməyin, təbiətlə dost qalmağın, komandada işləməyin vacibliyinin gənclərə çatdırılması və UNESKO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil olan sənətkarlıq sahəsinin yaşadığı qədim Lahıcın abadlaşdırılması işinə gəncləri və sosial məsuliyyətini anlayan digər təşkilatları (dövlət, QHT, kommersiya müəssisələri) cəlb etməklə gənclərə sosial məsuliyyət hissi aşılamağı qarşısına məqsəd qoymuşdur.

“Gənc Beyin” layihəsi gənclərdə özünəinam hissi, liderlik xüsusiyyətlərinin formalaşdırılması, nitq qabiliyyətlərinin inkişafı və sağlam düşüncəli gənc nəslin yetişdirilməsinə töhfə vermək kimi dəyərlər aşılayır.

“ASAN Akademiya 2019” layihəsinin məqsədi müxtəlif ixtisaslar üzrə təhsil alan, fərdi inkişafa dəyər kimi baxan gəncləri bir araya toplamaq, onları təcrübi biliklərə yiyələndirmək, həmçinin onların

karyeralarında irəliləmələri üçün təkan verməklə intellektual potensiallarını düzgün dəyərləndirməkdir.

"ASAN peşə" layihəsi vətəndaşların rahatlığının təmin olunması, Təhsil Nazirliyi – "ASAN xidmət" əməkdaşlığının səmərəliliyinin artırılması və ilk peşə-ixtisas təhsili müəssisələrinə şagirdlərin qəbulu prosesində subyektiv amillərin aradan qaldırılması məqsədlərinə xidmət edir.

"Afrikaya bir sovqat, bir təbəssüm də sən oyat" adlı beynəlxalq yardım kampaniyası çərçivəsində Uqandada su quyusu qazılıb. Su quyusu Uqandanın Mpici vilayətinin Luunqa ərazisində yerləşən Nsanja orta məktəbinin həyətində qazılıb. Ümumilikdə 510 şagirdi təmiz su ilə təmin edən quyu həmin ərazidə qazılmış ilk su quyusudur.

"Hərbiyyə" hərbi-vətənpərvərlik düşərgəsinin məqsədi Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti, eləcə də Cümhuriyyət tərəfindən ordu quruculuğu istiqamətində ilk qərarlardan olan Azərbaycan Silahlı Qüvvələrinin yaradılması ilə bağlı iştirakçıları maarifləndirməkdir.

"CAVANSAN" verilişi proqramının məqsədi Azərbaycanda gənclərin inkişafına göstərilən dəstəyi "ASAN Radio" vasitəsilə geniş kütləyə çatdırmaq və həyata keçirilən dövlət gənclər siyasətini düzgün təbliğ etməkdir.

"Uşaq hüquqlarının təşviqi" layihəsinin məqsədi ölkəmizdə uşaq hüquqlarının qorunması və təbliği, o cümlədən bu istiqamətdə peşəkar təlimçi qruplarının formalaşdırılması, paytaxtda və regionlarda əhalinin maarifləndirilməsidir.

"Uğurlu qadın, uğurlu gələcək" layihəsinin məqsədi turizm potensialı ilə tanınan bölgələrdə yaşayan qadınları turizm təlimlərinə cəlb etmək, onları turizm biznesinə həvəsləndirmək, turizm sahəsində dövlət siyasətinə və turizm sahəsində biznes təşəbbüslərinə dəstək olmaqdır.

AIM-W layihəsi qadınların işgüzar inkişaf platformasının (ASAN Improvement Model for Women) məqsədi Azərbaycanda qadınların məşğulluq potensialının gücləndirilməsinə, o cümlədən regionlarda yaşayan qadın və qızların məşğulluğunun təmin edilməsinə və onların sahibkarlıq bacarıqlarının yüksəldilməsinə dəstək göstərməkdir. Azərbaycanda turizm sahəsində mövcud olan geniş imkanları nəzərə alaraq, AIM-W 2019-2020-ci illər üzrə fəaliyyətini "Turizmdə qadınlar" mövzusu üzrə icrası davam edəcək. Bu platforma "ASAN Könüllüləri" və Coca-Cola Fondunun birgə əməkdaşlığı ilə icra olunur.

"GəncLİK" (Gənc Liderlərin İnkişaf Konsepsiyası) proqramının məqsədi potensialı olan gənc ictimai liderlərin üzə çıxarılması, inkişafı və şəbəkələşmə-

sinin təmin olunması, habelə onların fəaliyyət istiqamətləri üzrə irəli çəkilməsindən ibarətdir.

Xüsusi vurğulamaq lazımdır ki, "ASAN Könüllüləri"nin layihələri, "ASAN Kadr" və "ASAN məktub" Birləşmiş Millətlər Təşkilatının "Cənub-Cənub Əməkdaşlığı çərçivəsində Qabaqcıl Mexanizmlər və Həllər" adlı portalına daxil edilmişdir. Bununla "ASAN Könüllüləri" yerli əhəmiyyətli müxtəlif mükafatlar ilə təltif olunmuşdur. "ASAN könüllüləri" Milli İnternet Mükafatı – Milli Net - 2017 və NETTY - 2016 müsabiqələrinin qalibi seçilmişdir.

"AVO MUN" (ASAN Volunteers Organization's Model of United Nations) layihəsi ölkə gənclərinin siyasi, sosial, ekoloji və hüquqi biliklərinin hərtərəfli inkişaf etdirilməsi, sözügedən sahələr üzrə təhsil alan gənclərin rəsmi konfranslara adaptasiyasını təmin etmək, gənclərin qlobal siyasi müzakirələrdə fəallıqlarını dəstəkləmək üçün yeni platformaların yaradılması məqsədilə təşkil edilmişdir.

"I Beynəlxalq Startap Akademiyası - Gəncə 2016" layihəsinin məqsədi Gəncə şəhərində 11 ölkədən olan gənclərin iştirakı ilə Azərbaycanda startapın inkişafına dəstək verməsi, yerli və xarici gənclər arasında fikir mübadiləsinin artırılması, eyni zamanda startapların yaradılmasını stimullaşdırmaq və startap ekosistemini inkişaf etdirmək olmuşdur.

# Aqrar İnkişaf Könüllüləri

Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə təşkilatlanan və fəaliyyətində dövlətçilik, vətənpərvərlik, könüllülük, innovativlik, yaradıcılıq, operativlik və əməkdaşlıq prinsiplərini əsas tutan "Aqrar İnkişaf Könüllüləri" Təşkilatı İctimai Birliyi yaradılmış, təşkilat iyun ayında fəaliyyətə başlamış və 13 noyabr 2018-ci il tarixində Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.

"Aqrar İnkişaf Könüllüləri" hərəkatı aqrar sektorun inkişafına ictimai dəstəyi nümayiş etdirmək, vətəndaşların və fermerlərin aqrar sahədəki problemlərini yerində müəyyən etmək və həlli yollarını axtarmaq, gənc mütəxəssislərin ideyalarını praktiki olaraq reallaşdırmaq və cəmiyyətin diqqətini bu sahəyə yönəltmək məqsədi daşıyır. Hərəkatın əsas missiyası aqrar sahənin inkişafı üçün yüksək potensiallı gəncləri aqrar sahəyə cəlb etmək, bu sahədə fəaliyyət göstərə biləcək ixtisaslaşmış kadrların formalaşmasına təkan vermək, onların mütəxəssis

kimi yetişməsinə dəstək olmaq, innovativ texnologiyaların tətbiqi və mövcud resursların səmərəli istifadəsinin təbliği ilə sahənin dayanıqlı inkişafına töhfə verməkdir.

2019-cu ilin mart ayından indiyədək təşkilatın sıralarına 2000 dən çox könüllü qoşulub. Təşkilat üzvləri nazirliyin aparatında, 40 regionun Dövlət Aqrar İnkişaf mərkəzlərində, Elmi-Tədqiqat institutlarında və Aqrar Xidmətlər Agentliyində fəaliyyət göstərir.

Hər bir könüllü 3 aylıq müddətdə gündəlik 4 saat olmaqla fəaliyyətə cəlb edilir. Könüllülər müxtəlif sahələrdə fəaliyyət göstərən mütəxəssislərdən təcrübə qazanır, dövlət xidmətlərinin həyata keçirilməsində köməklik göstərir, elektron kənd təsərrüfatı sisteminin və innovasiyaların tətbiqi üçün təbliğat aparır və çoxsaylı aqrar sorğular həyata keçirirlər.

“Aqrar İnkişaf Könüllüləri”nin əsas fəaliyyət sahələri və istiqamətləri aşağıdakılardır:

- Bitkiçilik sahəsində təcrübə toplamada iştirak;
- Heyvandarlıq sahəsində təcrübə toplamada iştirak;
- Fermerlərə tövsiyələrin verilməsi;
- Elektron kənd təsərrüfatı sisteminin təbliği;
- İnnovativ texnologiyaların tətbiqi;
- Kənd təsərrüfatı qanunvericiliyi və fermerin hüquqları;

- Dövlət xidmətlərinin göstərilməsinə dəstək;
- Yeni bazar alətlərinin istifadəsində fermerlərə dəstək;
- Torpaqların keyfiyyət meyarlarının ölçülməsi istiqamətində fermerlərə dəstək;
- Nazirliyin aqrar sahə ilə bağlı qərarlarının fermerlərə çatdırılması.

Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun 24 yanvar 2019-cu il tarixində keçirilən açılışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Aqrar İnkişaf Könüllüləri" ilə də görüşüb. Görüşdə aqrar sahədə yaradılmış könüllü hərəkatının gələcəkdə kadr çatışmazlıqlarının aradan qaldırılması və əhali arasında innovativ texnologiyaların təbliği prosesinə dəstək olacağı barədə fikirlər səsləndirilib. Ümumilikdə bu sahəyə könüllülərin cəlb edilməsi uğurlu addım kimi qiymətləndirilib və könüllülər hərəkatının əsas müsbət məqsədləri bir daha vurğulanıb.

Qarşıya qoyulan məqsədlərin əldə edilməsi üçün könüllülər hərəkatı müəyyənləşdirilən fəaliyyət sahələri və istiqamətləri ehtiva edən müxtəlif layihələri ya birbaşa həyata keçirir, ya da bu layihələrin icrası zamanı yaxından iştirak edir.

"Mobil Laboratoriya" layihəsi 2019-cu ilin mart ayında "Aqrar İnkişaf Könüllüləri" Təşkilatının tə-

şəbbüsü, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin maliyyə dəstəyi və Kənd Təsərrüfatı Nazirliyinin tərəfdaşlığı ilə həyata keçirilmişdir. Əsas məqsədi fermerlərə gübrələrdən düzgün istifadə etmək, torpaqlarda məhsuldarlığın artımına nail olmaq üçün laboratoriyalardan istifadənin vacibliyini aşılamaq olan layihə ilkin olaraq Gəncə, Lənkəran və Şəkidə fəaliyyət göstərən könüllülər tərəfindən icra olunub.

"Aqrar İxtisaslaşmış Jurnalistlər" layihəsi 20 fevral 2019-cu ildən həyata keçirilməyə başlanıb. Layihə çərçivəsində 30 nəfər iştirakçıya sosial media marketinqi (SMM), jurnalistika, data analitikası, aqrar kreditlər və aqrar məşğulluq, bitkiçilik, heyvandarlıq və torpaqdan istifadə üzrə müxtəlif təlimlər keçirilib. Layihənin praktik hissəsində isə Azərbaycan Dövlət Aqrar Universitetinə, Şəmkir və Samuxda aqro komplekslərə iştirakçıların infoturu təşkil edilib. Sonda iştirakçılara sertifikatlar təqdim edilib.

"Gənc Aqronomlar Məktəbi" layihəsi çərçivəsində Azərbaycan Dövlət Aqrar Universitetində gənclərin aqronomluq sahəsinə marağının artırılması üçün aqrar sahədə baş verən yeniliklər və aqronomluqla bağlı bir çox fundamental təlimlər keçirilmişdir. Layihədə 40 nəfər gənc iştirak etmiş və sonda sertifikatla təltif olunublar.

“Aqrar İnkişaf Könüllüləri” Təşkilatının təşkilatçılığı ilə “AQRODATA” layihəsi çərçivəsində 2-5 may 2019-cu il tarixində, gənclərin data analitikası bacarıqlarını artırmaq, sırf bir istiqamət üzrə deyil, digər sahələrə də marağını artırmaq, kənd təsərrüfatında keçirilən layihələrin mütəmadi təşkilini təşviq etmək, onların əldə edəcəkləri məlumatları təcrübədə gerçəkləşdirmək, aqronomiya sahəsinə yeni düşüncə tərzi gətirmək məqsədi ilə praktiki mövzular Lənkəranda təşkil edilib. Bu layihənin təlim mərhələləri isə Bakıda davam edib. Layihə çərçivəsində 30 nəfərə Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisləri tərəfindən aqrar sahədə data analitikası, layihələrin yazılması və idarə edilməsi mövzularında təlimlər keçirilib.

“Aqrar İnkişaf Məqsədləri (AİM)” layihəsi, 27 may - 3 iyun 2019-cu il tarixində “Aqrar İnkişaf Könüllüləri” Təşkilatının təşkilatçılığı ilə ölkənin 4 regionunda həyata keçirilib. Layihə aqrar sahədə savadlılığın artırılması, kənd təsərrüfatında innovasiyanın tətbiqi və eləcə də gənc mütəxəssislərin yetişməsini təşviq etmək məqsədilə həyata keçirilib.

2019-cu ilin 5 iyun tarixində “Aqrar İnkişaf Könüllüləri” Təşkilatının təşkilatçılığı ilə “Kənd Sovqatı” layihəsinin 3-cü mərhələsi həyata keçirilib. Bu mərhələdə 5 regiondan seçilmiş aztəminatlı ailələ-

rə ərzaq yardımı göstərilib. Layihə çərçivəsində, seçilmiş regionlardan olan yüz aztəminatlı ailəyə bayram ərəfəsində könüllülər tərəfindən sovqatlar təqdim olunub. Yeni il və Novruz bayramları ərəfəsində də könüllülər ailələrlə görüşür, onları bayram sovqatı ilə sevindirirlər.

"İnsan mühəndisliyi - gələcək üçün məsuliyyətli vətəndaş olmaq" layihəsi 2019-cu ilin 11-12, 18-19, 25-26 may tarixlərində keçirilib. Layihənin əsas məqsədi müxtəlif mövzularda cəmiyyəti və gəncləri maraqlandıran təlimlər keçmək, gənclərə gələcək karyera, əsaslı təhsil, möhkəm ailə bağları barədə məlumat vermək olmuşdur. İştirakçılar sonda sertifikatlarla təltif ediliblər.

"Aqrar İnkişaf Könüllüləri" 15-17 may 2019-cu il tarixində Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə keçirilən 13-cü "Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi"ndə fəal iştirak edib.

Bundan başqa, ölkədəki könüllülük hərəkatında birgə addımların atılması, gənclərin fərdi və sosial inkişafı istiqamətində resursların birlikdə istifadə edilməsi, gələcək layihələrdə və təşkilati proqramlarda perspektivlərin səmərəli istifadəsini stimullaşdırmağı, o cümlədən 2017-ci il 15 sentyabr tarixli "Azərbaycan gəncliyi 2017–2021-ci illərdə" Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Pla-

nından irəli gələn addımların icrası və digər qarşılıqlı maraq kəsb edən sahələrdə əməkdaşlığı genişləndirmək məqsədilə 9 fevral 2019-cu il tarixində "Aqrar İnkişaf Könüllüləri" Təşkilatı ilə Gənclər üçün Təhsil Mərkəzi arasında, 4 mart 2019-cu il tarixində isə "ASAN Könüllüləri" Təşkilatı ilə birgə əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

25 aprel tarixində "Aqrar İnkişaf Könüllüləri" ilə Bakı Mühəndislik Universiteti və 29 aprel tarixində isə Lənkəran Dövlət Universiteti tələbələrinin görüşü keçirilib. Təşkilat komandası ilə universitetlərin tələbələri arasında baş tutan interaktiv tədbirdə "Aqrar İnkişaf Könüllüləri" Təşkilatının yaranma məqsədləri, irəlidəki hədəfləri və gənclərlə baş tutacaq layihələri və bu gün kənd təsərrüfatında dövlət tərəfindən aparılan islahatların mahiyyəti, onların tətbiq olunma prinsipləri barədə danışılıb.

2019-cu ilin iyun ayı ərzində "Aqrar İnkişaf Könüllüləri" Təşkilatı bir sıra DAİM nümayəndəliklərinin könüllüləri respublikanın müxtəlif rayonlarında keçirilən "Kənd Təsərrüfatı Texnikaları Yarmarkasında" iştirak ediblər. 21-23 iyun tarixlərində Bakı şəhərində keçirilən "Organic Food Festival 2019" tədbirinə "Aqrar İnkişaf Könüllüləri" Təşkilatının könüllüləri ekskursiya ediblər.

# “Bakı Şəhər Halqası” Əməliyyat Şirkəti - Könüllülük Proqramı

Bakı Şəhər Halqası Akademiyası (BCC Akademiya) könüllülərin yarışlara yüksək səviyyədə hazırlanması ilə yanaşı, onların peşəkar inkişafına da diqqət göstərir.

2 fevral 2017-ci ildə Gənclər və İdman naziri Azad Rəhimovun iştirakı ilə “Bakı Şəhər Halqası” Əməliyyat Şirkəti (BŞH) Akademiyasının açılış mərasimi baş tutub. Həmin vaxtdan etibarən könüllülərin şəxsi və peşəkar inkişafı istiqamətində Akademiya tərəfindən müxtəlif işlər görülür.

Fəaliyyət göstərdiyi iki il ərzində BCC Akademiya könüllülərin həm şəxsi, həm də peşəkar inkişafı üçün çalışır. BCC Akademiyası könüllülərin yalnız yarışlara yüksək səviyyədə hazırlanmasına deyil, eyni zamanda, onların peşəkar inkişafına da böyük diqqət göstərir. Təlim planına əsasən könüllülər üçün müxtəlif mövzulu təlim və danışıq klubları təşkil edilir. Burada onlar “Vaxtın səmərəli idarə edilməsi”, “Uğurlu Karyera Qurmağın yolları”,

“Rəqəmsal marketinq”, “Öz biznesini qur”, “Emosional zəka”, “Özünü kəşf et” kimi mövzulu seminarlarda iştirak edərək, yeni məlumatlar qazanır və fikir mübadiləsi aparırlar. Bu isə öz növbəsində könüllülərə inkişaf etmək və uğur qazanmaq yolunda əmin addımlarla irəliləməyə yardımçı olur.

Könüllülərdə komanda ruhunu artırmaq və kollektivlə işləmək bacarığını inkişaf etdirmək məqsədilə müxtəlif tədbirlər də həyata keçirilir. Bu cür tədbirlər isə öz növbəsində sosiallıq yaradaraq, onlara yeni dostlar tapmağa kömək edir. Bir sözlə, BCC Akademiya könüllülərin müxtəlif sahələrdə işləmək bacarığının inkişaf etdirilməsinə xüsusi diqqət göstərir.

Akademiya yarandığı gündən qarşısına prioritet kimi qoyulan bir çox işləri uğurla həyata keçirir. Sözügedən məqsədlərin sırasına gənclər arasında könüllülüyə olan marağın artırılması, onların inkişafı, təşkilatçılıq və kommunikasiya bacarıqlarının təkmilləşdirilməsi daxildir.

Çoxşaxəli və uğurlu fəaliyyəti ilə ölkədə tanınan, könüllülərin sevimli məkanına çevrilən BCC Akademiya 2 fevral 2019-cu ildə Azərbaycan Gəncləri Günü münasibətilə istedadlı və yaradıcı gənclərin mükafatlandırılması mərasimində Gənclər və İdman Nazirliyi tərəfindən mükafata layiq görülüb.

BŞH Könüllülük Proqramına seçilmək üçün namizədlərin xarici dil biliklərinin olması vacibdir. Müraciət edənlərin sayı çox olduğuna görə seçim zamanı ən yaxşı namizədlərə üstünlük verilir. Müsahibə mərhələsindən uğurla keçən hər bir könüllü insan resursları, işçi qüvvəsi, media əməliyyatları, tamaşaçı xidmətləri, şəhər əməliyyatları, marşal klubu əməliyyatları, inzibati əməliyyatlar, hava limanı əməliyyatları və digər istiqamətlərdən birinə yönləndirilir.

Formula 1 Azərbaycan Qran-Prisində iştirak üçün ən az 16 yaşında olmaq, ingilis dilini bilmək (əlavə xarici dil bilənlərə də üstünlük veriləcək), gərgin rejimdə işləmək, həvəs və əzmkarlıq tələb olunur.

Azərbaycan Qran-Prisi 2019-un təşkilində 3 min könüllü iştirak etdi. Bu rəqəm 2016-cı ildə 4 min, 2018-ci ildə isə 3 min idi. Ümumilikdə isə bu günə kimi 12 min könüllü Formula 1 yarışlarının Bakıda təşkil edilməsində yer alıb.

BCC Akademiya gənclərin inkişafı ilə yanaşı, onların əldə etdiyi təcrübənin müxtəlif sahələrdə tətbiq edilməsinə də xüsusi diqqət ayırır. Belə ki, 5 oktyabr 2018-ci ildə BCC Akademiyada könüllülərin ölkədə fəaliyyət göstərən böyük şirkətlərdə təcrübə proqramı keçməsi, həmçinin iş ilə təmin

olunması üçün “Böyük imkanlara kiçik addım” adlı karyera yarmarkası təşkil edildi. Ümumilikdə 900-dən çox gənc sözügedən tədbirdə iştirak etməklə yaradılan geniş imkanlara kiçik addım atmış oldu.

Bakı Şəhər Halqası Akademiyası daim gənclərin inkişafına dəstək göstərərək, onlar üçün yeni imkanlar yaradır. Öncəki illərdə könüllü olmuş şəxslər sonra BŞH komandasına işçi kimi qatılmaq imkanı əldə edir. 2016-cı ildə Bakıda ilk dəfə baş tutan Formula 1 yarışında könüllü olmuş 50 nəfərdən çox gənc növbəti il işçi oldu. 2018-ci ildə 70-dən, 2019-cu ildə isə 100-dən çox gənc BŞH komandasında fəaliyyətini işçi kimi davam etdirmək imkanı qazanıb.

# “Bir” Tələbə-Könüllü Proqramı

“Bir” Tələbə-Könüllü Proqramı “Azərbaycan Respublikasının “Könüllülük fəaliyyəti haqqında” Qanununu dəstəkləyərək 14 dekabr 2015-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən Azərbaycanın siyasi və iqtisadi inkişafında böyük rol oynayan tələbə-könüllülərlə işi sistemləşdirmək, könüllülük fəaliyyətini və könüllülük hərəkatını stimullaşdırmaq üçün yaradılmış uzunmüddətli proqramdır.

Proqramın əsas missiyası könüllülük hərəkatını inkişaf etdirməklə yanaşı, innovativ, milli dəyərləri qorumaqla qlobal dünyaya hazır olan nəslin yetişdirilməsinə töhfə verməkdir. Proqramın məqsədi tələbə-könüllülərin vahid məlumat bazasının yaradılması, könüllülük fəaliyyətinin sistemləşdirilməsi, könüllülük mədəniyyətinin formalaşdırılması, tələbə-könüllülərin dünya görüşünün genişləndirilməsi və onların akademik təhsildən ayrılmadan,

könüllü fəaliyyətə cəlb olunmaqla sosial aktivliyini artırmaqdır.

Hazırda Proqram ölkənin ən böyük tələbə-könüllü platforması kimi 22 000-dən çox "BİR" tələbə-könüllü üzvə malikdir.

Proqram ilə əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən Milli Olimpiya Komitəsi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, "Bakı Şəhər Halqası" Əməliyyat Şirkəti, Azərbaycan Velosiped İdmanı Federasiyası ilə anlaşma memorandumu imzalanıb.

Ölkəmizin ev sahibliyi etdiyi beynəlxalq və eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirilməsində tələbə-könüllülərinin əvəzsiz rolu vardır. Ümumilikdə fəaliyyət dövrü ərzində 500-ə yaxın beynəlxalq və dövlət əhəmiyyətli tədbirlərin keçirilməsinə könüllü dəstəyi göstərmişdir.

Proqram tərəfindən dəstək verilən irimiqyaslı tədbirlər sırasında Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirlər, "Bakı-2017" IV İslam Həmrəylik Oyunları, Formula-1 yarışları, "9 Noyabr - bayraq yürüşü", "Bakı Marafonu-2017, 2018, 2019", Olimpiya Komitəsinin 25 illiyi, "Olimpiya Hərəkatı", Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi, Bakı Şopinq Festivalı, BMX növü üzrə dünya çempionatı, VI Bakı Beynəlxalq Humanitar Forumu,

Nəsimi festivalı, “Azerbaijan International - 2019”, Cırtdan meqa-şou, Heydər Əliyev adına cüdo üzrə “Böyük dəbilqə” beynəlxalq turniri, “IBSA Judo Grand Prix - 2019”, “Narkotiklər ilə mübarizə üzrə 36-cı beynəlxalq forum”, “Organic Food Festival - 2019”, “Səyahətin başlanğıcı və sonu” adlı sorğu, Heydər Əliyev Mərkəzi ilə keçirilən 30-dan çox tədbiri və Cocuq Mərcanlı şagirdləri üçün keçirilən “Qayıdış” Yaz Məktəbini nümunə göstərmək olar.

Hər il Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən “Azərbaycan Beynəlxalq Təhsil Sərgisi”nin təşkilində “BİR” tələbə-könüllülər fəal iştirak edirlər və “BİR” Tələbə-Könüllü Proqramının stendi rəsmilər və sərginin qonaqları üçün nümayiş olunur.

Proqram dərsdənkənar asudə vaxtlarının dəyərləndirilməsinə, onların kiçik və böyük miqyaslı tədbir və təlimlərdə iştirakını təmin etməsinə, tələbələrin karyera imkanları qazanmasına, yardıma ehtiyacı olan şəxslərə köməklik göstərilməsinə şərait yaradır və vətəndaş məsuliyyətinin formalaşmasında mühüm rol oynayır.

“Bir” Tələbə-Könüllü Proqramı 6 müxtəlif istiqamətdən - Öyrən, Öyrət, Yaşa, Yaşat, Kəşf Et, Zövq Al-dan ibarətdir. Bu istiqamətlərin hər biri çərçivəsində proqram daxilində tələbə-könüllülərin vaxtını səmərəli dəyərləndirməsi üçün tədbirlər həyata keçirilir.

Proqram çərçivəsində tələbələrin şəxsi inkişafı və karyera imkanlarının artırılması üçün müxtəlif layihələr, həmçinin müntəzəm olaraq "BİR Karyera Akademiyası", könüllülük fəaliyyətini stimullaşdırmaq məqsədilə təlimlər, seminarlar və görüşlər keçirilir.

Proqram Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Mərkəzi Bankı, Mədəniyyət Nazirliyi, Müdafiə Sənayesi Nazirliyi, "ASAN xidmət", Azərbaycan Respublikasının Gənclər Fondu, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Heydər Əliyev Mərkəzi, Bakı Konqres Mərkəzi, Bakı Nəqliyyat Agentliyi, Kapital Bank, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) Azərbaycandakı ölkə üzrə nümayəndəliyi, Azərbaycan Milli Paralimpiya Komitəsi, Azərbaycan Badminton Federasiyası, İctimai TV, Azərbaycan Cüdo Federasiyası, Azərbaycan Futbol Federasiyası Assosiasiyası (AFFA), Azərbaycan Velosiped İdmanı Federasiyası (AzVİF), "Bakı Şəhər Halqası" Əməliyyat Şirkəti, IDEA İctimai Birliyi, Milli Olimpiya Komitəsi, "ITECA-CASPIAN" şirkəti, "SABAH" qrupları, "Azərbaycan üçün öyrət" təhsil proqramı, "Şərq-Qərb" ASC, YARAT Müasir İncəsənət Məkanı, WWF, "Sabah" futbol klubu, Azərbaycan Futzal Federasiyası,

“Youth Inc.” Sahibkarlıq Proqramı və “Milli debat proqramı” ilə əməkdaşlıq edir.

Azərbaycanda könüllülük sahəsində ilk dəfə həyata keçirilən “Onlayn sertifikat sistemi” “Bir” Tələbə-Könüllü Proqramında tətbiq olunmuşdur. Bu sistem vasitəsilə hər bir tələbə-könüllünün iştirak etdiyi tədbirlərin sertifikatı www.konullu.edu.az saytındakı hesabında yerləşdirilir və tələbə-könüllü onlayn şəkildə sertifikatını əldə edə bilir.

# "KOB Könüllüləri" fəaliyyət proqramı

Azərbaycan Respublikası Prezidentinin 26 iyun 2018-ci il tarixli 148 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsinə dair" Nizamnamədə gənclərin (ali, əlavə, orta ixtisas, ilk peşə-ixtisas təhsil müəssisələrinin tələbələrinin və digər şəxslərin) dünyagörüşlərinin genişləndirilməsi, ixtisas biliklərinin artırılması, gənclərə peşəkar əmək fəaliyyətinə başlayanadək əmək vərdişlərinin aşılanması vəzifələri öz əksini tapmışdır.

Eyni zamanda Agentlik tərəfindən dövlət orqanları, qeyri-hökumət təşkilatları, kiçik və orta biznes subyektlərində gənclərin könüllü fəaliyyətinin təşkili və təşviqi, sahibkarlara dəstək məqsədilə gənc mütəxəssislərin və tələbələrin sahibkarlığa könüllü olaraq cəlb edilməsinin ("Young Internship Prog-

rammes") təşviqi və bu sahədə koordinasiyanın həyata keçirilməsi, eləcə də ali təhsil müəssisələri, qeyri-hökumət təşkilatları və özəl-biznes müəssisələri ilə əməkdaşlıq etmək kimi vəzifələr müəyyən edilmişdir.

Qeyd edilən vəzifələrin icrası məqsədilə agentlikdə "KOB Könüllüləri" fəaliyyət proqramı hazırlanmışdır. Azərbaycan Respublikasının "Könüllü fəaliyyət haqqında" Qanununa və digər normativ hüquqi aktlara uyğun olaraq "KOB Könüllüləri" fəaliyyətinin tənzimlənməsinə dair qaydalar təsdiq olunmuşdur.

5 dekabr 2018-ci il tarixində "Beynəlxalq Könüllü Günü" münasibətilə sözügedən qaydalara əsasən könüllülərin özlərini ictimai əsaslarla idarə edən Agentliyin İdarə Heyəti sədrinin yanında "Könüllülük Şurası" yaradılmışdır. Könüllü qrup rəhbərlərindən, agentlikdə və yaxud agentlik xətti ilə müxtəlif məkanlarda 2 ay müddətində çalışmış, sertifikat və xasiyyətnamə ilə təltif olunmuş fəal və seçilmiş könüllülərdən və agentliyin müvafiq şöbəsinin könüllülərə məsul olan şəxslərindən ibarət qrup hesab olunur. Daxil olan müraciətlərə baxılması və könüllülərin seçilməsi "Könüllü şurası" tərəfindən həyata keçirilir. "KOB Könüllüləri" fəaliyyət proqramında iştirak edəcək hər bir könüllüyə

aid müəyyən edilmiş könüllünün xidmət etdiyi mərkəzlərdə Mərkəzin rəhbərliyi tərəfindən könüllüyə daxili intizam qaydaları, eləcə də bank hesab kartı, həyatının sığorta olunmasına dair müvafiq sənəd təqdim edilir.

"KOB Könüllülük" fəaliyyət proqramında iştirak 2 ay nəzərdə tutulur. Əlavə olaraq isə, müqavilə 1 ay müddətinə uzadıla bilər. Könüllülük fəaliyyətində iştirak edən şəxslər müvafiq olaraq, Agentliyin struktur bölmələrində ("KOB Dostu", "KOB Evi", "KOB İnkişaf Fondları", Aparat) könüllü xidmətə cəlb olunur.

Agentlikdə könüllülər aşağıdakı istiqamətlərdə fəaliyyət göstərirlər:

- ✓ agentliyin həyata keçirdiyi və Agentliyin iştirakı ilə həyata keçirilən sosial layihələrdə iştirak;
- ✓ agentliyin daxili strukturlarının gündəlik fəaliyyətinə dəstək göstərilməsi və iştirak;
- ✓ agentliyin təşkil etdiyi və təşkilində iştirak etdiyi tədbirlərin keçirilməsində iştirak;
- ✓ "KOB Dostu"nun fəaliyyətinə dəstək göstərilməsi;
- ✓ agentliyin sosial şəbəkələrdəki rolunun artırılmasına dəstək;
- ✓ müxtəlif fəaliyyətlərin həyata keçirilməsi üzrə sorğuların təşkilində iştirak;
- ✓ gənclərlə, tələbələrlə bağlı təşəbbüs və təkliflərin hazırlanaraq agentliyə təqdim edilməsi;

- ✓ könüllülərin ixtisasartırma proqramlarına, təlimlərə, seminarlara cəlb edilməsinə dəstək göstərilməsi;
- ✓ vətəndaşların agentliyin, "KOB Dostu"nun, "KOB Evi"nin fəaliyyəti, agentliyin həyata keçirdiyi layihələrlə bağlı məlumatlandırılması;
- ✓ Mövcud olan texniki avadanlıqlardan istifadə zamanı vətəndaşlara köməkliklərin göstərilməsi və s.

Könüllülük fəaliyyətinin sonunda iştirakçıların müvafiq qiymətləndirilməsinə əsasən müxtəlif dərəcəli sertifikatlar təqdim edilir. Könüllülərin hərtərəfli inkişaf etdirilməsi üçün agentlik daxilində müxtəlif mövzularda (könüllülük, liderlik, motivasiya, ünsiyyət bacarıqları və digər) interaktiv təlim və seminarlar təşkil olunur. Agentlik rayonlarda təşkil edilən tədbir və görüşlərdə də könüllüləri fəaliyyətə cəlb edir.

Hər ay agentlikdə fəaliyyət göstərən könüllü gənclər içərisindən səmərəli fəaliyyətlərinə görə "Ayın könüllüsü" və yaxud da könüllüləri seçilərək diplomlarla təltif olunurlar.

"KOB Könüllüləri" fəaliyyət proqramı barədə gənclərin ətraflı məlumatlandırılması, eləcə də gənclərin "KOB Könüllüləri" sırasına qoşulması üçün agentliyin www.smb.gov.az saytında xüsusi

bölmə yaradılmışdır. Agentlikdə könüllü kimi fəaliyyət göstərmək arzusunda olanlar həmin bölmədə qeyd edilən ərizə formasını dolduraraq müraciət edə bilərlər.

Hazırda müqavilə əsasında agentlikdə 14 nəfər, Abşeron, Gəncə, Yevlax, Masallı, Quba, Qusar, Xaçmaz, Siyəzən, Sumqayıt, Füzuli, Qəbələ, Şəki, Şamaxı rayonları üzrə "KOB Dostu" mərkəzlərində 26 nəfər, ümumilikdə, 40 nəfər könüllü fəaliyyət göstərir. "KOB Könüllüləri" Agentlikdə də müvafiq işlə təmin olunublar.

Bu günə qədər "KOB Könüllüləri" fəaliyyət proqramının 36 nəfər məzunu olmuşdur. Könüllülük fəaliyyətini bitirənlərdən 2 nəfər Masallı Sənaye Məhəlləsində, 1 nəfər "Paşa Sığorta" şirkətinin Masallı filialında, 8 nəfər isə "166 Global Logistics LLC" şirkətində işlə təmin olunub.

Həmçinin könüllülər öz fəaliyyətləri çərçivəsində 7 dekabr 2018-ci il tarixində Bakı Konqres Mərkəzində keçirilmiş Azərbaycan Könüllülərinin Həmrəylik festivalında iştirak ediblər. Festivalda iştirak edən şəxslərə "Kiçik və Orta Biznesin İnkişafı Agentliyi" və "KOB Könüllüləri" proqramı haqqında geniş məlumat verilərək könüllü olaraq fəaliyyət göstərmək istəyən gənclərə "KOB Könüllüləri" proqramının proseduru haqqında dolğun təqdimat etmişlər.

2018-ci ilin dekabr ayında 5 nəfər "KOB könüllü"sü isə Şamaxı şəhərində keçirilən "Qış Könüllülük Düşərgəsində" iştirak edib.

"KOB Könüllüləri" fəaliyyət proqramının könüllü iştirakçıları "Bakutel-2018" XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar, Birləşmiş Millətlər Təşkilatının Azərbaycan nümayəndəliyi ilə keçirilmiş "70th anniversary of Universal Declaration of the Human Rights in Azerbaijan", 21-23 iyun tarixlərində Dənizkənarı Milli Parkda keçirilən "Organic Food Festival 2019" sərgilərinin təşkil olunmasında yaxından iştirak edib.

Eyni zamanda, "KOB Könüllüləri" şəhər və rayonlarda təşkil edilən konfrans, təlim, seminar, görüş və digər tədbirlərə cəlb olunurlar. 21 iyun 2019-cu il tarixində Agentlik yanında İctimai Şuranın təşkilatçılığı ilə iqtisadiyyatın müxtəlif sektorlarında fəaliyyət göstərən KOB subyektlərinin, müvafiq dövlət qurumlarının və vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə "Təhsil biznesi sektoru: mövcud vəziyyət və perspektivlər" mövzusunda keçirilən konfransın və 27 iyun 2019-cu il tarixində Bakı Gənclər Mərkəzində agentliyin və Azərbaycan Respublikasının Gənclər Fondunun birgə təşkilatçılığı ilə "Beynəlxalq Mikro, Kiçik və Orta Sahibkar-

lıq" Gününə həsr olunmuş Gənclər Forumunun təşkil olunmasında da fəal iştirak ediblər.

Bakının Nizami rayonu ərazisindəki "Diqlas" ticarət mərkəzində baş vermiş yanğında zərər çəkmiş sahibkarlara dövlət tərəfindən müxtəlif dəstək tədbirlərinin göstərilməsi məqsədilə yaradılan işçi qrupunun fəaliyyəti çərçivəsində agentlik daxilində könüllülərin rolu təqdirəlayiq hesab edilib və fərqlənən könüllülər mükafatla təltif olunub.

2019-cu ilin iyun - iyul aylarında "KOB Könüllüləri" Qəbələ şəhərinin Vəndam qəsəbəsində mikro, kiçik sahibkarlar və fermerləri agentliyin fəaliyyəti barədə məlumatlandırıblar.

İctimai - iaşə obyektləri, tikiş sexləri, mebel və inşaat materialları mağazalarında, fərdi təsərrüfatlarda olan "KOB Könüllüləri" sahibkarları biznesin qurulması və inkişafı, hüquq və mənafelərinin müdafiəsi, özünüməşğulluq proqramına qoşulmaq kimi məsələlərlə bağlı Qəbələ-Oğuz "KOB Dostu"na müraciət edə biləcəkləri barədə məlumatlandırıb, onlara maarifləndirici bukletlər təqdim ediblər.

# "Könüllü DOST"

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 avqust tarixli 229 nömrəli Fərmanına uyğun olaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxs (DOST Agentliyi) yaradılıb.

DOST Agentliyinin fəaliyyət istiqaməti: "DOST" mərkəzlərini idarə etmək, onların fəaliyyətinə nəzarəti və fəaliyyətinin qiymətləndirilməsini həyata keçirmək;

"DOST" mərkəzlərində xidmətlərin "bir pəncərə", həmçinin operativlik, vətəndaş məmnunluğu, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirilməsi üçün tədbirlər görmək;

"DOST" mərkəzlərinin inkişafını, həmin mərkəzlərdə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsini, onların elektron qaydada həyata keçirilməsini və təkmilləşdirilməsini, habelə innovasiyaların tətbiqini təmin etmək;

Müvafiq sahədə fəaliyyətin təkmilləşdirilməsi və şəffaflığın artırılması məqsədilə tədbirlər görmək kimi fəaliyyətlər daxildir.

Məhz bu kimi fəaliyyətin yerinə yetirilməsi, “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə “Dövlət Proqramı”nda qeyd edilən vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün DOST Agentliyində mərhələli şəkildə könüllülük fəaliyyəti, könüllülük proqramları həyata keçirilir.

DOST Agentliyi və “DOST” mərkəzlərində könüllülük fəaliyyətinin təşkili prosesinə 12.04.2019-cu il tarixindən start verilmişdir. Seçilmiş könüllülər ilkin olaraq sınaq “DOST” xidmət məntəqəsində fəaliyyətə başlamışlar. 9 may 2019-cu il tarixində 1 saylı Bakı “DOST” mərkəzi açılmışdır və bu tarixdən etibarən könüllülər ilk mərkəzdə fəaliyyət göstərirlər.

Könüllülərin əsas fəaliyyət sahələri və istiqamətləri aşağıdakılardır:

- vətəndaşların qarşılanması və müvafiq xidmət pəncərələrinə yönləndirilməsi;
- vətəndaş axınının düzgün və operativ tənzimlənməsi;
- növbə sisteminin idarə olunmasında iştirak;
- vətəndaşların məlumatlandırılması;
- elektron sistemlərdən istifadə üzrə köməklik;
- innovativ texnologiyaların tətbiq olunması ilə

müxtəlif rəy sorğularının və tədbirlərin təşkili;

- xidmətlər üzrə tələb olunan sənədlərin siyahısı ilə vətəndaşları tanış etmək;
- dövlət xidmətlərinin göstərilməsində dəstək;
- müxtəlif anket, forma, ərizə və s. doldurulmasında vətəndaşlaraköməklik etmək;
- əlilliyi olan və sağlamlıq imkanları məhdud şəxslərə xüsusi diqqət və qayğı göstərmək;

Könüllülərin fəaliyyətinin tənzimlənməsi sahəsində "Könüllü DOST" Proqramı müəyyənləşdirilmişdir. Bu proqramın isə müvafiq alt proqramları hazırlanmışdır.

"Gənc DOST" alt proqramı 16-29 yaş aralığında olan gənclərin, o cümlədən əlilliyi olan şəxslərin vətəndaşlara xidmət sahəsində təcrübə qazanması, ilkin işgüzar vərdişlər əldə etməsi, fərdi inkişafı və karyera yolunda ilk uğurlu addımlarının təməlinin qoyulması məqsədi daşıyır. Könüllülük fəaliyyətinin müddəti iki aydır və iş prosesi gündəlik olaraq hər növbədə üç saat olmaqla, üç növbədə təşkil olunur;

"Könüllü DOST" və "Üçüncü Bahar" layihəsinin birgə təşkilatçılığı ilə "Gümüşü DOST" alt proqramı hazırlanmışdır. "Gümüşü DOST" alt proqramı təqaüdçülərin cəmiyyətə reinteqrasiyası, nəsillərarası təcrübə və bilik mübadiləsi, yaşlı şəxslərin asudə vaxtının aktiv təşkili və fəal yaşlanması məqsədi daşıyır.

“Virtual DOST” alt proqramı çərçivəsində təhsil, təlim, tədqiqat, PR, konsaltinq və s. sahələr üzrə verilən tapşırıqların onlayn qaydada könüllülər tərəfindən yerinə yetirilməsi nəzərdə tutulur. Bu proqram əsasında müvafiq sahələr üzrə peşəkar mütəxəssislər, ictimai xadimlər, habelə əlilliyi olan şəxslər kompüter, planşet və ya smartfondan istifadə etməklə ofis və evlərində könüllü kimi fəaliyyət göstərmək imkanına malik olacaqlar. Əziz dostum, oxucum, qeyd olunan proqrama sən də qoşula bilərsən, bunun üçün “Könüllü DOST”un sosial şəbəkələrdəki hesabına baş çəkmək kifayət edir.

“Könüllü fəaliyyət haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən könüllülük fəaliyyətinə cəlb edilən şəxslərin gündəlik xərclərinin ödənilməsi də həyata keçirilir.

DOST Agentliyi tərəfindən könüllü qismində fəaliyyət göstərmək istəyən şəxslərə onlayn müraciət etmək imkanı yaradılmışdır.

Onlayn formada 2500-dən çox şəxs “Gənc DOST” alt proqramında iştirak etmək üçün müraciət etmişdir. 1 saylı Bakı “DOST” Mərkəzində tələb olunan könüllülərin sayı, ixtisasları və s. meyarlar nəzərə alınmaqla 260 nəfər müsahibəyə dəvət edilmiş və onlardan 102 nəfəri (o cümlədən 4 nəfəri əlilliyi olan şəxs olmaqla) seçilmişdir. 102 nəfərdən

50 nəfəri ötən müddət ərzində ikiaylıq könüllülük fəaliyyətini başa vuraraq məzun olub.

"Gümüşü DOST" alt proqramında 108 nəfər iştirak etmək üçün onlayn və ya birbaşa formada müraciət etmişdir. İlkin olaraq onlardan 4 nəfəri ikiaylıq könüllülük fəaliyyətinə cəlb edilmiş və ikiaylıq fəaliyyətləri bitdikdən sonra yeni qrup (4 nəfər olmaqla) "Gümüşü DOST"lar cəlb olunub.

Könüllü fəaliyyətinə cəlb edilən şəxslərlə "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq müqavilələr bağlanıb.

Fəaliyyətə başlamazdan əvvəl könüllülər üçün DOST Agentliyinin və "DOST" mərkəzlərinin əsas təyinatı və fəaliyyəti, bu fəaliyyətdə könüllülərin rolu və funksiyaları barədə təlimlər keçirilmiş, müvafiq təlimatlandırma aparılıb.

D2D ("DOST to DOST") layihəsi çərçivəsində könüllülərə müxtəlif mövzular (Yaşam kouçluğu, Stressin idarə edilməsi, Motivasiya, Sosial məsuliyyət, Təqdimat bacarıqları və s.) çərçivəsində təlimlər keçirilir. Keçirilən təlimlərin hamısında iştirak edən könüllülər xüsusi sertifikatla mükafatlandırılır. Layihənin məqsədi "Könüllü DOST"ların uğurlu karyera üçün əlavə bilik və bacarıqlar əldə etmələrinə, ümumi dünyagörüşünün artmasına və şəxsi inkişaflarına yardımçı olmaqdır.

"Xalqlar DOSTluğu" layihəsi 30 iyul Beynəlxalq Dostluq gününə həsr olunub. Layihə çərçivəsində könüllülər fərqli ölkələrin mədəniyyətləri, tarixi, adət-ənənələri ilə həmin ölkələrin nümayəndələri tərəfindən məlumatlandırılıblar. Bununla bərabər könüllülər mədəniyyətlərarası dialoq, xalqların inteqrasiyası kimi məsələlərdə bilavasitə iştirak etmiş və ölkəmizi layiqincə təmsil ediblər.

Könüllülərin həvəsləndirilməsi məqsədi ilə bir neçə istiqamətdə tədbirlər davam etdirilir. Belə ki, könüllülərin asudə vaxtlarının səmərəli təşkil olunması məqsədilə bədii və ədəbi yaradıcılıq gecələrinin keçirilməsi, ictimai xadimlərin dəvət olunması, şair və yazarlarla görüşlərin keçirilməsi, teatr və konsertlərdə iştirakın təmini, o cümlədən müxtəlif idman tədbirlərində iştirakları bu  istiqamətlərə daxildir.

Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün könüllülər hərəkatı müəyyənləşdirilən fəaliyyət sahələri və istiqamətləri ehtiva edən müxtəlif layihələri ya birbaşa həyata keçirir, ya da bu layihələrin icrası zamanı yaxından iştirak edir.

# Gənclər Fondunun "Gənc Könüllülər" Proqramı

Gənclər Fondunun "Gənc Könüllülər" Proqramı gənclərin, o cümlədən ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan tələbələrin birgə sosiallaşmasını və cəmiyyət üçün faydalı işlər görməsini təmin edən, həmçinin gənclərə asudə vaxtlarını səmərəli keçirməyə yardımçı olacaq könüllülük proqramıdır.

"Gənc Könüllülər" Proqramının məqsədi könüllülüyün təbliği, gənclərin dünyagörüşünün artırılmasına dəstək göstərilməsi, ictimai problemlərin həllində gənclərin rolunun artırılması, ictimai fəal və yüksək potensiallı gənclərin aşkar edilərək dəstəklənməsi, könüllülük fəaliyyəti vasitəsilə gənclərin məşğulluğunun təmin edilməsi, ölkənin ictimai-siyasi həyatında gənc könüllülərin yaxından iştirakının təmin edilməsindən ibarətdir.

"Gənc Könüllülər"in fəaliyyət istiqamətləri bunlardır:

İrimiqyaslı beynəlxalq idman və mədəni tədbirlər, sosial işlər (ahıllar evləri, internat evləri, əlillər mərkəzləri, xəstəxanalara və s. kömək), ictimai işlər (təmizlik, abadlıq, quruculuq və s.), dövlət qurumlarında texniki işlərə yardım, ətraf mühitin mühafizəsi (ərazilərin, meşə və çimərliklərin təmizlənməsi, maarifləndirmə, kimsəsiz heyvanlara qulluq), sağlam həyat tərzinin təşviqi, yol patrulu (yol-nəqliyyat hərəkətinin, tıxacların, piyada keçidlərinin tənzimlənməsi), bələdçilik, təbii fəlakətlər və bədbəxt hadisələr zamanı peşəkarlara dəstək, aztəminatlı ailələrdə yaşayan insanlara yardımların toplanması.

"Gənc Könüllülər" bu imkanlardan faydalana bilər:

- Gənclər Fondunda təcrübə;
- Gənclər Fondunun Gənclərin Karyera və İnkişaf Mərkəzi ilə yanaşı, digər məkanlarda ödənişsiz iştirak;
- qrant müsabiqələrinə kollektiv layihələrlə müraciət etmək;
- Gənclər Fondunun maliyyələşdirilməsi ilə xarici ölkələrdə keçirilən tədbirlərdə iştirak;
- Gənclər Fondunun məşğulluq proqramında iştirak;

- Gənclər Fondunun Kadrlar Bankında və İstedadların Siyahısında yer almaq imkanı.

Proqrama qoşulma qaydaları:

- ✓ könüllü olmaq istəyən gənclər Gənclər Fondunun internet səhifəsi vasitəsilə qeydiyyatdan keçməsi;
- ✓ elektron qeydiyyat kodunun təqdim olunması;
- ✓ gənc könüllünün vahid könüllülük bazasında sosial portfoliosunun yaradılması;
- ✓ könüllülüklə bağlı təlimlərdə iştirak;
- ✓ könüllülük fəaliyyətinə başlanılması.

Bu günə qədər “Gənc Könüllülər” “Gələcəyə Doğru" məzun günü gecəsi, "Azərbaycan KVN TV" Liqasının I mövsümünün final mərhələsi, Autizm Festivalı, V Mədəniyyətlərarası Dialoq Forumu, Gənclər Təşkilatlarının II Respublika Forumu, "Gələcəyini təmiz saxla" təmizlik aksiyası, "Vətənpərvər Azərbaycan Gəncliyi", "Azərbaycan Milli Mətbuatı. 144 il" ilə bağlı tədbirində, "Natiqlik Çempionatı", “YayFest”, “Əcdadların Mirası” ilk milli “kvest” yarışması, “Beynəlxalq Mikro, Kiçik və Orta Sahibkarlıq” Gününə həsr olunmuş Gənclər Forumu, “Gənclərin Beynəlxalq Yoqa Günü”, “Vətən bizə əmanətdir” bədii kompozisiyasının təqdimatı, “Region Gənclərinin I Sahibkarlıq Forumu”, “Enactus” 2019 Milli Yarışının və digər çoxsaylı təd-

birlərin təşkili prosesində yaxından iştirak ediblər.

Gənc Könüllülər 14-29 yaş kateqoriyasında olan şəxslər hesab edilir. Onların şəxsi inkişafı, asudə vaxtlarının səmərəli təşkili, ölkə miqyasında və ölkədən kənarda Azərbaycan gəncliyini və könüllülük hərəkatını təmsil etmək mexanizmləri mövcud platforma üzərindən uğurla həyata keçirilir.

Bununla yanaşı, Gənclər Fondu gənclərin bilik və bacarıqlarının inkişaf etdirilməsi, sosial inteqrasiyaların təmin olunması, iştirakçılıq imkanı və karyera planlanması sahəsində də könüllülülərə dəstək verir. Bütün könüllülər üçün mentor təyin edilməklə, ölkə üzrə coğrafi əhatəlilik də təmin edilir.

"GəncApp" mobil tətbiqi, dövlət və özəl sektorun, eləcə də beynəlxalq təşkilatların gənclər üçün təklif etdiyi imkanlar, xidmətlər, tədbir və layihələr barədə məlumatların təqdim olunduğu vahid informasiya portalıdır "GəncApp" mobil tətbiqi və genc.az internet saytı qısa zamanda yaranmasına baxmayaraq gənclərin diqqətini cəlb edib.

Tətbiq ölkə daxilində və xaricdə təşkil edilən tədbirlər, düşərgələr, mübadilə proqramları və layihələr barədə məlumat əldə etmək və onlara qoşulmaq imkanı təklif edir. Bununla yanaşı, istifadəçilərin müxtəlif yerli və xarici qurumların təqaüd proqramları, xaricdə təhsil və təcrübə təklifləri, qrant

müsabiqələri və digər elanlar barədə "GəncApp" vasitəsilə məlumatlanmaq mümkündür.

"GəncApp"ın təklif etdiyi interaktiv xəritə funksiyası Bakıda və regionlardakı Heydər Əliyev mərkəzləri, gənclər evləri, karyera inkişaf mərkəzləri, gənclər təşkilatları, kitabxanalar, teatr, kino mərkəzləri, milli parklar, Olimpiya İdman komplekslərinin imkan və xidmətlərini daha əlçatan edir.

"GəncApp" mobil tətbiqinin məqsədi gənclər sahəsində həyata keçirilən tədbirlər, layihələr və təşəbbüslər yeniliklər  barədə məlumatları davamlı olaraq gənclərin, gənclər və könüllülərlə işləyən şəxslərin diqqətinə çatdırmaqdır. Eyni zamanda mövcud dövlət dəstəyi mexanizmləri və xidmətləri barədə ətraflı məlumatların gənclərə vahid mərkəzləşdirilmiş elektron formada səmərəli şəkildə çatdırılması, eyni zamanda bu tətbiq vasitəsilə gənclərə həmin xidmətlərdən yararlanmaq imkanı verməkdir.

# Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyinin (RİİB) fəaliyyətində Könüllülük

“Regional İnkişaf” İctimai Birliyi (RİİB) Heydər Əliyev Fondunun təşəbbüsü ilə 12 fevral 2016-cı il tarixində təsis olunub. Dövlət qurumları ilə yanaşı, Heydər Əliyev Fondu da yarandığı 2004-cü ildən etibarən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi altında Azərbaycan tarixinin yaşadılması, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın sosial-iqtisadi və mədəni tərəqqisinə nail olmaq məqsədilə elm, təhsil, səhiyyə, ekologiya, mədəniyyət, incəsənət, idman və digər sahələrin inkişafı istiqamətində müxtəlif proqramlar və layihələr həyata keçirmiş və bu tədbirlər bu gün də uğurla davam etdirilməkdədir.

"Regional İnkişaf" İctimai Birliyinin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

- ictimai nəzarəti həyata keçirmək;
- əhalinin müxtəlif sahələrdə problemlərini araşdırmaq, onların dövlət və bələdiyyə orqanları ilə əməkdaşlıq, dialoq şəraitində həllinə nail olmaq;
- elm, təhsil, səhiyyə, İT, ekologiya, turizm, sosial təminat, özünüməşğulluq, mədəniyyət, incəsənət və digər sahələrdə layihələr həyata keçirmək;
- dövlət tərəfindən regionların inkişafı sahəsində həyata keçirilən tədbirlərə və layihələrə dəstək vermək və s.

Bakı, Abşeron, Dağlıq Şirvan, Lənkəran, Quba - Xaçmaz, Aran I, Aran II, Şəki - Zaqatala, Gəncə - Qazax və Yuxarı Qarabağ regonunda əhali ilə daha sıx ünsiyyətdə olmaq məqsədilə RİİB-in könüllüləri fəaliyyət göstərir.

RİİB – də könüllü fəaliyyətinin əsasını həyata keçirilən tədbirlərdə və layihələrdə gənclərin aktiv iştirakını təmin etmək təşkil edir. İctimai birliyin könüllüləri üzərinə qoyulmuş vəzifələrin icrası məqsədilə əhali qrupları, müxtəlif icmalar, dövlət və bələdiyyə orqanları ilə əməkdaşlıq edir, regionların inkişafı, insanların qayğı və problemlərinin həlli istiqamətində yaxından iştirak edirlər.

Hazırda RİİB-in regionlarda 500-dən çox fəal könüllüsü var. Könüllülərin fərdi inkişafları üçün könüllülük proqramları həyata keçirilir. Bu proqramlarda könüllülər müxtəlif təlimlərdə, seminarlarda, forumlarda, ekoloji turlarda, təcrübə proqramlarında, həmçinin yay və qış məktəblərində iştirak edirlər. Bundan başqa, RİİB könüllüləri müxtəlif sosial, turizm, təhsil, səhiyyə, idman və İT kimi mühüm respublika layihələrində fəal iştirak edirlər.

2018-ci il dekabrın 4-də Şəki şəhər Heydər Əliyev Mərkəzində "Regional İnkişaf" İctimai Birliyi könüllülərinin birinci ümumrespublika konfransı keçirilmişdir. Tədbirdə könüllülər qazandıqları təcrübə barədə fikirlərini bölüşmüş, ictimai birliyin yeni layihələrini təqdim etmişlər.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə əlamətdar bayramlar münasibətilə aztəminatlı ailələrə bayram paylarının və sovqatlarının çatdırılması, fiziki və sağlamlıq imkanları məhdud şəxslərin əl işlərindən ibarət satış sərgilərinin təşkili, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə özünüməşğulluq proqramı çərçivəsində xüsusi həssas qrup (şəhid, əlil, aztəminatlı) ailələr üçün intensiv meyvə bağlarının salınması və digər sosial layihələrdə könüllülər aktiv iştirak edib.

"Regional İnkişaf" İctimai Birliyinin, Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm və Menecment Universiteti ilə birgə və müstəqil şəkildə respublikanın əsas turizm bölgələrində həyata keçirilən müxtəlif turizm layihələrinin ("Turizm bələdçisinin texniki peşə biliklərinin təkmilləşdirilməsi", "Vətənimi qarış-qarış", "Regionlarda ictimai iaşə obyektlərində xidmət keyfiyyətinin yüksəldilməsi" və s.) təşkilati işlərində könüllülər yaxından iştirak ediblər.

Aztəminatlı ailələrdən olan abituriyentlər üçün ali məktəblərə hazırlıq kurslarının təşkili, Masallı Heydər Əliyev İncəsənət Məktəbində incəsənətin müxtəlif növlərinə dair mühazirə və təlimlərin keçirilməsi, Avropa İttifaqının dəstəyi ilə həyata keçirilən "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması", "Oxu günü" tədbiri, Almaniya Əmanətlər Bankı ilə birgə həyata keçirilən "Əhalinin maliyyə savadlılığının artırılması" və digər layihələrdə könüllülər fəal iştirak ediblər.

Səhiyyə Nazirliyi, Milli Onkologiya Mərkəzi və RİİB-in birgə təşkilatçılığı ilə regionlarda "Onkoloji xəstəliklərin müasir diaqnostikası və müalicəsi" mövzusunda elmi-nəzəri konfransların və ödənişsiz tibbi müayinələrin, Talassemiya Mərkəzi ilə birgə "Talassemiyasız həyat naminə" şüarı altında elmi simpoziumların və tibbi müayinələrin, Mərkə-

zi Neftçilər Xəstəxanası, Z.Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və digər tibb müəssisələri ilə birlikdə ödənişsiz tibbi müayinələrin təşkilində (müalicəyə ehtiyacı olan insanların kəndlərdən müayinələrə gətirilməsi, məlumat materiallarının paylanması, qeydiyyat və s.), "Hamiləlikdə İnkişaf Portalı"nın (HİP) təqdimat tədbirlərində könüllülər iştirak ediblər.

"Regional İnkişaf" İctimai Birliyinin Azərbaycan Şahmat Federasiyası ilə birgə təşkil etdiyi "Çempionla üz-üzə" layihəsi, mərhum qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr edilmiş "Shamkir Chess 2019" superturnirində, Azərbaycan Stolüstü Tennis Federasiyası ilə birgə həyata keçirilən ailələrarası tennis turnirlərində, eləcə də Bakı və Gəncə şəhərlərində təşkil olunmuş marafonlarda, "Heydər zirvəsi"nə yürüşdə, Dövlət Bayrağı Günü münasibətilə veloyürüşün təşkilində könüllülər yaxından iştirak ediblər.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, RİİB, Azərbaycan Gənclər Fondu, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və "Microsoft" şirkətinin birgə həyata keçirdiyi "İdeyadan Biznesə" layihəsi çərçivəsində regionlarda və Sumqayıt şəhərində keçirilən turlara könüllülər yaxından dəstək olmuşlar.

2019-cu ilin iyun ayından başlayaraq "Regional İnkişaf" İctimai Birliyi könüllülərin fərdi inkişafına dəstək verilməsi, bilik və dünya görüşlərinin artırılması, asudə vaxtlarının səmərəli təşkili və gənclər arasında sosial əlaqələrin inkişaf etdirilməsi məqsədilə üçüncü könüllülük proqramının icrasına başlamışdır. Proqram çərçivəsində 48 müxtəlif şəhər, rayon və kəndlərdən ümumilikdə 300 gənc fərdi inkişafı ilə bağlı müxtəlif təlimlər almış, onların bir sıra istehsal və xidmət müəssisələrinin əyani fəaliyyəti ilə tanışlığı, eləcə də müxtəlif sosial aksiyalarda və mədəni tədbirlərdə iştirakı təmin edilmişdir.

Vətənpərvərlik, intizamlılıq, xoşrəftarlıq, ünsiyyətcillik, operativlik, kollektivdə işləmək bacarığı, təşkilatçılıq, təşəbbüskarlıq və təmsilçilik dəyərlərinə həmişə sadiq qalan RİİB könüllüləri bundan sonra da ölkəmizin inkişafı və qüdrətlənməsi yolunda daha əzmlə çalışacaqlar.

# “Miqrasiya Könüllüsü” İctimai Birliyi

Sən fərqlisən!” devizi ilə yola çıxan “Miqrasiya Könüllüsü” İctimai Birliyi Dövlət Miqrasiya Xidməti tərəfindən dəstəklənən və həyata keçirdiyi layihələr gənclər tərəfindən maraqla qarşılanan könüllü hərəkatıdır.

Fəaliyyətini insan və vətəndaş hüquq və azadlıqlarına hörmət, qanunçuluq, humanizm prinsipləri əsasında quran Dövlət Miqrasiya Xidməti də Könüllülərin fəaliyyətinə xüsusi önəm verir. Dövlət Miqrasiya Xidmətinin həyata keçirdiyi “Miqrasiya Könüllüsü”, “İT Məktəbi” və “Miqrasiya Məktəbi” layihələri ilk gündən gənclər tərəfindən maraqla qarşılanıb. Bu ümidlə yüzlərlə gənc Miqrasiya Könüllülərinin komandasına qoşulub. Təkcə “Miqrasiya Könüllüsü - Sən fərqlisən!” şüarı ilə fəaliyyətə başlayan layihənin təqdimat mərasimində 200-ə yaxın gənc iştirak edib. Əsas məqsəd isə gənclərə yeni bilik və təcrübə qazandırmaq, onları

xidmətin fəaliyyəti ilə daha yaxından tanış etməkdir. Layihəyə müraciət edən gənclər Dövlət Miqrasiya Xidmətində təcrübə keçir, miqrasiya proseslərini yaxından izləyir, gələcək karyera üçün bilik əldə edir, beynəlxalq tədbirlərə qatılırlar. Gənclər xidmətin mərkəzi icra aparatının struktur bölmələrində fəaliyyət göstərirlər. Onlar hər kəsin, eləcə də əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin miqrasiya prosesləri ilə bağlı maarifləndirilməsini həyata keçirirlər.

Layihəyə marağın yüksək olması "Miqrasiya Könüllüsü" İctimai Birliyinin təsis edilməsinə zəmin yaratdı. Birliyin əsas məqsədi miqrasiya sahəsində dövlət siyasətinin gənclər tərəfindən dəstəklənməsinə yardım etməkdir. Hazırda birlik tədbirlərin keçirilməsində yaxından iştirak edir, gənclərin fərdi inkişafı ilə yanaşı, ictimai və sosial fəallığını artırır. Gənclərin təqdim etdiyi müxtəlif layihələr dəyərləndirilərək həyata keçirilir. Miqrasiya könüllülərinin "Facebook" səhifəsi ən aktiv səhifələrdən biri hesab olunur.

"Miqrasiya Könüllüsü - Sən fərqlisən" layihəsinin mühüm tərəfi həm də gələcəkdə gənclərin təkcə könüllü kimi yox, idarəedici lider kimi formalaşmasına dəstək verməkdir.

Daha bir layihə "Miqrasiya Məktəbi"dir. 6 ay davam edən layihədə 15 gənc iştirak edib. Tədris proqramının əsas məqsədi gələcəkdə müxtəlif sahələr üzrə fəaliyyət göstərəcək gənclərin miqrasiya ilə bağlı biliklərini ar-

tırmaq, onlarda bu sahəyə maraq yaratmaq, peşəkar vərdişlər aşılamaq və dövlət idarəçiliyinə dair biliklər barədə məlumatlandırmaqdır.

"İT Məktəbi" layihəsi də informasiya texnologiyaları sahəsinə maraq göstərən, təhsil alan, gələcəkdə bu sahədə peşəkar kimi yetişmək istəyən gənclər üçün mühüm platformadır. 4 ay davam edən layihə özündə 32 gənci birləşdirib. Layihə İT mütəxəssislərinin hazırlanması, İT üzrə nəzəri və praktik dərslər, peşəkarlarla tanışlıq, layihələrdə iştirak və iş təcrübəsi imkanlarını təmin edir.

Hazırda "Miqrasiya Könüllüsü" İctimai Birliyi yeni layihələr üzərində tamamlama işləri aparır. Yaxın gələcəkdə könüllülər yeni aktiv tədbirlərə qatılacaqlar. Qeyd edək ki, "Miqrasiya Könüllüsü - Sən fərqlisən" layihəsi çərçivəsində ilk memorandum Vüqar Həşimov adına Şahmat Akademiyası ilə imzalanıb. Beləliklə, Dövlət Miqrasiya Xidmətinin reallaşdırdığı layihələr gənclərin inkişafına öz töhfəsini verməkdə davam edir.

# Azərbaycan Könüllülərinin Şəbəkələşməsi və İnkişafı üzrə Milli Platforma

Prezident İlham Əliyev 2019-cu il fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş Respublika toplantısındakı çıxışında dövlət orqanları qarşısında gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq və təcrübi biliklərini artırmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək və ölkədə könüllülük hərəkatını inkişaf etdirmək vəzifəsi qoymuşdur. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi digər dövlət qurumları ilə əlaqəli şəkildə ölkədə gənclər arasında könüllülük fəaliyyətinin daha geniş təşviq edilməsinə başlamışdır. Dövlət agentliyi mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, həmçinin digər dövlət qurumlarında və təşkilatlarında "ASAN Könüllüləri" şəbəkəsinin imkanlarından istifadə

etməklə həmin təşkilatlarda könüllü fəaliyyətin qurulması və tənzimlənməsi istiqamətində iş aparır.

Bu fəaliyyətlərin davamı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən Azərbaycan Könüllülərinin Şəbəkələşməsi və İnkişafı üzrə Milli Platformanın konsepsiyası hazırlanmış və ölkənin könüllü fəaliyyəti üzrə aparıcı qurumları da bu prosesə cəlb olunub.

Milli Platforma Azərbaycan Respublikasında dövlət qurumlarının və digər təşkilatların fəaliyyətinə könüllülərin cəlb olunmasını və bu fəaliyyətlərin əlaqələndirilməsini təmin edir.

www.konullu.gov.az Azərbaycan Könüllülərinin Şəbəkələşməsi və İnkişafı üzrə Milli Platformanın Vahid İnformasiya Portalıdır. İnformasiya sistemi vasitəsilə dövlət qurumları tərəfindən təşkil olunan könüllü fəaliyyəti elektronlaşdırılır. Hər bir qurumun elektron qaydada könüllü qəbulu elanı vermək, müraciət edənlərin sistemdə olan informasiyalarını nəzərdən keçirmək və könüllülüyə qəbul etmək imkanları mövcuddur. Qeydiyyatdan keçmiş qurumun könüllü fəaliyyəti üzrə koordinatoru müstəqil və çevik formada könüllü bazasını formalaşdıra, bu fəaliyyət üzrə prosesləri sürətli şəkildə idarə edə bilər. Eyni zamanda bu sistem qurumlara

könüllülərin fəaliyyətini elektron qaydada qiymətləndirmə imkanı yaradır, dövlət orqanlarında real vaxt rejimində  könüllü fəaliyyəti üzrə hesabatlılıq təmin olunur. Sistem könüllü fəaliyyətinə başlamaq istəyən gənclər üçün də əlavə imkanlar yaradır. Belə ki, onlar qeydiyyatdan keçməklə vahid elektron platforma üzərindən müxtəlif dövlət qurumlarında könüllü elanları ilə tanış ola və arzu etdikləri sahələr üzrə müraciət edə bilərlər. Fəaliyyətə başlamış könüllü öz şəxsi kabinetində könüllülük müqaviləsini təsdiq edir, müvafiq bildirişləri həm e-poçt, həm də sistem üzərində operativ alır, ona verilmiş tapşırıqlar və qiymətləndirmələr ilə tanış olur. Könüllü öz təcrübəsini vahid sistem üzərindən izləyir, fəaliyyətinin sonunda isə elektron sertifikat əldə edir. Portalın yaradılması, idarə olunması, fəaliyyətinin təşkili və inkişafı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən təmin edilir.

# Digər dövlət orqanlarında könüllülük fəaliyyəti

Yuxarıda adları qeyd edilən stajlı könüllülük hərəkatı ilə yanaşı, aşağıda adları qeyd edilən dövlət orqanları da ölkəmizdə gənclərin və könüllülük hərəkatının inkişafına böyük töhfə verir.

Azərbaycan Respublikasının Ali Məhkəməsi də Könüllülük fəaliyyətinə diqqət ayıran qurumlardan sayılır. Əgər Ali Məhkəmənin internet səhifəsini izləsən, məlum olar ki, Azərbaycan Respublikası Ali Məhkəməsində könüllülük fəaliyyəti göstərmək istəyən gənclərin yeni qeydiyyatı  barədə elanlar verilir. Elanlardan da bilindiyi kimi, Könüllülər Proqramına yaşı 18-dən 26-dək olan əsasən hüquq fakültələrində oxuyan və hüquq sahəsində işləyən şəxslərin cəlb edilməsi nəzərdə tutulur. Könüllü olmaq istəyən gənclərin həvəsi və işlədiyi qurumu layiqincə təmsil etmək arzusu olmalıdır. Könüllü olmaq istəyənin xarici dil bilməsi arzu olunandır. Hər həftə Ali Məhkəmədə keçirilən müxtəlif seminarlarda İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin

qəbul etdiyi qərarların müzakirəsi təşkil olunur və könüllü gənclər həmin seminarlarda aktiv iştirak edirlər. Könüllülərlə birgə iş birliyi Ali Məhkəmənin gənclər siyasəti sahəsində həyata keçirdiyi tədbir və layihələrin, eləcə də təqdim edilən dövlət xidmətlərinin tərkib hissəsidir. Proqrama qoşulmaq istəyənlər Ali Məhkəmənin internet səhifəsində könüllülər üçün yaradılmış bölmədə qeydiyyatdan keçməklə könüllü olmaq üçün müraciət edə bilərlər. Tələb olunan sənədlərə isə şəxsiyyət vəsiqəsinin surəti, tələbə bileti və ya diplomun surəti, tərcümeyi-hal və 3x4 ölçüdə fotoşəkil aiddir. Əlavə məlumat almaq üçün isə internet səhifədə könüllülük fəaliyyətinə məsul şəxslərin əlaqə vasitələri qeyd edilmişdir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu isə hüquq tarixində inqilabi bir hadisəyə imza atıb. 2018-ci ildə müsabiqə yolu ilə prokurorluq orqanlarına 85, ümumilikdə isə 2002-ci ildən başlayaraq keçirilən 19 müsabiqə üzrə prokurorluğa qulluğa qəbul edilmiş 873 gənc hüquqşünas hazırda prokurorluğun kadr korpusunun 67 faizini təşkil etməklə, onlardan bir çoxu yuxarı təsnifat vəzifələrə irəli çəkilib, o cümlədən 21 nəfər ilk dəfə olaraq müstəqil rayon, şəhər və ərazi hərbi prokuroru vəzifələrinə təyin ediliblər. Son dövrlər Azərbaycan

gənclərinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirməsi, könüllülər hərəkatının ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirakı istiqamətində aparılan islahatların prokurorluqda da davamlılığının təmin olunması məqsədilə Baş prokuror tərəfindən 6 fevral 2019-cu il tarixində "Azərbaycan Respublikasının prokurorluq orqanlarında ictimai köməkçilərin fəaliyyəti haqqında" təlimat təsdiq edilib. Həmin təlimata əsasən hüquqşünaslıq ixtisası üzrə ali təhsil müəssisələrində təhsil alan gənclərin institusional bacarıqlarının artırılması, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili üçün prokurorluq orqanlarının fəaliyyətinə ictimai köməkçi qismində könüllü olaraq cəlb edilmələri nəzərdə tutulub. Müvafiq ixtisas üzrə ali təhsil müəssisələrində bakalavriat (ikinci kursu bitirmiş), habelə magistratura səviyyələrində təhsil alan gənc tələbələr ictimai köməkçi qismində fəaliyyətlə əlaqədar işlərə könüllü olaraq cəlb edilib.

Prokurorluq orqanlarında könüllü olmaq istəyən tələbə və gənclər Baş Prokurorluğun internet saytından (www.prokurorluq.gov.az, www.genprosecutor.gov.az) əlavə məlumat əldə edə bilərlər.

İqtisadiyyat Nazirliyinin fəaliyyətində könüllü fəaliyyəti mühüm yerə malikdir. Nazirliyin Aparatında və digər qurumlarında könüllü fəaliyyətinə

başlamaqla bağlı mütəmadi olaraq internet resursları üzərindən məlumat verir. Qanuna müvafiq olaraq İqtisadiyyat Nazirliyində könüllü fəaliyyəti aşağıdakı istiqamətlər üzrə təşkil olunur:

- nazirliyin fəaliyyət istiqamətləri üzrə vəzifələrin icrasında işçilərə köməklik göstərmək;
- nazirlikdə korrespondensiyanın qəbulu və göndərilməsi, habelə sənədlərin qeydə alınması, rəsmiləşdirilməsi, işlərin formalaşdırılmasında işçilərə köməklik göstərmək;
- nazirlikdə icra olunmuş sənədlərin kargüzarlığın tələblərinə uyğun olaraq saxlanılması prosesini öyrənmək yolu ilə işçilərə köməklik göstərmək;
- Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə zidd olmayan digər fəaliyyət sahələri.

Könüllülər sırasına qoşulmaq istəyən gənclər İqtisadiyyat Nazirliyinin www.economy.gov.az saytından "Könüllü fəaliyyəti" bölməsinə daxil olaraq elektron müraciət edə bilər və ya öz CV-ni nazirliyin inzibati binasına təqdim edə bilərlər. Nazirlik öz səhifəsində mütəmadi olaraq, Könüllü fəaliyyəti ilə bağlı ərizələrin qəbulu barədə məlumatlar yerləşdirir. Könüllü fəaliyyətinə gənclər 2 ay müddətinə qoşulur. İqtisadiyyat Nazirliyi üzrə gündəlik olaraq 2 növbədə könüllü fəaliyyəti təşkil olunur. Növbələrin bölgüsü aşağıdakı kimidir:

- Saat: 10:00-13:00 – birinci növbə;
- Saat: 14:00-17:00 – ikinci növbə.

İqtisadiyyat Nazirliyində könüllü kimi 2 ay müddətində işləyib müqavilə öhdəliklərini uğurla başa vuran gənclərin hər birinə xüsusi sertifikatlar veriləcəkdir ki, bu da onların növbəti iş həyatına uğurlu bir keçid fürsəti olacaqdır. İqtisadiyyat Nazirliyində təşkil olunan könüllü fəaliyyətinə "ümumi iqtisadiyyat, inzibati idarəetmə, hüquqşünaslıq" ixtisasına malik ali təhsilli və 21-29 yaşarası gənclər müraciət edə bilər. Könüllülər ilə müqavilə müddəti tərəflərin qarşılıqlı razılığına uyğun olaraq uzadıla bilər. Könüllü kimi fəaliyyət göstərmək istəyən gənclər üçün aşağıdakı tələblər müəyyən olunmuşdur. Aşağıdakı tələblərə cavab verən namizədlərə üstünlük verilir:

- kompüterdə ən azından Microsoft Office proqramlarını (Word, PowerPoint, Excel) bilməsi;
- dil biliklərinin olması (rus, ingilis və s.);
- ünsiyyətcillik, işgüzarlıq, təşəbbüskarlıq qabiliyyətinin olması;
- sərbəst araşdırma bacarığının olması;
- operativlik və təşkilatçılıq;
- kollektivdə işləmək bacarığı.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətini də nümunəvi misallar sırasında göstərmək

olar. Dövlət Vergi Xidməti də gənclərin işgüzar inkişafına biganə qalmayıb.

Belə ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əlaqələndirilməklə ölkədə gənclər arasında könüllülük fəaliyyətinin daha geniş təşviq edilməsi, gənclərin yaradıcılıq fəaliyyətinin dəstəklənməsi və asudə vaxtının səmərəli təşkil edilməsi məqsədi ilə vergi orqanlarında müvafiq tədbirlər keçirilib. Hələ Dövlət Vergi Xidməti İqtisadiyyat Nazirliyinə birləşdirilməmişdən öncə, Vergilər nazirinin müvafiq əmri ilə "Vergi orqanlarında könüllü fəaliyyətin təşkilinə dair Tədbirlər Planı"nı və könüllülərin hüquq-vəzifələrini özündə əks etdirən "Haqqı ödənilməyən (könüllü) fəaliyyət haqqında müqavilə" təsdiq edilmişdir. 15 aprel 2019-cu il tarixindən etibarən Bakı şəhərində yerləşən Vergi ödəyicilərinə xidmət mərkəzlərində 15 könüllü fəaliyyət göstərməyə başlamışdır. Onlarla görüşlər keçirilmiş, müvafiq təlimatlandırma aparılmışdır.

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti İqtisadiyyat Nazirliyinə birləşməmişdən öncə də fəaliyyətində könüllülük hərəkatına mühüm yer verib. Belə ki, könüllülük proqramının həyata keçirilməsi mütəmadi davam etdirilib. Proq-

ram “Könüllü fəaliyyət haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq reallaşdırıb. Proqramı başa vuran könüllülərə könüllülük fəaliyyətini bitirmələri haqqında sertifikatlar təqdim edilib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi də gənclərin könüllülük fəaliyyətinə biganə qalmayıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin könüllü gəncləri “Təbiəti könüllü qoruyaq” adlı qrupa qoşulmağa çağırması ilə bağlı mətbuat və sosial mediada gedən elanları yəqin ki, görmüsən. Nazirlik mütəmadi olaraq ictimai rəyə çatdırılan məlumatlarında qeyd edir ki, Könüllülük fəaliyyətinə qoşulan gənclər ətraf mühitin, təbii sərvətlərin qorunması istiqamətində təbliğat-maarifləndirmə işləri və əmək vərdişləri aşılayan təlimlərdə iştirak edərək seçilənlərə xüsusi sertifikatlar təqdim edilir.

Seçilmiş namizədlərdən gələcəkdə nazirliyin ehtiyat kadr heyətinin formalaşdırılması nəzərdə tutulur ki, bu da gənclərin iş həyatına uğurlu bir keçid fürsəti yaradacaq.

Müraciət etmək istəyənlər tərcümeyi - halını ecoschool@eco.gov.az elektron poçt ünvanına göndərilməsini qeyd edən nazirlik, öz internet resurslarında könüllülər üzrə məsul şəxslərin əlaqə vasitələrini yerləşdirməklə gənclərin istənilən suallarına cavab almaq imkanı da yaradılıb.

Ətraf mühit və təbii sərvətlərin qorunması istiqamətində təbliğat və maarifləndirmə işlərinin daha da genişləndirilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən yaradılmış "Təbiəti könüllü qoruyaq" adlı Könüllülər Proqramının ali məktəblərdə təqdimatı keçirilib. Dövlət İdarəçilik Akademiyasında, İqtisad və Azərbaycan Dövlət Neft və Sənaye Universitetlərində, Bakı Ali Neft Məktəbində keçirilən təqdimatlarda ETSN-in nümayəndələri tərəfindən tələbələrə ekokönüllü proqramının məqsədi, iştirak qaydaları, imkanları və gənclərin bu cür layihələrə cəlb edilməsinin əhəmiyyəti barədə ətraflı məlumat verilib. Bildirilib ki, könüllülük fəaliyyətinə qoşulan gənclər ətraf mühit və təbii sərvətlərin qorunması istiqamətində aparılan təbliğat və maarifləndirmə işlərində yaxından iştirak edəcək, proqram çərçivəsində nazirliyin mütəxəssisləri tərəfindən onlara əmək vərdişləri aşılayan təlimlər keçiriləcək və nəzəri-praktik biliklərin qazanılması üçün geniş şərait yaradılacaq. Seçilənlərə xüsusi sertifikatlar veriləcək və onlar ehtiyat kadrlar siyahısına alınaraq gələcəkdə ETSN-də kadr heyətinin formalaşdırılmasında iştirak edəcəklər. Bu da gənc könüllülərin iş həyatına uğurlu bir keçid fürsəti yaradacaq. Qeyd edək ki, bu günədək "Təbiəti könüllü qoruyaq" könüllülər qru-

puna 300-dən çox gənc qoşulub. Ekologiya və Təbii Sərvətlər Nazirliyi gəncləri ətraf mühitin qorunması istiqamətində birgə təbliğat aparmağa, “Təbiəti könüllü qoruyaq” könüllülər qrupuna qoşulmağa və əməkdaşlıq etməyə çağırır. Nazirliyin nümayəndələri tərəfindən eko könüllü proqramı çərçivəsində təqdimatlar digər ali məktəblərdə də davam etdirilir.

Diasporla İş üzrə Dövlət Komitəsi Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin, 1 fevral 2019-cu il tarixində Azərbaycan Gənclər Gününə həsr olunmuş Respublika toplantısında söylədiyi “Mənim də tövsiyəm ondan ibarətdir ki, gəncləri dövlət təşkilatları önə çəksinlər. Çünki gənclərin həm potensialı, həm fəallığı, həm də məsələlərə yeni baxışları cəmiyyət üçün çox lazımdır. Bütün dövlət təşkilatlarına tövsiyə etmişəm ki, könüllüləri cəlb etsinlər” fikirlərinə əsaslanaraq “Azərbaycan Diaspor Könüllüləri” adlı yeni proqrama başlayır. Proqram çərçivəsində diaspor könüllüsü olmaq istəyən 18-29 yaşarası gənclər üçün komitə mütəmadi olaraq öz elektron resursları vasitəsilə elanlar verir. Proqramda iştirak arzusunda olanlar üçün isə müraciət tarixləri qeyd edilir. Dövlət Komitəsinin rəsmi internet saytında (http://diaspor.gov.az/volunteers/) yerləşdirilmiş müvafiq formanı doldurmaqla könüllü olmaq

istəyən şəxslər müraciət edə bilərlər. Müraciət edənlər arasından seçilmiş "Azərbaycan Diaspor Könüllüləri" 2 ay müddətində Dövlət Komitəsində müvafiq Könüllülük Proqramı keçirlər. Proqramın ilk iki həftəsində gənclərə könüllülük fəaliyyəti, diaspor, Azərbaycan diaspor hərəkatı haqqında ümumi məlumatlar verilir. Növbəti həftələrdə isə proqram ayrı-ayrı qruplar şəklində müvafiq struktur şöbələrində davam etdirilir. Proqramda tam iştirak etmiş gənclərə Dövlət Komitəsi tərəfindən sertifikatlar təqdim olunur. Könüllülərin diaspor sahəsində dövlət siyasətinə ictimai dəstəyin təşkilində, müxtəlif yerli və beynəlxalq layihələrdə, diaspor gənclərinin müxtəlif ölkələrdə keçirdiyi tədbirlərdə və uyğun maarifləndirici aksiyalarda iştirak etməsi nəzərdə tutulur. Eyni zamanda, komitənin internet resurslarında, internet axtarış sistemləri vasitəsilə də könüllülər üzrə məsul şəxslərin əlaqə vasitələrini tapmaq çox asandır.

Səhiyyə Nazirliyi "Könüllülük fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq öz strukturlarında könüllülük fəaliyyətini genişləndirir.

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə

Dövlət Agentliyi ilə əlaqələndirməklə ölkədə gənclər arasında könüllülük fəaliyyətinin daha geniş təşviqinə başlayıb.

Qanuna müvafiq olaraq Səhiyyə Nazirliyi könüllü fəaliyyəti əsas etibarilə aşağıdakı bölmələr üzrə təşkil edir.

Səhiyyə Nazirliyinin inzibati binası üzrə:

*- tibbi yardımın təşkili şöbəsi;*

*- kadrlar, elm və təhsil şöbəsi;*

*- sanitariya və epidemiologiya nəzarəti sektoru;*

*- ümumi şöbə;*

*- səhiyyənin informasiyalaşması mərkəzi.*

Bakı Baş Səhiyyə İdarəsi üzrə:

*- Bakı şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyası;*

*- Kliniki Tibbi Mərkəz (qeydiyyat şöbəsi);*

Azərbaycan Tibb Universitetinin klinikaları üzrə:

*- Tədris Onkoloji Klinika (qeydiyyat şöbəsi);*

*- Tədris Stomatoloji Klinika (qeydiyyat şöbəsi);*

*- Tədris Terapevtik Klinika (qeydiyyat şöbəsi);*

*- Tədris Cərrahiyyə Klinika (qeydiyyat şöbəsi);*

*- Azərbaycan Tibb Universitetinin inzibati binası üzrə;*

*-I müalicə-profilaktika fakültəsi dekanlığı;*

*-II müalicə-profilaktika fakültəsi dekanlığı;*

*-Stomatologiya fakültəsi dekanlığı;*

*-Əczaçılıq fakültəsi dekanlığı;*

*-İctimai səhiyyə fakültəsi dekanlığı;*

*-Tədris şöbəsi;*

*-Rezidentura şöbəsi;*

*-Xarici tələbələrlə iş üzrə dekanlıq;*

*-İnzibati-təsərrüfat işləri üzrə prorektorluq;*

*-Beynəlxalq əlaqələr şöbəsi.*

-Könüllülük fəaliyyətinə gənclər 2 ay müddətinə qoşulur, müxtəlif sosial bacarıqları və əmək vərdişləri aşılayan təlimlərdə iştirak edir. Səhiyyə Nazirliyi üzrə gündəlik olaraq 2 növbədə könüllülük fəaliyyəti təşkil olunur və könüllülər istədikləri növbə üzrə fəaliyyətə qoşula bilir. Növbələrin bölgüsü aşağıdakı kimidir:

Saat: 09:00 – 13:00 – birinci növbə;

Saat:14:00 – 18:00 – ikinci növbə.

Səhiyyə Nazirliyi könüllü kimi 2 ay müddətində işləyib müqavilə öhdəliklərini uğurla başa vuran gənclərin hər birini xüsusi sertifikatlarla təltif edir. Bu isə könüllülərin gələcək karyera fəaliyyəti üçün çox mühüm sənəd hesab edilə bilər. Könüllülük fəaliyyətinə təhsil səviyyəsindən asılı olmayaraq, 16-29 yaş arası gənclər müraciət edə bilər. Könüllü kimi fəaliyyət göstərmək istəyən gənclər üçün aşağıdakı tələblər müəyyən olunmuşdur: intizamlılıq, xoşrəftarlıq, ünsiyyətcillik, operativlik, təşkilatçılıq, təşəbbüskarlıq, kompüter bacarığı.

Azərbaycan Respublikasının "Könüllü fəaliyyət haqqında" Qanununa və Dövlət Gömrük Komitəsi sədrinin "Dövlət Gömrük Komitəsinin sistemində könüllülük hərəkatının inkişafı ilə bağlı tədbirlər haqqında" müvafiq sərəncamına əsasən Dövlət Gömrük Komitəsində "Könüllü gömrükçü" dəstəsi fəaliyyət göstərir. "Könüllü gömrükçü" dəstəsinə üzv olmaq müsahibə yolu ilə həyata keçirilir. Hazırda "Könüllü gömrükçü" dəstəsi tam formalaşmışdır. "Könüllü gömrükçü" dəstəsinə üzvlər "Ehtiyat üzvlər bazası"ndan müsahibə yolu ilə seçilir. "Könüllü gömrükçü" dəstəsi üzrə yaranmış vakant yerlərə görə növbəti müsahibənin keçirilməsi vaxtları barədə məlumatlar komitə tərəfindən internet resurslar vasitəsilə ictimai rəyə çatdırılır. "Könüllü gömrükçü" dəstəsinin ehtiyat üzvü olmaq istəyən gənclər müvafiq formanı doldurub Dövlət Gömrük Komitəsinə müraciət edə bilərlər. 2019-cu ilin iyunun 8-də Dövlət Gömrük Komitəsində yeni yaradılan "Könüllü gömrükçü" dəstəsinin üzvləri ilə görüş keçirilib. Görüşdə Dövlət Gömrük Komitəsinin rəhbərliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin nümayəndələri və "Könüllü gömrükçü" dəstəsinin 131 üzvü iştirak edib.

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi də öz strukturlarında könüllülük fəaliyyətini təşkil edir. Komitə gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq və təcrübi biliklərini artırmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək və ölkədə könüllülük hərəkatını inkişaf etdirmək üçün könüllü olmaq istəyən gənclərə geniş imkanlar yaradır.

Bu məqsədlə Dövlət Komitəsi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əlaqələndirməklə ölkədə gənclər arasında könüllülük fəaliyyətinin daha geniş təşviq edilməsinə başlayıb.

Qanuna müvafiq olaraq Dövlət Komitəsində könüllü fəaliyyəti aşağıdakı istiqamətlər üzrə təşkil olunur:

- *komitədə könüllü fəaliyyətin həyata keçirilməsi;*
- *vətəndaşların qarşılanması və müraciət formalarının doldurulmasında köməkliyin göstərilməsi;*
- *komitəyə müraciət edən vətəndaşlara düzgün izah verilməsi;*
- *əlillərin Komitədə daha asan xidmət almasına*

*dəstək, xidmət müddətində onlara qayğının göstərilməsi;*
- *komitəyə gəlmiş valideynlərin uşaqlarına xüsusi qayğının göstərilməsi;*
- *vətəndaşların məlumatlandırılması və digər köməkliklərin göstərilməsi;*
- *Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə zidd olmayan digər fəaliyyət sahələri.*

Könüllülük fəaliyyətinə gənclər 2 ay müddətinə qoşulur, müxtəlif sosial bacarıqları və əmək vərdişləri aşılayan təlimlərdə iştirak edir. Dövlət Komitəsi üzrə gündəlik olaraq 2 növbədə könüllülük fəaliyyəti təşkil olunur və könüllülər istədikləri növbə üzrə fəaliyyətə qoşula bilər. Növbələrin bölgüsü aşağıdakı kimidir:

Birinci növbə, saat: 09:30-12:30;

İkinci növbə, saat: 13:00-16:00.

Dövlət Komitəsində könüllü kimi 2 ay müddətində işləyib müqavilə öhdəliklərini uğurla başa vuran gənclərin hər birinə xüsusi sertifikatlar təqdim edilir ki, bu da onların gələcək karyerasının formalaşmasında müstəsna əhəmiyyətə malikdir. Komitədə təşkil olunan könüllülük fəaliyyətinə təhsil səviyyəsindən asılı olmayaraq, 16-29 yaşarası gənclər müraciət edə bilər.

Könüllü kimi fəaliyyət göstərmək istəyən gənclər üçün; intizamlılıq, xoşrəftarlılıq, ünsiyyətcillik,

operativlik, kollektivdə işləmək bacarığı, təşkilatçılıq, təşəbbüskarlıq, kompüter bacarığı kimi tələblər müəyyən olunmuşdur.

Müraciət üçün Könüllülər sırasına qoşulmaq istəyən gənclər öz CV-ni (tərcümeyi-hal) konullu@refugee.gov.az e-poçtuna göndərə bilər. Yaxud da, Bakı şəhəri, Tbilisi prospekti 129 ünvanına öz sənədlərini təqdim edə bilər. Müvafiq tələblərə cavab verən şəxslərlə əlaqə saxlanılır və onlar müsahibəyə dəvət olunur.

QEYD

QEYD

# KÖNÜLLÜNÜN
# ÖZ/ƏL KİTABI


**Nəşrə məsul:**
Mahir Cəbiyev
Əli Fərzəliyev

**Dizayner:**
Əlizamin Ələsgərov

9789952373981

Yığıma verilmişdir: 06.01.2020
Capa imzalanmışdır: 09.01.2020
Kağız formatı: 84x108, 1/32,
Həcmi:6,25 ç.v.
Tiraj: 3000.

AZFOOD İNFORMASİYA AGENTLİYİ MMC tərəfindən nəşrə hazırlanmışdır.